# XƏZƏR UNİVERSİTETİ

**Fakültə:** Humanitar və sosial elmlər fakültəsi

**Departament:** Jurnalistika

**İxtisas:** Beynəlxalq Jurnalistika

## MAGİSTR TEZİSİ

**Mövzu: Jurnalistikanın beynəlxalq doktrinaları: xarici və yerli təcrübə**


**Magistrant:** Quliyeva Samirə Həsən qızı

**Elmi rəhbər:** Şahbaz Şamı oğlu Musayev, Bakı Slavyan Universiteti "Jurnalistika nəzəriyyəsi və təcrübəsi" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru


**Bakı- 2012**

## Referat

Yarandığı ilk günlərdən jurnalistikanın da digər sahələrdə olduğu kimi, özünün prinsip və vəzifələrinin müəyyənləşdirilməsinə ehtiyac duyulmuşdu. İllər keçdikcə beynəlxalq səviy-yədə tanınan prinsip və vəzifələr yarandı, demək olar ki, bütün ölkələrdə jurnalistlərin fəa-liyyətində tətbiq olunmağa başlandı. Həm də beynəlxalq səviyyədə tanınan və əməl edilən prinsiplər sırasında jurnalistikanın doktrinaları da yer aldı. Məlum olduğu kimi, bir neçə mü-hüm beynəlxalq doktrina var ki, müasir günümüzdə hər bir KİV, o cümlədən hər bir jurnalist onlara mütləq əməl etməlidirlər.

Qeyd olunduğu kimi, mühüm beynəlxalq doktrinalardan biri informasiyanın mənbəyini göstərməkdir. Bu doktrinadan demək olar ki, dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərinin KİV-də daha geniş istifadə olunur. Lakin bəzən mənbənin göstərilməsindən yayınma halları da olur. Azərbaycanda da bu hallara tez-tez rast gəlmək mümkündür. İnformasiyanın mənbəyini göstərmək doktrinası barədə İngiltərə qanunvericiliyində xüsusi tələb var-dır. Hələ 1920-ci illərdə qüvvəyə minən bu qanun getdikcə inkişaf etmiş, təkmilləşmiş və bir çox qərb ölkələrinin moduluna çevrilmişdir. BBC dünya informasiya xidməti mənbəyi mütləq göstərməyi öz fəaliyyətində doktrina kimi qəbul etmişdir. Amerikanın "Washington Post" qəzeti mümkün olan bütün hallarda informasiyanın mənbəyini açmaq qaydalarına əməl edir. Mənbənin açıqlanmaması barədə razılıq əldə edilibsə, bu barədə informasiya heç vaxt redaksiyadan kənara çıxmayacaqdır. Anonim informasiya mənbəyindən istifadə edər-kən jurnalist bu mənbəni leqallaşdırmağa cəhd göstərməlidir.

Digər bir doktrina isə jurnalist məsuliyyətidir. Beynəlxalq jurnalistikada informasiya və jurnalistin digər materialları təkcə xəbərləndirmək, məlumatlandırmaq deyil, habelə insanı, cəmiyyəti bu informasiya ilə istiqamətləndirmək, ictimai rəy yaratmaq rolunda da çıxış edir. Jurnalist obyektiv ictimai rəy formalaşdırmaq üçün məsuliyyət daşıyır. Xüsusilə, sosial problemlərin yayımında diqqətli olmaq vacibdir. Jurnalist verdiyi informasiyaya görə təkcə naşirin qarşısında deyil, həmçinin cəmiyyət qarşısında da məsuliyyət daşıyır. Məsuliyyəti unudan jurnalistin tənqidi çıxışları arzu olunan nəticəni verməz, lazımsız söz-söhbətə səbəb olar, təkcə müəllifə deyil, onun çalışdığı media qurumunun da nüfuzuna xələl gətirər.

Son 50 ildə daha geniş müzakirə mövzusuna çevrilən və aktuallığını hər zaman artıran şərə qarşı mübarizə doktrinası beynəlxalq jurnalistikada daha çox problemlə üzləşən növ-lərdəndir. Tarix boyu şər insanların ən çox istifadə etdikləri vasitələrdən olub. İstər adi hə-yatda, istərsə də kütləvi informasiya vasitələri sahəsində təəssüflər olsun ki, şər insanların ələkilməsi çətin olan bir məşğuliyyətə çevrilib. Bütün dünyada olduğu kimi ölkəmizdə də "reket jurnalistikası"

anlayışı mövcuddur. Düzdür, bir neçə il əvvələ qədər reket qəzetlər və reket jurnalistlər daha çox idi. Onlar rüşvət xətrinə insanlara şər atmaqdan çəkinmirlər.

Müasir beynəlxalq jurnalistikada aktual olan doktrinalardan biri də prioritet mövzudur. Bu ifadə beynəlxalq jurnalistikada latın dilində olduğu kimi işlənilir. Mənası – birincilik, üs-tünlük deməkdir. Jurnalistikada əsas mövzu, başlıca maraq kəsb edən mövzu kimi qəbul olunur. Prioritet mövzular müxtəlif səpkili, müxtəlif sahələrə aid ola bilər. Lakin həmin ha-disələr, informasiyalar yaşından, cinsindən, milliyyətindən, irqindən asılı olmayaraq hər kəs üçün maraqlı gəlir. Müsbət xarakterli informasiyalarla yanaşı, mənfi səpkili xəbərlər də prio-ritetə salınır. İnsanlarda ən çox maraq kəsb edəni isə məhz mənfi xarakteli olanlarıdır.

Rəsmi doktrina kimi ilk dəfə 1934-cü ildə ABŞ-da qəbul olunan qərəzsizlik də bu gün ən aktual mövzulardandır. Aktual olması ilə yanaşı, həm də demək olar ki, bütün ölkələrdə insanların tez-tez rastlaşdığı hallardandır. Ümumiyyətlə, qərəzsizlik jurnalistin və nəşrin rey-tinqini yüksəldən, cəmiyyətin bütün təbəqələri tərəfindən qəbul olunmasına şərait yaradan faktor kimi çox qiymətlidir. Jurnalistin qərəzsizliklə bağlı bəzi öhdəlikləri mövcuddur: KİV zövq, fikir və təkliflərə cavab və səs verməklə yalnız bütöv auditoriyaya xidmət edir. Qərəz-sizlik doktrinası jurnalistdən neytrallıq da tələb edir. Bu baxımdan hər bir jurnalistin, onun çalışdığı KİV orqanının da neytrallıq prinsipinə əməl etməsi vicdanlılıq əsnasında vacibdir.

Hər bir insanın malik olduğu keyfiyyətlərdən biri də vicdandır. Yəni, insan həyatı boyu vicdanlı yaşamalı, digərlərinə qarşı vicdanlı davranmalı və hərəkət etməlidir. Jurnalistika ilə məşğul olanlar da digər sahələrdə olduğu kimi, öz işlərinə vicdanla yanaşmalıdırlar. Heç təsadüfi deyil ki, vicdanlılıq jurnalistikada beynəlxalq doktrinalar sırasına qəbul olunub. Bu o deməkdir ki, hər bir KİV işçisi, müxbirdən tutmuş rəhbərliyə kimi hamı öz işini vicdanla həyata keçirməldir. Vicdanlılıq qəzet, radio və ya televiziya ekranının belə bir vasitəyə sahib olmayan müdafiəsiz adama daimi, müntəzəm hücumlarını bəyənmir. Vicdanlılıq təkcə jur-nalistin yazılı nitqində deyil, sifahi sorğularında, teleproqramlarda da özünü göstərir. Məsələn, oyun şoularına, müsabiqələrə, tok-şoulara dəvət olunmuş adamlar özlərini diskom-fort vəziyyətdə, təhqir olunmuş hiss etməməlidirlər.

Jurnalistikanın beynəlxalq standartları sırasında ədalətlilik prinsipi də mühüm yer tutur. Bu doktrina kütləvi informasiya vasitələrində müxtəlif mübahisəli, hətta əks qütblü prob-lemlər barədə tamamilə fərqli tərəflərin eyni imkanlar daxilində öz fikrini bildirməsini nə-zərdə tutur. Həqiqətən də, insanın, vətəndaşın hər hansı bir problem barədə özünün əks fikrini ifadə etməsinə KİV-də şərait yaradılması çox böyük demokratik keyfiyyət kimi qəbul olunur. Beynəlxalq jurnalistikada ədalətsizlik təkcə jurnalistlərin və redaksiyaların insanlara, aponentlerə qarşı davranışında deyil, həmçinin ölkələr, təşkilatlar arasında informasiya ötü-rülməsində və mübadiləsində də baş verir. Belə ki, güclü dövlətlər informasiya ötürülməsi zamanı ədalətsizliyə

yol verir, zəiflərin informasiya almaq və ötürmək hüquqlarını pozmuş olurlar. Əslində, ən çox informasiya idxal edən tərəf gücsüz, az inkişaf etmiş və ya inkişaf etməmiş ölkələr olsa da, bunun ədalətsizliyə gətirib çıxardığını söyləmək mümkündür.

Göründüyü kimi, dissertasiyada haqqında danışılan doktrinalar KİV-nin və jurnalistin fəaliyyətinin ayrılmaz bir hissəsidir. Lakin tez-tez bu doktrinaların pozulduğunun da şahidi oluruq. Bütün bu problemlərlə yanaşı, onların həlli və qarşısının alınması üçün həm yerli, həm də beynəlxalq təşkilatlar, müvafiq qurumlar tərəfindən müəyyən işlər həyata keçirildiyini gördük. Bu cür hallar hazırda da davam edir. Doktrinalara əməl etməyən kütləvi informasiya vasitələri və jurnalistlərlə mübarizə də davam edir. Azərbaycanla yanaşı, bütün dünyada belə fəaliyyətin dövlət səviyyəsində pislənildiyinin və hakimiyyətin bu cür insanlara qarşı hər zaman mübarizə apardığının da şahidi olduq. Bu dissertasiyadan belə qənaətə gəlmək mümkündür ki, hələ ötən əsrin əvvəllərindən başlayan doktrinaların, eləcə də prinsiplərin pozulmasına qarşı mübarizə tədbirləri təəssüf ki, kifayət etmir. Bunun üçün hələ yerli və beynəlxalq təşkilatlar çox çalışmalıdırlar. Əlbəttə ki, kütləvi informasiya vasitələri və jurnalistlər özləri də bu işdə yaxından iştirak etməlidirlər.

## Abstract

One of the actual themes of the journalism is international doctrines. The most popular doctrines are: doctrine of to show the source of the information; doctrine of journalist responsibility; doctrine of fight against evil; the priority theme doctrine; impartiality doctrine; conscientiousness doctrine; justness doctrine.

Doctrines spoken about in the thesis are inseparable part of the activities of the mass-media and journalists. But are often be witness of disturbed these doctrines. Local and international organizations do definite works for solution of these problems. In the thesis we saw that the measures of fight for against, to being disturbed of the doctrines and principles unfortunately does not suffice. For this purpose at the same time with organizations, mass-medias and journalists must work intensively, too.

**Mündəricat**

Giriş ........................................................................................................................ 6

**I Fəsil.** Jurnalistikanın beynəlxalq doktrinaları: Qərb və Türkiyə təcrübəsi.................. 12

**II Fəsil.** Jurnalistikanın beynəlxalq doktrinalarının Azərbaycan mediasında tətbiqi problemi......................................................................................................................... 57

Nəticə........................................................................................................................ 75

Ədəbiyyat siyahısı ........................................................................................................ 78

## Giriş:

Beynəlxalq jurnalistikada ən aktual mövzulardan biri doktrinalar və onların yerinə yetirilməsi məsələsidir. Dissertasiyanın bu mövzuda yazılmasında məqsəd jurnalistikanın beynəlxalq doktrinalarının müasir günümüzdə, həmçinin əvvəlki illərdə nə dərəcədə mövcudluğuna, onlara əməl olunub-olunmadığına nəzər salmaqdır. Bu aktuallıq son dövrlər bütün dünyada ona qarşı marağı və diqqəti artırıb, bunun da nəticəsidir ki, bir çox mütəxəssislər, jurnalistlər indi daha çox bu haqda danışmağa, araşdırmalar aparmağa başlayıblar. İnkişaf etmiş dövlətlərlə yanaşı, inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Azərbaycanda da ayrı-ayrı doktrinalarla bağlı müxtəlif müzakirələr aparılır, seminarlar, konfranslar təşkil olunur və qarşıya çıxan problemlərin həlli ilə bağlı tədbirlər planı hazırlanılır.

Azərbaycanlı mütəxəssis və pedaqoq Cahangir Məmmədliyə görə, jurnalistikanın əsas beynəlxalq doktrinaları bunlardır: informasiyanın mənbəyini göstərmək, jurnalistin məsuliyyəti, şərə qarşı mübarizə, prioritet mövzu, qərəzsizlik doktrinası, vicdanlılıq doktrinası, ədalətlilik doktrinası. Eyni zamanda, bir çox alimlər, E.P.Proxorov, S.Q.Korkonosenko, İ.İ.Saçenko, E.F.Konev, B.L.Zaleskiy və digər tədqiqatçıların da bu mövzuyla bağlı araşdırmaları, həmçinin yazıları da var. Dünyanın hər yerində jurnalistlər, media işçiləri bu doktrinalara əməl etməlidirlər. Əslində dünya jurnalistikasında yaranandan bu günə kimi haqqında danışacağımız doktrinalar da mövcud olmuşdur. Lakin müəyyən dövrlərdə siyasi, iqtisadi vəziyyətlərlə əlaqədar olaraq heç də həmişə onlara düzgün riayət olunmayıb. Bunun əsas səbəblərindən biri isə mövcud vəziyyətlə yanaşı, həmçinin media qurumlarının, KİV nümayəndələrinin, jurnalistlərin yaranmış vəziyyətdən istifadə etmək niyyətləri olub. Bununla belə, bu gün bütün dünyada jurnalistikanın beynəlxalq doktrinalarına daha çox əməl olunmağa başlanılıb. Xüsusilə, ABŞ və qərb ölkələrində, qonşu Türkiyədə bu cəhətdən müsbət irəliləyişlər nəzərə çarpır.

Ümumiyyətlə, bu mövzu geniş olsa da hələ ki, bu sahədə ölkəmizlə yanaşı, bir çox dövlətlərdə geniş şəkildə yeni araşdırmalar aparılmayıb. Mövcud araşdırmaları doktrinaların beynəlxalq səviyyədə tətbiqindəki problemlərin həlli üçün yetərli hesab etmək hələ ki, mümkün deyil. Azərbyacanla müqayisədə xarici mütəxəssislərin bu mövzuya daha çox yer ayırdığını və onu daha geniş şəkildə araşdırdığını görürük. Bu işlə əsasən Rusiyada, Amerika Birləşmiş Ştatlarında, eyni zamanda digər Qərb dövlətlərində çalışan mütəxəssislər daha çox maraqlanır, onu tez-tez tədqiqat obyektinə çevirirlər.

Bir çox az inkişaf etmiş ölkələr kimi Azərbaycanda da hələ ki, mövcud xarici araşdırmalardan yararlanmağa çalışılır. Əlbəttə, bütün bunlar doktrinaların bizdə də tədqiqi üçün yaxşıdır, yerli mütəxəssislərimizin bu sahədəki təcrübəsinin və biliyinin artmasına yardımçı olur. Lakin artıq azərbaycanlı alimlərin də beynəlxalq doktrinalarla bağlı tədqiqatlarda iştirakı mütləqdir.

Yuxarıda qeyd olunduğu kimi, jurnalistikanın beynəlxalq səviyyədə tanınan və əməl olunan bir neçə mühüm doktrinası var. Bunlardan biri informasiyanın mənbəyini göstərməkdir. Ümumiyyətlə, bu doktrinadan demək olar ki, dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərinin kütləvi informasiya vasitələrində daha geniş istifadə olunur. Lakin bəzən mənbənin göstərilməsində yayınma halları da olur. Azərbaycanda da bu hallara tez-tez rast gəlmək mümkündür. Hətta bəzi müasir qəzetlərin və jurnalistlərin mənbəsiz fakta sovet dövründən öyrəşmiş auditoriyanın xarakterindən yararlanma keyfiyyəti də göz qabağındadır. "Adının çəkilməsini istəməyən mənbə", "bəzi mənbələr", "bizə məlum olmayan mənbələr", "məlumatlı mənbələr" və s. ifadəli yalan yaxud yoxlanılmamış informasiyalar çoxdur. Lakin artıq beynəlxalq jurnalistika bunları qəbul etmir. Önəmli Qərb informasiya vasitələri konfidensial mənbələrə –yəni öz nyusmeykerlərinin (hər hansı bir xəbəri jurnalistə gizli ötürən) mənbələrinə heç vaxt istinad etmir. Konfidensial mənbə leqallaşmayınca xəbəri efirə və ya qəzet səhifəsinə çıxarmaq olmaz. İnformasiya mənbəyinin göstərilməsi oxucu, dinləyici və tamaşaçıya həqiqətin təqdim olunmasının sübut faktıdır. Auditoriyanın inamını qazanmağın asan yollarından biri də elə budur. Bu dissertasiya işində mənbənin göstərilməsi ilə bağlı problemlər, yeniliklər vurğulanıb, müxtəlif ölkələrin təcrübəsinə əsaslanaraq problemlər və onların həlli yolları göstərilib.

Digər bir doktrina isə jurnalist məsuliyyətidir. Beynəlxalq jurnalistikada informasiya və jurnalistin digər materialları təkcə xəbərləndirmək, məlumatlandırmaq deyil, habelə, insanı, cəmiyyəti bu informasiya ilə istiqamətləndirmək, ictimai rəy yaratmaq rolunda da çıxış edir. Jurnalist obyektiv ictimai rəy formalaşdırmaq üçün məsuliyyət daşıyır. Xüsusilə, sosial problemlərin yayımında diqqətli olmaq vacibdir. Jurnalist verdiyi informasiyaya görə təkcə naşirin qarşısında deyil, həmçinin, cəmiyyət qarşısında da məsuliyyət daşıyır. Bu baxımdan da dünyanın hansı ölkəsində fəaliyyət göstərməsindən asılı olmayaraq hər bir media işçisi məsuliyyətli çalışmalıdır. Lakin təəssüflə qeyd ediləsi bir məqam da var ki, bu gün istənilən ölkədə məsuliyyətdən kənar fəaliyyət göstərən jurnalistlər də var. İstər dünya, istərsə də Azərbaycan təcrübəsində bu hallarla tez-tez rastlaşmaq mümkündür. Bununla belə, adı çəkilən problemin həlli çox aktualdır, onun həllinə çalışılır və artıq demək olar ki, bütün media, hətta ən kiçik KİV qurumları belə jurnalistdən məsuliyyətli işləməsini ciddi şəkildə tələb edir. Son dövrlər tez-tez işlətdiyimiz dördüncü hakimiyyət keyfiyyəti də jurnalistin sosial məsuliyyətindən doğur. Ümumiyyətlə, jurnalistin məsuliyyəti anlayışı son vaxtlar istər peşənin nəzəri sahəsində istərsə də, praktikasında çox işlək ifadəyə çevrilmişdir. Jurnalistin məsuliyyəti, həmçinin sosial məsuliyyəti anlayışı hələ XVIII əsrin ortalarında İngiltərə jurnalistlərinin dilində geniş işlənmişdir. Bununla bağlı həm birinci, həm də ikinci fəsildə müxtəlif fikirlərə nəzər salacayıq.

Son 50 ildə daha geniş müzakirə mövzusuna çevrilən və aktuallığını hər zaman artıran şərə qarşı mübarizə doktrinası beynəlxalq jurnalistikada daha çox problemlə üzləşən növlərdəndir. Tarix boyu şər insanların ən çox istifadə etdikləri vasitələrdən olub. İstər adi həyatda, istərsə də kütləvi informasiya vasitələri sahəsində təəssüflər olsun ki, şər insanların əlçəkilməsi çətin olan bir məşğuliyyətə çevrilib. Bütün sənət növləri kimi jurnalistika da meydana çıxdığı vaxtdan kamilliyə, bütövlüyə, cəmiyyətin ideallarına xidmət etmişdir. İnformasiyanın tirajlanma imkanının yarandığı vaxtdan bu günə kimi uzun müddət jurnalistikanın əsas məqsədlərindən biri də şərin şər olduğunu göstərmək və hatta müxtəlif publisist yazıları ilə onu ifşa edib aradan qaldırmağa kömək etmək olub. Dünya jurnalistika təcrübəsində estetik ideallar carçısı olan yazıçıların jurnalistikaya müraciət etməsi məhz bununla şərtlənir. Əlbəttə ki, son bir neçə on illik boyu şərin yayılma əhatəsinin bu qədər genişlənməsi bütün dünyanı beynəlxalq səviyyədə narahat edir. Bu məqsədlə də şərə qarşı mübarizə doktrinası başda olmaqla bir çox normalar, sərəncamlar, qanunlar qəbul olunur və onlara əməl edilməsinin vacibliyi də xüsusi vurğulanır. Həm digər ölkələrdə, həm də Azərbaycanda şərə qarşı ciddi şəkildə mübarizə aparılsa da bu sahədə problemlər qalmaqdadır. Dissertasiyanın hər iki fəslində Azərbaycanla yanaşı, digər ölkələrdə mövcud problemlər və onların həlli yollarına da diqqət yetirmiş olacayıq.

Müasir beynəlxalq jurnalistikada aktual olan doktrinalardan biri də prioritet mövzudur. Bu ifadə beynəlxalq jurnalistikada latın dilində olduğu kimi işlənilir. Mənası – birincilik, üstünlük deməkdir. Jurnalistikada əsas mövzu, başlıca maraq kəsb edən mövzu kimi qəbul olunur. Bu keyfiyyət barədə də uzun müddət mübahisələr getmişdir. Məsələn: qəzet və ya televiziya xəbərlərində nəyə üstünlük verilməlidir? Yerli priotitetə, yoxsa beynəlxalq prioritetə? Bu sahədə xeyli müddət fikir ayrılığı olmuşdur. Bir qism nəzəriyyəçi kütləvi informasiya vasitəsinin fəaliyyət göstərdiyi ölkənin prioritet xəbərini səviyyəsindən asılı olmayaraq başlığa, birinci səhifəsinə, anonsa çıxarmağı məsləhət görür. Digər qism dünyada baş verən ən önəmli xəbəri kütləvi informasiya vasitəsinin harda, hansı ölkədə fəaliyyət göstərməsindən asılı olmayaraq yuxarı çıxarmağı təkid edir. Onu da vurğulayaq ki, uzun müddət birinci qism haqlı olmuşdur. Dünya xəbərlərinin primitiv üsulla ləng ötürüldüyü çağlarda, habelə, dünya inteqrasiyasının çox zəif olduğu vaxtlarda beynəlxalq prioritet xəbər yerli auditoriya üçün maraqlı olmaya bilərdi. Bugünkü dəyişən dünyada isə vəziyyət başqadır. İnformasiya ötürücü vasitələrinin sürət əmsalı anlarla ölçüldüyü, dünya informasiya məkanının lokallaşdığı, iqtisadi, siyasi əlaqələrin inteqrasiya çağında dünya prioriteti hamı üçün maraqlıdır. Ona görə də, son 50 ildə beynəlxalq jurnalistika, onun örnək məktəbləri mütləq şəkildə dünya prioritetinə üstünlük verir. Bununla belə, bu gün geniş əhatəli prioritet mövzuya çevrilən hadisələr əsasən mənfi xarakterli olur. Əlbəttə, müsbət hadisələri də dünya prioritetində görmək mümkündür. Lakin bu halda hadisənin aid olduğu ölkə ilə bağlı mütləq kiçik də olsa mənfi çalarlı informasiyalar təqdim edilir. Bu da

təbii ki, ədalətsizliyin, qərəzin bir göstəricisidir. Bütün bu deyilənləri daha yaxşı görmək üçün dissertasiyanın sonrakı bölümlərində dünya ölkələrində, eləcə də Azərbaycanda bununla bağlı təcrübələri, misalları nəzərdən keçirəcəyik. Mövzunun nə dərəcədə aktual olmasına, həmçinin hansı dövlətlərin dünya prioritetinə salınmasından imiclərinə xeyir və ya zərər gəldiyinə də diqqət yetirəcəyik.

Rəsmi doktrina kimi ilk dəfə 1934-cü ildə ABŞ-da qəbul olunan qərəzsizlik də bu gün ən aktual mövzulardandır. Aktual olması ilə yanaşı, həm də demək olar ki, bütün ölkələrdə insanların tez-tez rastlaşdığı hallardandır. Ümumiyyətlə, qərəzsizlik jurnalistin və nəşrin reytinqini yüksəldən, cəmiyyətin bütün təbəqələri tərəfindən qəbul olunmasına şərait yaradan faktor kimi çox qiymətlidir. Jurnalistikada istər müxbirin, istərsə də naşirin qərəzsiz görünməsi çox çətindir. Çünki ən obyektiv fikir məqamı da kiminsə mövqeyinə zidd olur və beləleri ən obyektiv fikri də özlərinə qarşı qərəz kimi qəbul edirlər. Qeyd edək ki, qərəz təkcə tənqidi fikirdə deyil, həmçinin təqdirdə, tərifdə də üzə çıxa bilər. Məsələn: seçkilər dövründə hər hansı bir partiyanın ünvanına seçkidən çox uzaq bir fakt ətrafında olsa belə deyilən tərif, təqdir fikri haqqında heç bir söz getməyən partiya üçün qıcıqlandırıcı, qısqanc materiala çevrilə bilər. Yaxud şəxsi baxışlarını ifadə edən respondentin fikirlərini hansısa tərəf qərəz kimi qəbul edir və s. Bundan əlavə, qərəzsiz fəaliyyət həm də onu tələb edir ki, jurnalist hər hansı fakta öz münasibətini bildirməsin. Əslində bu üsul qərəzsizliyin başlıca qarantiyası hesab olunur. Ancaq dünya jurnalistikasının bütün jurnalistləri, həmçinin naşirləri mövqe bildirməməkdən əziyyət çəkir. Çünki mövqeyin ifadə edilməməsi, adətən, materialın, proqramın təsir gücünü azaldır. Bütövlükdə ədalətli jurnalistika bu tipli uduzmaları bacarmalıdır. Uduzmağı bacarmadan, güzəştə getmədən bəzən nəsə əldə etmək çətin olur. Amma öz mövqeyini bildirmədən də oxucunun, dinləyicinin, tamaşaçının inamını qazanmaq mümkündür. Birinci və ikinci fəsillərdə həm dünya ölkələrində, həm də Azərbaycan jurnalistikasında qərərsiz fəaliyyətin nə dərəcədə mövcud olub-olmamasına toxunacaq, mövzuyla bağlı bəzi misallara nəzər yetirəcəyik. Bununla da ölkəmizlə yanaşı, digər dövlətlərdə jurnalistikasın bu doktrinaya münasibətini, ona hansı sferadan əməl olunduğunu görəcəyik.

Hər bir insanın malik olduğu keyfiyyətlərdən biri də vicdandır. Yəni, insan həyatı boyu vicdanlı yaşamalı, digərlərinə qarşı vicdanlı davranmalı və hərəkət etməlidir. Jurnalistika ilə məşğul olanlar da digər sahələrdə olduğu kimi, öz işlərinə vicdanla yanaşmalıdırlar. Heç təsadüfi deyil ki, vicdanlılıq jurnalistikada beynəlxalq doktrinalar sırasına qəbul olunub. Bu o deməkdir ki, hər bir KİV işçisi, müxbirdən tutmuş rəhbərliyə kimi hamı öz işini vicdanla həyata keçirməldir. Bu dissertasiyada da yer alan bu doktrina hər kəsin peşə fəaliyyətinə vicdanla yanaşmasını tələb edir. Peşənin bu cəhətinin bir çox aspektdən izah edilməsi və beynəlxalq jurnalistikada ləyaqətinə hörmət edən hər kəsin və hər bir nəşrin qəbul etməsi onu çox önəmli

keyfiyyət kimi xarakterizə edir. Bu doktrina hər hansı bir obyekt, şəxsiyyət və təşkilatın ünvanına edilmiş tənqidi fikirlərə görə həmin obyektlərə cavab şansı verməyi, respondentə haqqında söhbət gedəcək məsələ ətrafında ideyanın ağıllı, aydın izahını, redaktə işində yaxud montaj prosesində fikrin təhrif olunmasının yolverilməzliyini nəzərdə tutur, müsahibin bir cümləsini konteksdən çıxarıb başqa məqamda istifadəsini, digər təşkilatlara kompromat toplamağı, nəşrin yaxud yayımın imkanlarından istifadə edib müdafiəsiz adamları təhqir etməyi və s. halları redd edir. Dünya və Azərbaycan jurnalistikasında bununla bağlı təcrübəyə hər iki fəsildə müvafiq olaraq diqqət yetiriləcək, qarşıya çıxan problemlər və onların həlli üçün görülən işlərlə tanış olacayıq. Həmçinin, vicdanlılıqla bərabər jurnalistin və KİV-nin ciddi şəkildə əməl etməyə borclu olduqları doktrinalardan biri də ədalətlilikdir ki, buna da dissertasiya işində yer ayrılıb.

Jurnalistikanın beynəlxalq standartları sırasında ədalətlilik prinsipi də mühüm yer tutur. Bu doktrina kütləvi informasiya vasitələrində müxtəlif mübahisəli, hətta əks qütblü problemlər barədə tamamilə fərqli tərəflərin eyni imkanlar daxilində öz fikrini bildirməsini nəzərdə tutur. Həqiqətən də, insanın, vətəndaşın hər hansı bir problem barədə özünün əks fikrini ifadə etməsinə kütləvi informasiya vasitələrində şərait yaradılması çox böyük demokratik keyfiyyət kimi qəbul olunur. Xüsusilə, adamların, qrupların ünvanına deyilən tənqidə, iradlara cavab üçün yaradılan imkan çox ədalətli görünür. Əks qütblərdə dayanan adamların öz fikirlərini bildirmək, ünvanına irad deyilmiş şəxsin cavab hüququ həm də əvvəl danışmış adamın danışıq müddətini nəzərə alaraq balans sözü ilə ifadə olunan bir keyfiyyətlə həyata keçirilir. "Balans –ədalətlilik prinsipinə uyğun obyektiv jurnalizmin şərtlərindən biri olaraq kütləvi informasiya vasitələrinin fəaliyyətində xüsusi məqsəd güdməməyin qarantıdır. Jurnalistika ilə yanaşı, adi həyatımızda da tez-tez rastlaşdığımız ədalətsizlik müasir dünyada böyük problemlərdən biridir. Təəssüf doğuran məqam odur ki, son illər beynəlxalq jurnalistikada bu ədalətsizlik özünü daha da qabarıq çəkildə göstərməyə başlayıb. Xüsusilə də güclü dövlətlərin, iri KİV orqanlarının nisbətən zəiflərə və kiçiklərə qarşı ən çox istifadə etdikləri hallar sırasında ədalətsizlik geniş yer tutur. Bununla belə, istər Azərbaycanda, istərsə də digər ölkələrdə bu probelmlə bağlı narazılıqlar gündən-günə artmaqdadır və onun qarşısının alınması üçün bir çox işlər görülür. Ümumiyyətlə, ölkəmizlə yanaşı, digər dünya dövlətlərində də ədalətlilik prioritet məsələlərdəndir. Bütün ölkələr, eyni zamanda bir çox beynəlxalq təşkilatlar bu sahədə müəyyən işlər görürlər. Hər iki fəsildə bütün dünyada yol verilən ədalətsizliklərə nəzər salacaq, bunun qarşısının alınması üçün görülən müəyyən işlərlə tanış olacayıq.

Jurnalistikada qeyd olunanlarla yanaşı dəqiqlik və simvolik katarsis doktrinalar da mühüm yer tutur. Bu dissertasiyada adı çəkilən sonuncu iki doktrinalara da yer ayrılıb. Onların xüsusiyyətləri və dünya jurnalistikasındakı yerləri barədə qısa müzakirəsinə də nəzər salmaq

mümkün olacaq. Bu mövzunu işləməkdə əsas məqsəd müxtəlif ədəbiyyatlardan istifadə edərək və araşdırmalara əsaslanaraq doktrinaların tətbiqi, bu sahədəki problemləri və uğurları üzə çıxarmaq, onlara əməl olunması üçün ayrı-ayrı dövlətlərdə, ABŞ başda olmaqla Qərbdə, həmçinin qonşu Türkiyədə görülən işlərlə və həmin işlərin haqqında danışacağımız doktrinalara necə təsir etdiyi ilə tanış olmaqdır.

## I FƏSİL. JURNALİSTİKANIN BEYNƏLXALQ DOKTRINALARI: QƏRB VƏ TÜRKİYƏ TƏCRÜBƏSİ

Peşəkar fəaliyyəti zamanı rastlaşdığı çətinliklər, problemlər jurnalistdən onların daha məqsədəuyğun həlli üsullarını tapmağı tələb edib. Beləliklə, jurnalistlər arasında müəyyən davranış qaydaları təşəkkül tapmağa başlayır. Həmçinin bir çox beynəlxalq təşkilatlar da bu yolda müəyyən addımlar ataraq qanunlar, kodekslər, normalar hazırlayırlar. Həmin təşkilatlardan biri Beynəlxalq Jurnalistlər Federasiyasıdır. “BJF-nin 1939-cu ildə Fransanın Bordo şəhərində keçirilmiş VII konqresində qəbul olunmuş “Jurnalist peşəsinin şərəf kodeksi” adlı sənəd bu sahədə beynəlxalq xarakterli ilk sənədlərdəndir. Vicdanlılıq, məsuliyyət, doğruluq, faktlara, insanlara hörmət, düzlük, müstəqillik, ləyaqət, həmrəylik və ehtiyatlılıq sənəddə irəli sürülən 10

tələb sırasına daxildir. Kodeksdə informasiyanın şərəfsiz metodlarla toplanması, faktlara, təqsirsizlik prezumpsiyasına hörmətsiz yanaşmaq, böhtan və plagiatla məşğul olmaq, vicdana zidd tapşırığı yerinə yetirmək, hökümət və ya hansısa şəxsin xidmətində durmaq müqabilində haqq almaq və peşə həmrəyliyini pozmaq jurnalist etikasına zidd hallar kimi dəyərləndirilir" [18, s.83-84]. Eyni zamanda, beynəlxalq doktrinaların da pozulması ilə nəticələnir.

Jurnalistikanın doktrinalarına, həmçinin prinsiplərinə və vəzifələrinə əməl olunması üçün müxtəlif beynəlxalq təşkilatlar, eyni zamanda jurnalist təşkilatları da fəal işlər görürlər. Beynəlxalq Jurnalistlər Təşkilatı (BJT) 1973-cü ildə Parisdə UNESCO tərəfindən kütləvi informasiya vasitələri üçün təşkil edilmiş etika kodekslərinin kollektiv müzakirəsi ilə bağlı sənəd təqdim etmişdi. Altı bənddən ibarət həmin sənəddə həmçinin informasiyanın doğruluğuna əminlik, mənbənin mütləq şəkildə göstərilməsinin vacibliyi də əks olunub: Jurnalist dərcə hazırladığı və ya şərhə hazırlaşdığı informasiyanın dürüstlüyünü yoxlamağa çalışmalıdır. Əgər bu cür yoxlama mümkün deyildirsə, o, informasiyanı şərtlərlə dərc etməli, informasiyanın təhrif olunmasından və ya ixtisarından qaçmalı, informasiya yalan olduqda onu düzəltməlidir. Jurnalist dərc etdirdiyi informasiya üçün məsuliyyət daşımalı, professional sirr qaydalarına hörmət etməli, informasiyanın mənbəyini yalnız yuxarı vəzifəli şəxsin (əgər həmin şəxsin professional sirr qaydaları çərçivəsində hərəkət etdiyinə əmindirsə) tələbi ilə açılmalıdır.

**İnformasiyanın mənbəyini göstərmək.** Qərb təcrübəsində geniş yayılan və ciddi əməl olunan informasiyanın mənbəyini göstərmək doktrinası barədə İngiltərə qanunvericiliyində xüsusi tələb vardır. Hələ 1920-ci illərdə qüvvəyə minən bu qanun getdikcə inkişaf etmiş, təkmilləşmiş və bir çox qərb ölkələrinin moduluna çevrilmişdir. BBC dünya informasiya xidməti mənbəyi mütləq göstərməyi öz fəaliyyətində doktrina kimi qəbul etmişdir.

"Amerikanın "Washington Post" qəzeti mümkün olan bütün hallarda informasiyanın mənbəyini açmaq qaydalarına əməl edir. Mənbənin açıqlanmaması barədə razılıq əldə edilibsə, bu barədə informasiya heç vaxt redaksiyadan kənara çıxmayacaqdır. Anonim informasiya mənbəyindən istifadə edərkən jurnalist bu mənbəni leqallaşdırmağa cəhd göstərməlidir. Bu cəhd baş tutmadıqda informasiyanı başqa mənbədə axtarmaq lazımdır. Bu da baş tutmasa jurnalist mənbəni niyə göstərmədiyini öz yazısında mütləq qeyd etməlidir.

Bununla belə, təxmini də olsa informasiyanın mənbəyini göstərmək həmişə mümkündür. Ləqəbdən istifadə etməyə icazə verilmir. "Washington Post" nəşrinin prinsiplərində bütün hallarda, xüsusi vəziyyət istisna olmaqla, qəzet rəhbərliyinin icazəsi olmadan Amerika kəşfiyyat xidməti agentliklərinin adını heç vaxt açıqlamayacağı vurğulanır. Başqa qəzet və kütləvi informasiya vasitələrindən götürülüb dərc edilən materialların yeri mütləq vurğulanmalıdır. Plagiatlıq jurnalistikanın ən ağır günahıdır. "Washington Post" çap etdiyi materialın hansı nəşrdən götürüldüyünü həmişə göstərir".[30, s.46-51]

Qeyri-bərabər və qeyri-düzgün informasiyanın geniş yayıldığı müasir dövrümüzdə informasiyanın qaynaqlandığı mənbənin də hansı olması çox önəmlidir. “Qaynağını beynəlxalq iqtisadi quruluşun bərabərsizliyinin təşkil etdiyi informasiya axınındakı qeyri-bərabərlik və biryönlülük, eyni zamanda, çoxtərəfli asılılığın yaranmasına, çoxyönlü təsirliliyə səbəb olmaqdadır. Dörd böyük xəbər agentliyinin hazırladığı və dünyaya yaydığı xəbərlər daha çox inkişaf etmiş Qərb ölkələri ilə əlaqədardır. Bundan başqa, hazırlanan məlumat inkişaf etmiş Qərb ölkələrində var olan düşüncə şəkli daxilində hazırlanmaqda və ötürülməkdədir. Bilgi (informasiya) istehsalı və axınındakı mövcud önəmli tarazsızlıq mədəni asılılığın yaradılmasına kömək göstərməkdə və mədəni müstəmləkəçiliyin tam sürətlə davam etməsinə də səbəb olmaqdadır”.[50]

Heç də həmişə informasiyalar mənbə ilə və ya düzgün mənbə ilə təqdim olunmur. Belə ki, jurnalist yayımladığı və ya dərc etdirdiyi xəbəri hansı mənbəyə istinadən hazırladığını vurğulamır. Bu isə auditoriyada həmin jurnalistə və onun çalışdığı kütləvi informasiya vasitəsinə qarşı inamsızlıq yaradır, həmçinin xəbərin doğruluğuna da şübhə oyadır. Bu hallardan qaçmaq üçün mütləq mənbə göstərilməlidir. Xüsusilə, qərb mediası başda olmaqla əksər mətbuat orqanları, teleradio qurumları informasiyanın mənbəyinin göstərilməsinə böyük diqqət yetirirlər. Hətta mənbəyi məlum olmayan xəbərləri yayımlamaqdan boyun qaçırırlar.

<u>Türkiyə təcrübəsi:</u> Türkiyənin “Posta” qəzetinin elektron versiyasında 10 aprel 2012-ci il tarixli sayında yerləşdirilmiş “Norveç Kasabı'nın aklı başındaymış!” sərlövhəli xəbərdə mənbə göstərilib. Xəbər Anadolu Agentliyinə (AA) əsasən hazırlanıb.[59]

“Posta” qəzetinin çap versiyasında 2011-ci ildə işıq üzü görmüş saylarından birində yerləşdirilmiş “Geceliği 700 tl-e hapishane” sərlövhəli xəbərdə mənbə olaraq CNN göstərilib. Bunula belə, həmin saydakı bəzi xəbərlərdə mənbə göstərilməyib.[44]

Türkiyənin “Hürriyet” qəzetinin elektron versiyasında 10 aprel 2012-ci il tarixli sayında yerləşdirilmiş “Sony 10 bin kişiyi çıkarıyor, zarar beklentisi 6.4 milyar dolar”- başlıqlı xəbərdə mənbə göstərilib. Xəbər Anadolu Agentliyinə (AA) əsasən hazırlanıb.[58]

“Hürriyet” qəzetinin çap versiyasında 2011-ci il saylarından birində “Lazkiyede kurulacak asgeri üsse İran desteği” sərlövhəli xəbərdə mənbə göstərilib. Bu xəbər İngiltərənin “Daily Telegraph” qəzetinə əsasən hazırlanıb. Bununla belə, həmin sayın bəzi xəbərlərində mənbə göstərilməyib. [39]

Türkiyədə çapdan çıxan digər mətbuat orqanlarına da nəzər salaq. “Sabah” qəzetinin 2011-ci ildə çıxmış saylarından birində “Canlı türlerinin dörtte biri biliniyor” sərlövhəli yazıda mənbə olaraq “Reuters” agentliyinə istinad edilib. Lakin elə həmin qəzetin eyni sayında digər səhifədə yerləşdirilmiş bir neçə xəbərdə mənbə göstərilməyib.[46]

“Star” qəzetinin 21 avqust 2011-ci il saylarından birində “İrandan amerikalı kampçılara 8`er yıl” sərlövhəli, həmçinin “Katliamı yenidən yaşadılar”, “Kral Mekke Saat Kulesini açtı” başlıqlı xəbərlərdə də mənbə göstərilməyib.[47]

“Sözcü” qəzetinin 2011-ci ildə işıq üzü görmüş bir sayında yerləşdirilmiş “Etna patlıyor onlar yatıyor”, “Lotodan 5 milyon dolar çıktı, 2 ay sonra öldü” səlövhəli xəbərlərdə də heç bir mənbəyə istinad olunmayıb.[48]

İndi də Böyük Britaniya mətbuatında informasiyanın mənbəyinin göstəriləsinə məsələsinə diqqət yetirək:

“The Guardian” nəşrinin elektron versiyasında 11 aprel 2012-ci il tarixli sayında “Philippine warship in stand-off with China vessels” sərlövhəli informasiyada mənbə olaraq “Associated Press” agentliyi göstərilib. [54] “Daily Mail” qəzetinin elektron versiyasında 11 aprel tarixində yerləşdirilmiş “Watch out! Astonishing video of California man so distracted by sending a text he walks into a BEAR”, “Exclusive Florida beach town furious after vacant mansion turned into drug and alcohol rehabilitation clinic” və digər sərlövhəli xəbərlərdə mənbə kimi qəzetin çap versiyasına istinad olunub.[55] İngiltərənin digər bir qəzeti “Daily mirror”un internet variantında 11 aprel 2012-ci il tarixində yerləşdirilmiş demək olar ki, bütün xəbərlərdə ya qəzetin çap versiyasına istinad edilib, ya da portalın öz əməkdaşları tərəfindən hazırlanıb. [56]

Almaniya təcrübəsi: Almaniyanın “The Local” ingilisdilli qəzetinin elektron versiyasında 16 aprel 2012-ci il tarixli sayında yerləşdirilmiş “Koran distributors may face more scrutiny” sərlövhəli yazıda informasiyanın mənbəyi qeyd olunub. Burada yerli “Frankfurter Allgemeine Sonntagszeitung” mətbuat orqanına instinad edilib. Elə həmin qəzetin eyni sayında yerləşdirilmiş “Basic jobless support cut nearly a million times” başlıqlı xəbərdə mənbə kimi Almaniyanın “Süddeutsche Zeitung” nəşri göstərilib.[57]

Cəmiyyətin bütün üzvləri kimi jurnalist də öz işini onu istiqamətləndirən ümumi prinsip və normalar üzərində qurur. Jurnalist fəaliyyətinin digər növlərindən fərqli olaraq təmasla bağlılığından cəmiyyətin etik tələbləri insanlarla əlaqəyəgirmə prosesində özünü daha qabarıq nümayiş etdirir. Bu və digər şəxsə məlumat almaq üçün müraciət etməklə jurnalist bir sıra professional etik nüasnları nəzərdən keçirməlidir. Onlardan biri mövzu çərçivəsində gözlənilən söhbətin mahiyyətinə dərindən varmaq, məlumat mənbəyinin seçilməsi və tanışolma üsulları, o cümlədən həmsöhbətdə jurnalistə inam yaradılmasıdır. Əgər müsahib reportyora güvənərsə mövzu ilə bağlı əvvəlcədən planlaşdırılmayan informasiyalar da verə bilər. Lakin bütün bu məqamlarda jurnalist tərəfindən professional etika normalarına riayət olunması bir məqsəd kimi deyil, onun öz borcunu bütövlükdə həyata keçirmək üçün vacib texnologiya kimi nəzərdən keçirməlidir. Məlumat toplamaq, işləyib hazırlamaq və ondan istifadə etmək kimi yaradıcılıq prosesində hər bir jurnalist bir sıra mühüm peşə-etika problemlərini də həll etməli olur. Onların

içərisində qarşıdakı söhbətin predmeti barədə nə dərəcədə məlumata malik olmaq, məlumat mənbəyinin seçilməsi, tanışlıq üsulu, jurnalistdə əxlaqi inam yarada bilən davranış manerasının müəyyənləşdirilməsi, müsahibə məlumat almaq üçün müraciətin əsaslandırılması, informasiyanın qeydə alınması üsulunun daha əlverişli tətbiqi, mənfi qəhrəmanlara müraciət edərkən müvafiq etikasının, həmçinin məlumatlardan istifadə xarakterinin seçilməsi və s. mühüm rol oynayır.

Kütləvi informasiya vasitələrində göstərilən mənbələr müxtəlif olur. Media reportyorların, yəni xəbər toplayan jurnalistlərin işi nəticəsində fəaliyyət göstərir. KİV üçün məlumat toplamaq mənbələri cəmiyyət, ayrı-ayrı obyektlər, təşkilatlar, müxtəlif sənət sahibi olan insanlar, rəsmi şəxslərdir. Xəbəri duymaq, onun nə dərəcədə maraqlı olub-olmadığını müəyyənləşdirmək reportyorun əsas vəzifəsidir. O reportyor məhsuldar hesab edilir ki, redaksiyaya informasiya ideyası ilə gəlir. Cəmiyyətdə, həyatda informasiya kifayət qədərdir. Həmçinin, kütləvi informasiya vasitələrinin də mənbələri çoxdur. Mətbuat agentlikləri, mətbuat konfransları, redaksiyalara hadisəni işıqlandırmaq üçün müxtəlif təşkilatlardan daxil olmuş məktub, dəvətnamələr, dövlət idarələri, ictimai təşkilatlar, parlament, polis, məhkəmə qurumları, ayrı-ayrı idarə, nazirlik və təşkilatların mətbuat xidmətləri və s. reportyorun gördüyü, şahidi olduğu hadisəyə dair informasiyadan əlavə bir çox rəsmi mənbə də var ki, onlar da KİV-nin hər zaman istifadə edə biləcəyi əsas istinad obyektləri sayılır. Bunlar informasiya agentlikləri, internet, dövlət qurumları, hakimiyyət adamları, parlament və məhkəmə, mətbuat xidmətləridir.

*İnformasiya agentlikləri mənbə kimi.* Xəbər agentlikləri də reportyorların, müxbirlərin fəaliyyəti sayəsində məlumat toplayırlar. Lakin agentliklər hazırladıqları materialları, informasiyanı KİV-nin digər sahələrinə satırlar. Müasir xəbər agentlikləri teleqraf agentliklərinin davamçılarıdırlar. Dünyada ilk agentlik 1825-ci ildə Şarl Havasın əsasını qoyduğu Havas agentliyi hesab olunur. Onun əməkdaşlarından biri Wolf da 1849-cu ildə Almaniyada özünün adını daşıyan bir agentlik yaratmışdı. Rusiyada 1904-cü ildə Sankt-Peterburq agentliyi, 1918-ci ildə Rossta-Rusiya teleqraf agentliyi, 1935-ci ildə isə onun bazasında TASS yaradılıb. Hazırda dünyanın bir çox agentlikləri bir-biriləri ilə müqavilə bağlayaraq bu sənəd əsasında informasiya mübadiləsi edirlər. Bu, eyni zamanda, bir çox ölkələrin KİV-ləri üçün mənbə axtarmaqda kömək olur və həmin mənbəni sərbəst şəkildə vurğulamaq imkanı verir.

Televiziya, radio və qəzetlər bu agentliklərə abunə yazılaraq onların hazırladıqları informasiyaları alır və istifadə edərkən informasiyanın hansı agentlikdən alındığı mütləq bildirilməli, ona istinad olunmalıdır.

Bildiyimiz kimi, KİV informasiya-xəbər, məlumat toplamaq və yaymaq funksiyalarını yerinə yetirir. Qəzet, jurnal, radio və televiziya bilavasitə bu işlərlə məşğuldur. Xəbər agentlikləri isə məlumat toplayır və bu məhsulu digər informasiya vasitələrinə satırlar. Buna görə də, həmin

qurumlar daim informasiya axtarışındadırlar. Hətta bəzi xəbər agentliklərinin bu sahədə əldə etdiyi gəlir onları ciddi sənaye koorporasiyasına çevirib.

*İnternet informasiya mənbəyi kimi.* Müasir dövrün əsas informasiya mənbəyi olan internet senzurasız, sərhədsiz, qadağasız dünyanın hər yerinə yayımlanan elektron informasiya vasitəsidir. Ötən əsrin 60-cı illərində hələ bir layihə kimi meydana çıxan internet texnologiyası bu gün az qala hər bir ailənin işlətdiyi vasitəyə çevrilib. İnternet bu gün bütün kütləvi informasiya vasitələrini özündə birləşdirir. İnternetdə televiziyaya baxmaq, radioya qulaq asmaq, film izləmək, qəzet və kitab oxumaq, məktublaşmaq, reklam vermək, tanış olmaq mümkündür. İnternet dünyanın prioritet mövzusunu müəyyən etməkdə KİV-ə yardımçı olur. O, əsasən dünya xəbərlərini almaq üçün vacib informasiya mənbəyidir. Dünyada baş verən hadisələrə dair məlumatlar internet vasitəsilə alındıqda operativlik təmin olunur, kütləvi informasiya vasitələrinin xəbərçilik keyfiyyəti yüksəlir və ona maraq artır.

Hazırda jurnalistika dünya informasiya sistemində mühüm yer tutmuş internetlə sıx bağlıdır. Qloballaşma dövründə internetin xidməti maksimum operativliyə şərait yaradan texnologiyadır. XXI əsrin əvvəllərində mətbuatın, qəzet jurnalistikasının taleyi ilə bağlı narahatlıq yaranmışdır. İnternet xidmətinin tətbiqi qəzetlərin nəşrinə müəyyən qədər təsir etdi. Çünki artıq qəzetlərin elektron versiyası mövcuddur və bu, materialların kompyuterə köçürülməsi ilə mümkündür. İnkişaf etmiş ölkələrdə insanlar elektron qəzetlərə məmuniyyətlə üzv olurlar. Çünki onlar daha müxtəlif və rəngarəng materiallar verir, geniş auditoriyaya ünvanlanır, sərhəd bilmir, bəzən çevik şəkildə, hətta hər an yenilənir.

İndiki dövrdə internet də KİV-nin əsas informasiya mənbəyinə çevrilib. Dünya informasiya agentliklərinin internetə ötürdüyü məlumatlar, eləcə də, tanınan, bəyənilən nəşrlərinin də bu sistemə verilməsi planetimizdə informasiya mübadiləsini genişləndirib. İnternetdən habelə, dünya kitabxanalarında, əlimiz çatmayan nadir incilərdən tutmuş hər cür ədəbiyyatı almaq, oxumaq, hətta hər hansı kitabdan axtarılan sitatı saniyələr ərzində tapmaq mümkündür. Bütün bunlar deməyə əsas verir ki, internet jurnalistin hər zaman müraciət edə biləcəyi əsas mənbələrdən biri və onun əlində olan misli görünməmiş ensiklopediyadır. KİV internetdən hər cür informasiya alır. İnternet dünyanın prioritet mövzusunu müəyyənləşdirməkdə medianın yardımçısıdır. Dünyada baş vermiş və yaxud verə biləcək hadisələr barədə internet vasitəsilə "Washington post" qəzeti və ya CNN televiziyasından xəbər tutmaq mümkündür. Çünki, bu cür operativ qəzet və televiziyalar hansı hadisənin prioritet daşıdığını izləyir və bu məlumatlar internetdə yer alır. İnternet hətta prioritet mövzunun davamını da təqdim edir. İnternet əsasən dünya xəbərlərini əldə etmək üçün daha vacib informasiya vasitəsidir.

Hazırda "Online" (xətt) jurnalistikası çox inkişaf edib. Demək olar ki, son bir neçə on illikdir ki, dünyanın bütün ölkələri bundan faydalanır. Yeni jurnalistika anlayışı özünü daha çox online

stilində göstərir. Çünki şəbəkə jurnalistikasında informasiya setinin maneəsiz və sürətlə ötürülməsi məhz bu üsulla bağlıdır. Bu jurnalistika əsasında reportyor daha vacib və daha çox informasiya toplamaq, daha çox informasiya ötürmək imkanı qazanır. İnternet vasitəsilə istənilən informasiyanı əldə etmək, həm də qısa vaxt ərzində almaq jurnalistlərin işinə xeyli kömək edir. 2001-ci ilin 11 sentyabrında Amerika Birləşmiş Ştatlarının Nyu-york və Vaşinqton şəhərlərində törədilmiş terror hadisələri zamanı məhv edilmiş ticarət mərkəzi binalarının layihəsi, fəaliyyəti bu terror aktını törətməkdə təqsirləndirilən "Əl-Qaidə" terror təşkilatının rəhbəri Üsəma bin Ladenin kimliyi, onun əlaltıları və s. məsələlər barədə operativ, əsaslı və geniş məlumatların yayımlanmasına bütün KİV-lər mənbə olaraq məhz internetdən istifadə etmişdilər. 2002-ci il oktyabrın 23-də Moskvada "Nord-Ost" teatr mərkəzində 700-dən çox tamaşaçının çeçen yaraqlıları tərəfindən girov götürülməsi hadisəsi ilə bağlı ilk məlumatı Rusiya televiziya kanalları internet saytından almışdırlar.

*Dövlət qurumları və hakimiyyət adamları informasiya mənbəyi kimi.* Nazirlik, komitə, idarə və digər icra strukturlarının fəaliyyəti cəmiyyətimizin hər bir təbəqəsinin maraq dairəsindədir. Bu qurumlar gördükləri işə görə xalq qarşısında məsuliyyət daşıyırlar. Hazırda iri dövlət təşkilatlarından məlumat almaq asanlaşıb. Ona görə ki, bu təşkilatların mətbuat xidmətləri fəaliyyət göstərir və onlar kütləvi informasiya vasitələrini məlumatlandırmağa borcludurlar, həmçinin bu, həmin qurumların birbaşa vəzifəsidir. Lakin dünyanın hər yerində hakimiyyət adamları əksər vaxtlarda jurnalistlərin suallarından yayınmağa çalışırlar. Xüsusilə, vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyən məmur üçün jurnalist arzu olunmaz şəxsdir.

Dünyanın bütün ölkələrində jurnalistikanı IV hakimiyyət adlandırırlar. Bu, KİV-nin idarəçilikdə yeri, hakimiyyət orqanlarına təsir etmək mexanizminin və imkanlarının olması ilə əlaqədardır. Jurnalistikanın IV hakimiyyət rolu dövlət strukturları ilə münasibətdə, onların işi, fəaliyyəti ilə bağlı informasiyada özünü daha çox göstərir. Nazirliklər, komitə və idarələr, digər icra qurumları dövlətin, xalqın taleyində mühüm rol oynayır, ölkə, xalq qarşısında öz fəaliyyətinə görə məsuliyyət daşıyır. Bu qurumların işi, ümumilikdə fəaliyyəti, əlaqələri ilə bağlı məlumatlar həmişə ictimai maraq kəsb edir. Ona görə də KİV bu strukturlarla bağlı məlumatlara mətbuatda, radio və televiziyada geniş yer verir. Bu məlumatların alınmasında kütləvi informasiya vasitələri həmin nazirlik, komitə və şirkətlərin mətbuat xidmətləri ilə sıx əlaqə saxlayır, lazımi informasiyanı operativ şəkildə əldə edə bilirlər. Ümumilikdə götürdükdə isə cəmiyyətin hər bir üzvünün fikir və söz azadlığı, informasiya almaq hüququ var. Bununla belə, jurnalistin özü bəzən informasiya toplanması yolunda maneələrə rast gəlir, biganəliklə üzləşirlər. Təsadüfi deyil ki, mətbuat səhifələrində, teleproqramlarda geniş müzakirə mövzusuna çevrilən faktlardan biri də jurnalistin informasiya hüquqlarının müntəzəm pozulmasıdır.

İnformasiya mənbələrinə, xüsusilə, hakimiyyət strukturlarında olanlara açıq yol kütləvi informasiya vasitələrinin normal fəaliyyəti üçün vacib şərtlərdəndir. Lakin məmurların, vəzifəli şəxslərin jurnalistlərdən tez-tez qaçdığını da etiraf etməliyik. Bəzi rəhbər işçilərin informasiya mənbəyi olaraq mediadan qaçmasının bir neçə səbəbi var:

Rəhbər işçi öz işini yaxşı qurmayıb, cəmiyyət qarşısında çıxış etməməyə üstünlük verir; Rəhbər işçi müstəqil deyil, ən adi informasiyanı vermək üçün yuxarıdan göstəriş gözləyir; Məmur informasiyanı formalaşdırmaq və jurnalistə vermək kimi elementar fizioloji bazardan məhrumdur. Yaxud, media nümayəndəsinə sayqısızlıq göstərsə də, cəzalandırılmayacağına əmindir və ya bu, qanuna etinasızlıq səbəbindəndir.

İnformasiya mənbələrinin KİV-dən qaçmasında jurnalistin də günahı yox deyildir. Belə ki, mənbənin söylədiyi əsas fikirləri kənara qoyub sensasiya xatirinə onun sözlərinə dolayı yollarla müxtəlif mənalar calamaq, öz maraqlarına uyğun gələn və özünə sərf edən qəzet sə-hifələrinə, eləcə də digər informasiya vasitəsinə çatdırmaq da etiqada zidd hərəkətdir.

Dövlət informasiyasını almağa nail olmaq jurnalistin hüquqlarından biridir. Dövlətin fəaliyyəti, qərarlar, tədbirlər, yığıncaqlar və s. barədə KİV-nin informasiya almaq hüququ təmin olunmalıdır. Lakin bir sıra hallarda informasiyanın yayılmasına qanun yol vermir: milli təklükəsizlik haqda informasiyalar, hərbi kəşfiyyat, dövlətlər arası məxfi poçt yazışmaları, məxfi hesab olunan sənədlər; ayrıca bir dövlət idarəsinin qulluqçularına aid olan daxili qaydalar; şəxsi həyatın toxunulmazlığını pozan informasiya; kommersiya sirrini əhatə edən informasiya; başqa qanunlarla yayımı qadağan olunmuş məlumatlar; istintaqın, məhkəmənin gedişinə mane ola biləcək informasiya. Dövlət məmurları məhz bu problemlərlə bağlı informasiya verməkdən imtina edə bilərlər. Çünki bu qaydalar qanunla təsbit olunur və onların açıqlanması dövlətə, cəmiyyətə, ümumilikdə vətəndaşlara ziyan vura bilər.

*Parlament və məhkəmə informasiya mənbəyi kimi.* Dövlətin elə qurumları var ki, onlar xüsusi statusa, imtiyazlara malikdirlər. Parlament və məhkəmə belə strukturlara daxildir. Parlament bu ali qanunverici orqanın fəaliyyətini işıqlandıracaq jurnalistləri akkreditə edir. Kütləvi informasiya vasitələri isə parlamentə peşəkar jurnalistlərini göndərirlər. Parlament informasiya mənbəyi olmaqla proseslərin transilyasiyası ilə əlaqədar çəkiliş, redaktə məsələlərini razılıq yolu ilə həll edir. Hər bir KİV bu cür razılaşmaya əməl etməlidir ki, parlamentdən hazırlanan materiallardan yeniliklər və fakt proqramlarında, təhsilə dair yazılarda yararlanmaq mümkün ola bilsin. Bu materiallardan əyləncə, yumor məqsədilə istifadə oluna bilməz.

Məhkəmələr də kütləvi informasiya vasitələrinin əsas mənbələrindən biridir. Məhkəmələr də informasiya vermək məsələsində xüsusi statusa malikdir. Məhkəmə prosesindən reportaj hazırlamağa gəlmiş müxbir iclasın qapalı keçirilməsi ilə bağlı qərara hörmətlə yanaşmalıdır.

Məhkəmə iclası başa çatdıqdan sonra jurnalist məhkəmənin səlahiyyətli nümayəndəsindən informasiya ala bilər.

İsveç jurnalistikasının təcrübəsində də informasiyanın mənbəyini göstərmək doktrinasına hər zaman xüsusi diqqət yetirilir. Bu ölkədə KİV-nin istinad obyekti olaraq yararlandığı mənbələr əsasən şifahi və yazılı növlərə bölünür (əslində bu hər yerdə belədir).

Yazılı mənbələr – İsveçdə kütləvi informasiya vasitələrinin informasiya alması konstitusiya ilə tənzimlənir. Əsas Qanunda informasiyanın azad şəkildə verilməsi, mənbənin anonimliyi, vətəndaşların rəsmi sənədlərə sərbəst buraxılması (aşkarlıq prinsipi) haqqında maddələr var və bunlar redaksiyalara informasiyanın müntəzəm axınını təmin edir. Əsas prinsip ondan ibarətdir ki, ictimaiyyət İsveçin hökumət və bələdiyyə təşkilatlarına daxil olan bütün yazılı sənədlərlə (məktublar, hesabatlar, protokollar və s.) tanış ola bilər.

İsveç cəmiyyətində aşkarlıq ənənələri güclü olsa da, bəzən bu və ya digər sənədi jurnalis-tə verməmək üçün idarənin də öz əsası olur. Reportyor onu maraqlandıran sənədi axtararkən gələn və göndərilən sənədlərin qeydə alındığı kitabdan istifadə edir (belə kitablar bir çox idarələrdə var). Yaxud uçot aparan məmurdan xahiş edir ki, bir şəxsin bu idarəyə göndərdiyi məktubla tanış olmasına imkan versin. Məmur ictimaiyyətə açıq olan sənədi “dərhal və ya qısa müddət ərzində təqdim etməyə borcludur”, ancaq “mühüm maneələrin olması” halları istisna edilir. [8] Ədliyyə kanslerinin idarəsi mətbuat haqqında qanuna və s. öz azadlığı haq-qında qanuna əməl olunmasına nəzarət edir və bir qayda olaraq, sənədlərin təqdimində sü-ründürməçiliyə yol verənlərlə amansız davranır.

*Şifahi mənbələr*. Hər halda şifahi mənbələr jurnalistin işi üçün daha əhəmiyyətlidir. Ağla sığan və geniş əhatəli informasiyanı çap olunmuş şəkildə nadir hallarda tapmaq olur. Report-yor həmişə kimi və ya kimlərisə axtarır ki, hər hansı bir sənədi izah etsin, hadisənin tarixçə-sini başa salsın, əlavə məlumat üçün hara müraciət etmək lazım gəldiyini bildirsin. Bir qay-da olaraq hər idarədə, müəssisədə, təşkilatda elə adamlar var ki, onlar informasiya axtarmaq-da müxbirə kömək edirlər. Bunlardan bəzisi öz xidməti borclarına görə kömək edir, başqala-rı isə bunu informasiyanın azad şəkildə verilməsi və mənbənin gizli saxlanılması təminatı haqqında öz konstitusiya hüququndan istifadə etməklə görürlər. Mənbələrlə işləyərkən bir çox müxbirlər şəxsi təcrübələrində mühüm məlumata malik olan adamların öz məlumatlarını əksər vaxtlarda inandıqları jurnalistlə bölüşdüklərini yəqin etdiklərini vurğulayırlar. [7, s.39]

Tanınmış isveçli mütəxəssis və jurnalist Erik Fichtelius mənbələrlə bağlı fikirlərində bun-ları deyib: “Reportyor kimi çalışdığım uzun illər ərzində mən mənbələrlə işləmək üçün öz prin-siplərimi müəyyənləşdirmişəm: mənbənin həmişə açıq çıxış etməsinə çalışmaq; İnfor-masiyanın verilməsi şərtlərini mənbələr ilə dəqiq razılaşdırmaq; Mənbələri heç vaxt açma-maq; İnformasiya mənbələrinə tənqidi yanaşmaq; Mənbənin sənə olan etibarını qazanmaq və qorumaq”.[7, s.40]

Kütləvi informasiya vasitələri redaksiyalarına informasiya verənin anonimliyi təmin olunur. Bu o deməkdir ki, jurnalistin öz informatorunun adını açıqlamağa haqqı yoxdur. "Hakimiyyət orqanlarına və ya digər ictimai təşkilatlara" isə reportyorun əldə etdiyi informasiyanın mənbəyini axtarmaq və açıqlamaq qadağan olunmuşdur.[8, fəsil 3, paraqraf 4]. Vəzifəli şəxs və ya jurnalist bu qaydaları pozarsa, İsveç məhkəməsinin qərarı ilə cəzaya-cəriməyə, yaxud bir ilə qədər həbsə məhkum edilə bilər. Mənbəni açıqladığına görə reportyor hüquqi məsuliyyət daşıya bilər, lakin bizim dövrümüzdə hələ heç bir jurnalist bu cinayətə görə məhkum edilməmişdir. Əlbəttə, mənbələrin cəzalandırılmaması və anonimliyi qaydalarında istisnalar da olur. Əgər informator redaksiyaya dövlətin təhlükəsizliyi üçün qorxu törədən informasiya verirsə, casusluq, yaxud dövlətə xəyanət kimi qiymətləndirilən informasiya təqdim edirsə, məhkəmə orqanları mənbəni axtarıb onu cinayət məsuliyyətinə cəlb etmək hüququna malikdir. Belə cinayətlər ağır cinayətlər kimi qiymətləndirilir, buna görə də məhkəmə orqanları mənbəni açıqlamağı tələb edə bilər. Qeyd etmək lazımdır ki, mənbələri axtarmaq və aşkarlamaq ancaq idarələrə və təşkilatlara qadağan edilir, lakin müəssisələr və mülki şəxslər bundan azaddırlar. Sağlam mühit olan müəssisədə, idarədə, siyasi partiyada və ya təşkilatda aşkarlıq atmosferi hakim olmalıdır. Bu, azad fikir mübadiləsinin əsaslarının əsasıdır. "Hər bir İsveç vətəndaşının yazıçıya və ya digər müəlliflərə, habelə naşirlərə, redaksiyalara, informasiya agentliklərinə, film və səsyazma istehsal edən firmalara istənilən sahədə məlumatlar verə bilmək hüququ, bu məlumatların radio proqramlarında, filmlərdə və səs yazmalarda açıqlanması üçün təminatlı hüququ var. Vətəndaş həmçinin informasiya ve-rilməsi, yaxud sonradan açıqlanması üçün istənilən sferada məlumat toplamaq hüququna malikdir. Bu hüquqlar bu əsas qanundan irəli gələn tələblər istisna olmaqla digər heç bir əsasnamələrlə məhdudlaşdırıla bilməz. [9, fəsil 1, paraqraf 2]

*"Off the record"* (mətbuat üçün deyil). Kimsə deyə bilər ki, yuxarıda göstərdiyimiz mi-sallardakı siyasətçi və ya diplomat jurnalistlə "off the record" (mətbuat üçün deyil) şərti ilə danışmışdır. Amerika jurnalistikasında "mətbuat üçün deyil" və ya "protokoldan xaric" anlayış-ları rəsmən təsbit edilmiş və kifayət qədər dəqiq müəyyənləşdirilmişdir. NATO-nun mənzil-qərargahı rəsmi olaraq "vəzifəli şəxslərin kütləvi informasiya vasitələrinin nümayənləri ilə görüşlərinin əsas qaydalar" ını işləyib hazırlamışdır. Hər iki tərəfdən də qəbul olunan bu qaydalar alınan informasiyanın jurnalistlər tərəfindən istifadəsini tənzimləyir.[7, s.43-44]

*"On the record"* (mətbuat üçün) – şəxsin adını və tutduğu vəzifəni birbaşa göstərməklə, vəzifəli şəxsi dolayısı ilə göstərməklə onun dediklərinin hamısını sitat gətirmək olar. Zabit-lərə və komanda heyətinə jurnalistlərlə məhz bu növ söhbət aparmaq tövsiyə edilir. Backg-round (fon) – mənbəsi dəqiqləşdirilmədən istifadə olunan informasiyadır. Razılaşma şərtləri müxtəlif ola bilər. Müsahib jurnalistdən tələb edə bilər ki, onun adı, vəzifəsi, təmsil etdiyi təşkilat materialda göstərilməsin. Onun buna haqqı var. Bu halda reportyor informasiyanı auditoriyaya

özünün apardığı araşdırmanın nəticəsi kimi təqdim edə bilər. "Off the record" (mətbuat üçün deyil) jurnalistin yazısında açıqlanması mümkün olmayan informasiyadır. Bu informasiya reportyora məlumatla şəxsən tanış olması və onu qiymətləndirməsi üçün verilir. Anlaşmazlıq olmasın deyə, NATO mənzil-qərargahı vəzifəli şəxslərə təkidlə məsləhət görür ki, jurnalistlərlə görüşərkən bu üsuldan istifadə etməsinlər. Ekstremal və ya nadir hadisələr istisna olunur, bunlar haqqında da ancaq kütləvi informasiya vasitələri ilə əlaqələr üçün ca-vabdeh olan yuxarı rütbəli zabitlə məsləhətləşdikdən sonra danışmaq olar. İsveçdə, eləcədə başqa ölkələrdə, istər jurnalistlər arasında, istərsə də informatorlar arasında bu anlayışlar barədə hərc-mərclik var. Bir çoxları "mətbuat üçün deyil" ilə "fon"u qarışdırırlar. Reportyor əmindir ki, mənbə informasiya verərkən adının və vəzifəsinin açıqlanmayacağını bilir, amma onun söylədiklərinin sitat kimi gətiriləcəyini və mənbənin auditoriyaya necə təqdim olunacağını dəqiqləşdirmir. Başqaları isə NATO müddəası ilə hərəkət edir. Belə jurnalistlərdən ötrü "mətbuat üçün deyil" ifadəsi o deməkdir ki, müxbirə informasiya onu açıqlamamaq, özü üçün saxlamaq şərtilə verilir. Əgər informasiyanı işində istifadə etməmək şərtilə alırsansa, bunu verən mənbə ilə razılığa gəlmək lazım deyil... [7, s.44-45]

Bəzən jurnalistlə mənbə arasında anlaşılmazlıq olur. İnformasiya çap olunduq, yayımlandıq-dan sonra məlumat verənin müxbirə qarşı etiraz etdiyi dolaşıq hallar da olur. Bu dolaşıqlıq ondan irəli gəlir ki, müsahibənin "mətbuat üçün deyil" şərti ilə razılaşandan sonra nə reportyor, nə də müsahib bilmir ki, bu nə deməkdir. Belə vəziyyət hər iki tərəf üçün təhlükəlidir. Buna görə məsləhət görülür ki, söhbətin mətni razılaşdırılarkən mənası yaxşı başa düşülməyən "off the record" məfhumundan istifadə etmək lazım deyil. Reportyor və mənbə söhbətin şərtlərini hələ söhbət başlamamışdan əvvəl konkret şəkildə həll etməlidirlər. E.Fichteliusun "fon" müddəası belədir: "Fon" üçün söhbət o deməkdir ki, reportyor söhbət zamanı mənbənin ona verdiyi bütün informasiyadan istifadə edir və onun söylədiklərinin istənilən yerini sitat kimi gətirir, o şərtlə ki, mənbənin şəxsiyyəti açıqlanmır. Mənbə infor-masiyanın anonimliyini təmin edən konstitusiyaya istinad edir. [7, s.46-47]

Bəzən mənbələrin qorunmasında yalan və təhrif özünü doğruldur. Az adama məlum olan söhbətin təfərrüatını söyləyərkən informator özünü ifşa olunmaq təhlükəsinə atır. Deyilən-lərin hansının göstəriləcəyi və jurnalist materialında istifadə ediləcəyi barədə hər iki tərəfin razılığına baxmayaraq, təcrübədə çox zaman bu, real deyil və mənbənin ifşasına gətirib çıxa-ra bilər. Buna yol verməmək üçün bəzən reportyor bəzi deyilənləri olduğu kimi ifadə etmək-dən qaçınır. Əksəriyyəti dəfələrlə bəzi məlumatları üstü örtülü, qeyri-dəqiq və səhv olaraq verməyə məcbur olublar ki, öz mənbələrinin izini itirsinlər.

"İnformasiyanın anonim mənbələri ilə işləmək incə məsələdir və bu, jurnalistdən kəndirbaz kimi balans saxlamağı tələb edir. Mənbə ilə münasibət ərkyana olmamalı, əgər bir-birinizə inam

yaratmaq istəyirsinizsə, eyni zamanda çox soyuq da olmamalıdır. O adam ki, məlumat verir və anonim qalacağına inanır, juranlistə etibar edərək özünü ifşa edilmək təhlükəsinə atır”.[7, s.49] İnformator inanmalıdır ki, jurnalist onun verdiyi materialdan istifadə edərkən mənbənin açıqlanmasına gətirib çıxarmayacaqdır. Onun həmçinin ümid etməyə haqqı var ki, lazım gələrsə, reportyor onu müdafiə etmək üçün əlindən gələni əsirgəməyə-cək. Jurnalist öz mənbələrinə qayğı ilə yanaşmalıdır. Bu, o deməkdir ki, jurnalist onlarla müntəzəm əlaqə saxlamalı, ona verilən informasiyadan necə istifadə etdiyi barədə onlara məlumat çatdırmalıdır. [7, s.50]

Mənbəni qorumaq üsullarından biri yeni mənbələr tapmaqdır. Bu, təkcə məlumatları yox-lamaq və öz işini bərk tutmaq imkanı üçün deyil, həm də mənbənin özünün mühafizəsindən ötrü lazımdır. Jurnalist mövzu üzərində işləyərkən, məlumatı olan bir neçə şəxslə söhbət edirsə, onlardan heç biri çox danışmasa belə, özünü informasiyanın ilk mənbəyi hesab edir. Xəbər çap edildikdən sonra müxbirin söhbət etdiyi şəxslərdən bir çoxu bütün bunların kim tərəfindən söylənilməsi üzərində baş sındırır. Onlardan heç biri şübhə oyanmasın deyə səsini çıxarmayacaq. Mənbələrin jurnalistə informasiya ötürməsi cəhdlərinin müxtəlif səbəbləri ola bilər və bu cəhd heç də həmişə yaxşılıqdan doğmur. İnformasiya vermək azadlığı barədə qa-nundan istifadə edən bəzi adamlar qərəzli, hətta böhtan xarakterli məlumatlar da verə bilər-lər. Mənbəni qiymətləndirərkən reportyor bunu dərk etməlidir. Təbliğat və fırıldaq çox za-man məlumatların yayılmasına səbəb olur. Ölkənin siyasi həyatını əks etdirən jurnalistlərin mənbənin tendensiyaları barədə təsəvvürü olmalıdır. İnformatorun siyasi partiya mənsubiy-yəti və ya hansı təşkilatasa üzvlüyü informasiyanı özünə, yaxud öz təşkilatına sərf edən vari-antda verməsinə səbəb ola bilər. Mənbələrə tənqidi münasibət bəsləyən reportyorun müxtəlif siyasi maraqları və qütbləri təmsil edən informatorları olmalıdır. İnformasiya toplayarkən jurnalist daim müxtəlif informatorlardan aldığı məlumatlardan istifadə etməyə çalışmalıdır. Lakin bu, qəti və sözsüz tələb ola bilməz. Reportyor onlarla işləmək təcrübəsinə əsasən mənbəyə qiymət verir. Hansısa bir şeyi yəqin etmək üçün həmişə vacib deyil ki, bir-birindən asılı olmayan mənbələrdən məlumat alasan. Uotergeyt qalmaqalından (ABŞ, 1972-1974) sonra jurnalist mühitində belə təsəvvürlər hələ də yaşamaqdadır: o vaxt “Washington Post” qəzetinin reportyorları bu prinsiplə işləyirdilər. Lakin öz mənbələrinə tənqidi münasibət da-ha mürəkkəb prosesdir. [7, s.51]

Mənbələrə tənqidi münasibətin mühüm bir sahəsi şəkillər və təsvirlərdir. Rəqəmli ava-dan-lığın mövcud olduğu indiki zamanda təsviri istədiyin kimi dəyişdirməyə, kadrları və fo-toşəkilləri istədiyin kimi təhrif etməyə imkan var. Bu gün fotoşəkillər heç bir şeyi isbat et-mək üçün əsas sayıla bilməz. Redaksiyalar fotoşəkillərdə göstərilən təsvirlərin əsli ilə düz olması barədə özlərinə sual verməlidirlər: görəsən, bunlar orijinaldır, yoxsa saxtadır? Şəkil-lərin retuş edilməsinə hələ fotoşəkillərin meydana çıxdığı vaxtlarda başlanılmışdır. Burada yenilik ondan

ibarətdir ki, indi saxtalaşdırmaq və düzəltmək daha tez və daha ustalıqla edilir. Sovet dövlətinin yaranması tarixində "ilk saxtalaşdırma" barədə maraqlı misallar var:

1908-ci ildə Kapri adasında şahmat partiyası oynanılırmış. Lenin şahmat masasının arxa-sında oturubmuş, Qorki oyunu diqqətlə izləyirmiş. 1939-cu ildə "Lenin" kitabının nəşri ərə-fəsində retuşyor tarixə düzəliş etmək üçün əməlli-başlı işləməli olmuşdur. Vladimir İliçin yanındakı kişi – menşevik Vladimir Bazarov sonralar Lenini ciddi tənqid etmişdir. 1931-ci ildə Bazarov həbs edilmiş və 1937-ci ildə güllələnmişdir. Təbii ki, o, şəkildən itmişdir… Qorkidən sağdakı kişi Zinovi Peşkov Fransaya mühacirət etmiş, zabit olmuş, birinci dünya müharibəsində fransız ordusunda xidmət etmişdir. Sonralar general De Qollun şəxsi dostu olmuş, ikinci dünya müharibəsi qurtaranda Fransanın təhlükəsizlik xidmətində çalışmışdır. O da 1939-cu ildə fotoşəkildən yoxa çıxmışdı və sonradan, 1960-cı ildə Moskva marksizm-leninizm institutu üçüncü versiyanı çap edəndə bu fotoşəkil yenidən peyda oldu. Bazarovu sütunla əvəz etdilər, ancaq şəklin sağ küncündə qadın dizinin görünməsini heç kəs izah edə bilmədi. [7, s.52-53]

"İnformasiyanın mənbəyini gizli saxlamaq vəzifəsi jurnalistin əsas məsuliyyətli prinsip-lərindəndir. İctimai azadlığın mülkiyyəti ondan ibarətdir ki, insanlar sosial məzmunlu fikir-ləri qorxmadan KİV-ə ötürə, həmçinin həmin hadisələri media ilə sərbəst şəkildə müzakirə edə bilərlər. Hətta, informasiya informatorların özlərinin yaxşı olmayan hərəkətləri haqda məlumatları əks etdirsə belə onlar heç bir çətinlik çəkməməlidirlər. KİV-də disskusiya gü-nahkarları birbaşa ittiham etməkdən böyük önəm daşıyır. Belə normanın həyata keçirilməsi informasiyanı açıqlayarkən taleyini riskə atan vətəndaşlarla yanaşı, dövlət mühafizə xidməti orqanı rolundan uzaq olan jurnalistilərin də müdafiəsinə imkan verir". [31, s.75]

Hər bir KİV işçisinin malik olması gərəkən mühüm xüsusiyyətlərdən biri də informasi-yanın mənbəyini tapmaq bacarığıdır ki, bu, sırf jurnalist keyfiyyəti sırasına daxildir. Yazıçı ömrünün bütün anlarında mövzu ilə yaşadığı kimi, jurnalist günün bütün anlarında informa-siya axtarır. İnformasiyanın mənbəyini dəqiq müəyyənləşdirmək üçün dövlət qurumlarının funksiyalarını, az-çox məlum məmurları, sorğuya cavab verə biləcək adamları, siyasi xa-dimləri, partiya liderlərini, dövlət idarələrinin ünvanlarını, dövlət adamlarının telefonlarını bilmək lazımdır. Redaksiyanın tapşırığını operativ yerinə yetirmək üçün bütün bunlar vacibdir.

"Jurnalistika qalasının qıfılını iki mühüm açarla açmaq mümkündür: Birinci açar- bu in-formasiyadır, ikinci açar- informasiya mənbəyi ilə əlaqə yaratmağı bacarmaqdır. Birinci aça-rı tapmaq, ikincidən istifadə etməyi öyrənmək lazımdır".[26, s.124] Qərbdə, xüsusilə, ABŞ-da informasiyanı axtarmaq, tapmaq bacarığı jurnalistin əsas keyfiyyəti hesab olunur. Ame-rikada "Fast-Food journalism" (çevik jurnalist xidməti) bu gün getdikcə daha çox özünü göstərməkdədir. "Maspaper" adlandırılan bu tip mətbuatda ən yaxşı reportyor o adama de-yirlər

ki, informasiyanın harada olduğunu və haradan gözlənildiyini yaxşı bilir. Deməli, o jurnalist peşəkar hesab olunur ki, yaxşı əlaqələri, öz informasiya mənbələri olur. [14, s.379]

**Jurnalist məsuliyyəti.** Jurnalist yayılmaq üçün ona təqdim olunan materialların məzmu-nuna görə, ictimai önəmli faktlar, olaylar və hadisələr barədə ictimaiyyətə vaxtında və dürüst informasiya verilməsinə görə cəmiyyət, vətəndaşlar qarşısında məsuliyyət daşıyır. Vətən-daşların informasiya almaq hüququnun təmin edilməsi jurnalistin əsas vəzifəsidir. [32, s.245] Jurnalistin məsuliyyəti onun cəmiyyət qarşısında boynuna götürdüyü yükdür. Həm də bu öhdəlik, altruist adamın- öz maraqlarını başqasının maraqlarına qurban verən, cəmiyyətə təmənnasız xidmət öhdəliyini boynuna götürən adamın yüküdür. Jurnalist peşəsi adamların taleyi üçün məsuliyyətli olduğundan onun fəaliyyətində peşkarlıq həmişə əxlaqilik kimi çıxış edir. Jurnalist onun peşə diqqətinin obyekti olan adamların şərəfinə və ləyaqətinə hörmət etməli, yoxlanılmamış məlumat və şayiələri yaymamalı, habelə insanların şərəfini sarsıda bilən ifadələrə yol verməməlidir. Jurnalistin sosial məsuliyyəti, həqiqətə xidməti, dəqiqliyi və obyektivliyi, vicdanlılığı, peşə ləyaqəti və həmrəyliyi, şəxsiyyətə və özgə ləyaqətinə ehtiramı, şəxsi həyatın toxunulmazlığı, ümumbəşəri sərvətlərə ehtiram, peşə nüfuzu, üzrxahlıq formaları onun peşə etikasının əsas prinsipləridir.

Hadisənin qeyri-adiliyini bildirən sensasiya sözünün jurnalistikada mənfi çalar kimi qəbul edilməsinin əsas kökü jurnalist məsuliyyətsizliyinin və naşirin diqqəti qəsdən özünə yö-nəltmək cəhdinin gerçəkləşməsi ilə bağlıdır. Jurnalistin bilə-bilə, qəsdən sensasiya yaratmaq xatirinə quraşdırdığı informasiya təkcə onu yox, həm də çalışdığı kütləvi informasiya vasi-təsini də gözdən salır. Hətta, həmişə bu cür yalan, məsuliyyətsiz informasiyalarla auditori-yanı aldadan və təngə gətirən jurnalist və ya KİV növbəti dəfə həqiqətən baş vermiş belə bir xəbər yayımlayanda artıq insanlar tərəfindən yenə da inamsızlıqla qarşılanacaq və çoxları onun doğruluğuna şübhə ilə yanaşacaq. Jurnalistin məsuliyyəti doktrinası həmçinin media işçisinin sosial məsuliyyətli olmasını da önə çəkir.

KİV-in, yaxud onun vasitəçisinin siması öncə məsuliyyət sözü dairəsində üzə çıxır. Ümumiyyətlə, jurnalistin aşağıdakı məsuliyyətləri vardır:

Cəmiyyət və vətəndaş qarşısında məsuliyyət; Hakimiyyət qarşısında məsuliyyət (hökü-mət nəzarətinin müxtəlif dərəcələrini nəzərdə tutur); Naşir, sahibkar qarşısında məsuliyyət (sahibkara KİV-ni öz iqtisadi, siyasi və digər maraqlarına uyğun idarə etmək hüququ verir); Peşə qarşısında nəzarət məsuliyyəti (KİV jurnalistlərin özünün tənzimlənməsinə yol açır); Auditoriya – oxucular, tamaşaçılar, dinləyicilər qarşısında məsuliyyət.

Hər cəmiyyət jurnalistikanın, hər informasiya vasitəsi jurnalistin qarşısına məsuliyyətin bu və ya digər formasını qoyur və həmin şərtlər daxilində də ayrı-ayrı mətbu məqsədlər ya-ranır. Auditoriyanın hörməti, diqqəti yolunda yarışan professioanl jurnalistlərin aktivliyi “dördüncü

hakimiyyət", "ev iti kimi yeməkdən heç bir korluq çəkməyən ixtiyar sahiblərin-dən həddən artıq qorxan" (müəllif –"Newsday" qəzetinin məsul əməkdaşı L.S.Peyn) müxbirlərin canfəşanlığı isə, əksinə, "hakimiyyətin aləti" konsepsiyasını formalaşdırır. Bildiyimiz kimi, məsuliyyət bir kəsin hərəkətlərinin izahı və yaxud əsaslandırılmasıdır. Məsuliyyətin tələb olunduğu sosial, siyasi və mədəni mühit jurnalistikaya güclü təsir göstərir. Jurnalistlər cəmiyyət qarşısında cavabdehlik hissi ilə fəaliyyət göstərməli və öz hərəkətlərini izah etmək tələbi ilə üzləşə biləcəklərini daim xatırlamalıdırlar. İnsan haqları haqqında Avropa Məhkəməsi bildirir ki, mətbuat azadlığının etdiyi müdafiə forması KİV-ə həyati əhəmiyyət kəsb edən ictimai nəzarətçi rolunu oynamağa, ictimaiyyəti maraqlandıran informasiya və ideyaları ona çatdırmağa imkan verməlidir. Bunun üçün bu sahədə güclü qanunvericilik bazasının olması mühüm şərtdir. Jurnalistlərin interpretasiyasında mətbuat azadlığı "məsuliyyət daşımamaq hüququ" kimi anlaşıldığı məqamlar da olur. 1947-ci ildə ABŞ-da yaradılan və Xatçinsin adı ilə tarixə düşən "Azad və məsuliyyətli mətbuat" komissiyası məsuliyyətin hüdudlarını müəyyən etdi. Komissiyanın nəticələri ABŞ jurnalistlərini öz məsuliyyətlərini dərk etməyə çağırdı.

Jurnalistikada son zamanlar geniş yayılmış tənqid də reportyordan məsuliyyət tələb edir. Jurnalist tənqid silahını işlətməzdən əvvəl öz məsuliyyət hissini daha dərindən dərk etməyə çalışmalıdır. Məsuliyyəti unudan jurnalistin tənqidi çıxışları arzu olunan nəticəni verməz, lazımsız söz-söhbətə səbəb olar, təkcə müəllifə deyil, onun çalışdığı media qurumunun da nüfuzuna xələl gətirər. Çünki, tənqid insanlarda məsuliyyət hissini möhkəmləndirməyə, nöqsanların qarşısını vaxtında almağa kömək etməlidir. Tənqid kəskin olduğu qədər də məsu-liyyətli olmalıdır. Çünki, bu və ya digər məqalə şəxsi təsəvvürlərin və iddiaların inikası deyil, həm də ictimai işdir. Mətbuat səhifələrində, radio və televiziya verilişlərində faktlara, hadisələrə, problemlərə tənqidi münasibət ciddi məsələdir. Çünki, jurnalistin məsuliyyəti və səriştəsi belə materiallar hazırlayarkən özünü parlaq surətdə təzahür edir. Jurnalist tənqidi silahını işlətməzdən əvvəl məsuliyyətini dərk etməyə borcludur.

Jurnalistin fəaliyyətində ən məsuliyyətli anlardan biri də materialın dərc olunmasıdır. Bu-rada jurnalistin nəinki şəxsi mövqeyi, həm də onun etik normalara bağlı mənəvi dünyası əks olunur. O, yaradıcı fəaliyyətinin bu mərhələsində daha dəqiq olmalı, oxucusuna təqdim edə-cəyi materialları doğru-düzgün və obyektiv əks etdirməyə nail olmalıdır. Belə olmadıqda məqalə elə bir yazıya çevrilir ki, burada jurnalistin nəinki mənəvi mövqeyi, həm də onun etik normalardan kənara çıxması tam dəqiqliyi ilə əks olunur. Tənqidi materialın qəhrəmanı üçün mənfi nəticələr, necə deyərlər "əvvəlcədən hazırlanmış" nəticələrdir. Təcrübə göstərir ki, materialların çap olunması bəzi hallarda digər şəxslərin də marağına toxunur. Odur ki, jurnalist məlumat toplanışı zamanı öz çıxışının bütün güman ediləcək nəticələrini ölçüb-biç-məlidir. Lakin təcrübədən bəlli olduğu kimi, bu zərurət heç də bütün müəlliflər tərəfindən qəbul olunmur.

Kanadalı alim Desbarats məsuliyyəti "jurnalistikanın ən böyük həll olunmamış problemlərindən biri" hesab edir. Daha bir nəzəriyyəçi Xristiane isə məsuliyyət probleminin həllində əsas çətinliyi onda hesab edir ki, "alimlər və jurnalistlər bu məsuliyyəti anlamaqda çətinlik çəkirlər". Bəzi alimlərsə, məsələn, Dennis, Gilmor belə düşünürlər ki, "kütləvi informasiya vasitələrinin məsuliyyəti məsələsi hələ konseptual cəhətdən dolaşıq problem kimi qalmaq-dadır". Jurnalistin məsuliyyəti ilə bağlı maraqlı bir ədəbiyyatda göstərilir ki, "medianın mə-suliyyəti" ifadəsinin mənası cəmiyyətin, yəni KİV məhsulunun istehlakçılarının nöqteyi-nə-zərindən araşdırılır; məsuliyyətə məhz mediadan inciyən, ondan şikayətçi düşən adamlar tərəfindən işə salınmış bir proses kimi baxılır. [10, s.44] İndiana Ştatı Universiteti jurnalisti-ka məktəbinin əməkdaşı Devid Pritçardın fikrincə, "məsuliyyət baxımından kütləvi infor-masiya vasitələrinin fəaliyyətini tənzimləyən mexanizmlər sırasında mətbuat şuraları xüsusi yer tutur".

Medianın məsuliyyəti hər bir jurnalist qurumunun, ayrılıqda hər bir jurnalistin öz şəxsi fəaliyyəti üçün məsuliyyət daşıdığını qəbul etməsinə və auditoriyanın, informatorların, rek-lam sifarişçilərinin, yaxud dövlət strukturlarının şikayətçi qismində çıxış etmək hüququnu tanınmasına əsaslanmış bir proses kimi izah oluna bilər. Məsuliyyət bir kəsin hərərkətlərinin izahı və ya əsaslandırılmasıdır. Məsuliyyətin tələb olunduğu sosial, siyasi və mədəni mühit mediaya güclü təsir göstərir. Jurnalistlər və kütləvi informasiya vasitələri cəmiyyət qarşı-sında cavabdehlik hissi ilə fəaliyyət göstərməli və öz hərəkətlərini izah etmək tələbi ilə üzlə-şə biləcəklərini daim xatırlamalıdırlar. Bunlar media məsuliyyəti və jurnalist məsuliyyəti an-layışının kökündə dayanır. Media məsuliyyəti sistemi medianın cavabdehliyini müəyyən-ləşdirən bir neçə prinsip üzərində qurulur. Əlbəttə, Tomas Emersonun yazdığı kimi bu prin-sipləri formalaşdırmaq və yaxud onları qanunun əsas qaydalarına uyğunlaşdırmaq elə də asan məsəslə deyil. Təəssüf ki, jurnalist məsuliyyəti yenə də Emersonun sözləri ilə desək, KİV-in hər bir şikayətçinin tələbinə cavab vermək məsuliyətini qəbul etməsində üzə çıxır. Məsələn: hər hansı nəşrin Afrikada baş verən aclığı çox kasad işıqlandırmasından narazı qa-lan oxucu qəzetin niyə bu problemə belə az yer ayırdığını bilmək istəyir. Digər tərəfdən din-ləyici radiostansiyadan yerli xəbərləri az verməsi ilə bağlı izahat istəyə bilər. Yaxud, mü-sahibə vermiş adam 30 dəqiqəlik müsahibənin televiziyada yalnız bir neçə dəqiqəsinin get-məsindən narazı qala bilər. Yuxarıda göstərilmiş halların hər birində şikayətçi redaksiyanın fəaliyyəti ilə əlaqədar yaranmış problemi açıqlayır və KİV-ni məsuliyyət anlayışını məhz onun beynində formalaşmış standartlarını pozmaqda günahlandırır (Pritçard, 1987). Redak-siyanın izahı onu məsuliyyətə çağıran şikayətçini qane edə bilər. Qane etmədikdə isə şika-yətçi öz tələbini irəli sürə bilər. [10, s.45-46]

KİV-nin adlandırıldığı IV hakimiyyət keyfiyyəti həm də jurnalistin sosial məsuliyyətindən doğur. Jurnalistin sosial məsuliyyəti anlayışı son vaxtlar istər peşənin nəzəri sahəsində, istərsə də praktikasında çox işlək ifadəyə çevrilmişdir. Latınca "sokalis" sözü ictimai mənasında olub,

insanların həyat və cəmiyyətlə əlaqəsini nəzərdə tutur. Onun bu xarakteri peşənin maydana gəldiyi çağdan formalaşmış və nəsillər dəyişkənliyi ilə yeni keyfiyyətlər qazanaraq günümüzə gəlib çıxmışdır. Jurnalist məsuliyyəti sistemi həmçinin oxuculardan və digər mənbələrdən daxil olan şikayətlərin həlli ilə bilavasitə əlaqədar olmayan digər mexa-nizmləri də özündə birləşdirir. Bu mexanizmlərdən biri jurnalistlərin fəaliyyətini tənzim-ləyən Etika Kodeksidir. Kanadanın Kvebek ştatının təcrübəsinə əsaslansaq görərik ki, bura-da əksər KİV-lər belə kodeksə malikdir. Jurnalistlər bu sənədə hörmətlə yanaşır, çoxları onu tələblərinə əməl etməyə həvəs göstərirlər. Bununla belə, əslində bu kodekslər jurnalistlərin fəaliyyətinə sistematik təsir göstərmək imkanından uzaqdır. [10, s.50]

KİV-nin məsuliyyəti sisteminə daxil olan mexanizmlərdən biri də medianın ictimai tənqididir. Bu peşəkar özünütənzimləmə forması da Kvebekdə inkişaf tapıb. Professional jurnalist təşkilatlarının nəşrləri KİV-ni mütəmadi olaraq tənqid edir. Bundan əlavə 1979-cu ildən etibarən belə nəşrlərdən biri "Le 30" qəzetinin hər buraxılışında Kvebek mətbuat şurasının tənqidçisi Jakqs Quayın mətbuata dair qeydləri dərc olunur. Beləliklə, Kvebek Mətbuat Şurası medianın, sonuncu isə hökümətin tənqidçisi rolunda çıxış edir.[10, s.50]

Jurnalistlərin interpretasiyasında mətbuat azadlığının "məsuliyyət daşımamaq hüququ" kimi anlaşıldığı məqamlar da olur. Bəlkə də bu səbəbdən də 1947-ci ildə ABŞ-da yaradılan və Xatçinsin adı ilə tarixə düşən "Azad və məsuliyyətli mətbuat" komissiyası bu problemə diqqətlə yanaşaraq azadlıq və məsuliyyətin hüdudlarını müəyyən etdi. Komissiyanın nəticələri ABŞ jurnalistlərini öz məsuliyyətlərini dərk etməyə çağırdı. Komissiyanın jurnalistlərin məsuliyyətini təmin edən mexanizmləri içərisində kodekslər mühüm yer tutur. 1973-cü ildə peşəkar jurnalistlər cəmiyyətinin qəbul etdiyi kodekslərdən sonra bütün ölkə qəzetlərinin əksəriyyətində hazırlanan prinsiplər meydana çıxdı.

Jurnalistika özünün mahiyyətində sosial məsuliyyət keyfiyyətini saxlayır. Sosial məsuliy-yət mahiyyəti beləliklə, təkcə jurnalistin deyil, bütövlükdə jurnalistikanın missiyasıdır... Ar-tıq neçə əsrdir ki, jurnalistika IV hakimiyyət hesab olunur. "IV hakimiyyət funksiyasını qa-zanmaq üçün kütləvi informasiya vasitələri ilk növbədə cəmiyyətin etibarını qazanmalıdır. Cəmiyyətin etibarını qazanmaq üçünsə jurnalistlər səylə işləməlidirlər. Cəmiyyətin etibarını qazanmaq üçün onlar hər gün öz obyektivliyini, müstəqilliyini və peşəkarlığını nümayiş et-dirməlidirlər". [19, s.130] Yalnız belə halda IV hakimiyyətə çevrilmək mümkündür. Jurna-listikaya IV hakimiyyət anlayışını ilk dəfə ingilis filosofu və publisisti Edmund Berk (1729-1797) gətirmişdir. Özü çox səs-küy salmış pamfiletlər müəllifi olan E.Berk hələ 1776-cı ildə işlətdiyi bu ifadə ilə jurnalistikanın hakimiyyətə, hakim dairələrinə nəzarət funksiyasını nə-zərdə tuturdu. "Son zamanlar kütləviləşən fikirlərə görə, ABŞ mətbuatı hakimiyyətə qarşıdır və bu da çox təbii haldır. Hətta belə münasibətləri normal və sağlam adlandıranlar da az de-yil. Bu fikirləri daha

çox yürüdən elə jurnalistlərin özləridir". [16, s.64] Lakin jurnalistlər heç də öz mənafeləri üçün deyil, cəmiyyətin mənafeyi naminə hakimiyyətə oponent rolunu üzərilərinə götürməli olurlar. "Jurnalistikanı "IV hakimiyyət" kimi qiymətləndirənlər onun hakimiyyət üzərində nəzarətini, hakimiyyətə qarşı skeptiklik (onun işinə şübhə ilə yanaşmaq), tənqidi münasibətini, hətta provokator rolunu nəzərdə tuturlar". [26, s.306] Beynəlxalq jurnalistika nəzəriyyəsində xalqa söykənən jurnalistika daha yüksək qiymətləndirilir. Belə jurnalistika xalqı ayırmaq deyil, onu birləşdirən materiallar dərc edir, jurnalistə deyil, jurnalistin düşündüyünü deyil, cəmiyyətə lazım olan materialları ona təqdim edir. [24, s.256] Beləliklə, jurnalistika xalq hakimiyyətini təmsil edir. A.Tokvil hələ 150 il əvvəl demişdir ki, "xalqdan sonra birinci hakimiyyət mətbuatdır". [33]

Jurnalistikanın beynəlxalq doktrinalarının əməl olunması prosesinə xüsusi diqqət yetirilən ölkələrdən biri Almaniyada bəzi qurumlar var ki, bu işə nəzarət edir. Bunlardan biri də 1956-cı ildə qəzet naşirləri və assosiasiyaları tərəfindən mətbuatda özünütənzimləmə mexa-nizmini tətbiq etmək üçün müstəqil və qeyri-hökümət təşkilatı kimi yaradılmış Mətbuat Şurasıdır. 1973-cü ildə naşirlərin və jurnalistlərin assosiasiyaları ilə birlikdə peşə etikası ko-deksi hazırladı. [10, s.30] Almaniya ilə yanaşı bir çox ölkələrdə də mətbuat şuraları fəaliyyət göstərir. Mətbuat üzrə bu 7 milli şurasının əksəriyyəti qərarların qəbulunda rəhbər tutulan məcəllələr işləyib hazırlayıb. Məcəllələrin hamısı aşağıdakı müddəalara toxunur:

vicdanlılıq, ədalətlilik; yazı dərc edilməzdən əvvəl istənilən tənqidi məqalənin obyektinin fikrini öyrənmək vəzifəsi; illüstrasiyanın yanlış və ya əks mənada başa düşülməməsi üçün onu təhrif etməmək vəzifəsi; tənqidi fikirlərə, həmçinin faktlar əsasında hazırlanmış tənqidi yazılara cavab vermək imkanını təmin etmək vəzifəsi; obyektivlik; bəzi məcəllələr mətbuat nü-mayəndələrinin hədiyyə almasını qadağan edir; şəxsi həyatın toxunulmazlığı hüququna hörmət; faktları rəydən fərqləndirmək vəzifəsi; irqi, milli, dini yaxud cinsi əlamətlərə görə ayrıseçkiliyin qadağan olunması; bəzi məcəllələr KİV-ə yazının obyektinin irqi, dini, yaxud milli mənsubiyyətini xüsusi ehtiyac olmadıqda xatırlatmaqdan çəkinməyi tövsiyə edir; informasiya əldə etmək üçün şərəfsiz üsullardan istifadə etməmək vəzifəsi; adamları təhlükəyə məruz qoymamaq vəzifəsi; ümumi ədəb və zövq normalarını gözləmək vəzifəsi; məxfi mənbələri açıqlamamaq vəzifəsi; şübhəli şəxsin təqsirkar olması barədə qabaqcadan qərar çıxarmamaq və əvvələr barəsində ittiham irəli sürülməsi haqqında məlumat verilən şəxs bəraət aldıqda, bu barədə məlumatı da dərc etmək vəzifəsi. [10, s.41]

Türkiyə mətbuat şurasının bünövrəsini qoymuş jurnalistlər Mətbuat işçilərinin Peşə Əx-laqı Kodeksinin giriş hissəsinə bütövlükdə problemə baxışlarını aşağıdakı qaydada ifadə etmişlər: "Hər zaman və hər yerdə mətbuat azadlığının məhdudlaşdırılmasına qarşı çıxacağı-mıza azad iradəmizlə söz verərək... Mətbuat İşçilərinin Peşə Əxlaqı Kodeksinin şərtlərinə əməl etməyi, lazım bildiyimiz məlumatı cəmiyyət qarşısında açıqlamağı əsas məqsədimiz hesab edirik". [10,

s.60] Türkiyədə dərc olunan hər qəzet və fəaliyyət göstərən hər jurnalist haqqında istənilən şəxs şikayətə səbəb olmuş hadisənin törədildiyi gündən etibarən 2 ay ərzində Mətbuat Şurasına müraciət edə bilər. Şuraya şikayət edərkən rüsum ödənilməsi tələb olunmur. Eyni qəzet və ya jurnalist haqqında həm məhkəməyə, həm də Mətbuat Şurasına şi-kayət vermək mümkündür. Belə ki, Şuranın şikayətlə bağlı çıxardığı qərarlar qanuni qüvvə-yə malik deyil. Mətbuat Şurasının təqsirkar hesab etdiyi jurnalist sonradan məhkəmədə qa-nuni surətdə bəraət qazana bilər. Lakin təcrübədə belə hallara az-az rast gəlinir.[10, s.61]

Jurnalist məsuliyyətinin hər sahədə böyük önəm daşıdığının şahidi olmaq üçün aşağıdakı bir misala diqqət yetirək:

1961-ci ildə "New York Times" qəzetinin reportyoru Ted Şults belə bir məlumat ələ keçirmişdi ki, Mərkəzi Kəşfiyyat İdarəsi Kubaya hücum hazırlanmasına kömək edir. Bu hü-cum Azadlıq adasından olan və ABŞ-da yaşayan kommunist mühacirlər tərəfindən həyata keçirilməlidir. Bu informasiyanın, heç şübhəsiz, yüksək dəyəri vardı və birinci səhifənin əsas xəbəri olmağa layiq idi. "New York Times" zatən öz fəaliyyətində nəticələrə qarşı neyt-ral münasibət prinsipinə əməl edən qəzetdir və bu onun ilk səhifəsində qəzetin adından azca sağda yazılmış aşağıdakı sözlərdə ifad olunur: "All the news that's fit to print" (yəni "Bütün xəbərlər çapa layiqdir"). Pentaqon "New York Times"ın yüksək dərəcədə gizli informasiya-ya malik olduğu barədə prezident Con Kennedini xəbərdar etdi. Kennedi dərhal telefona cu-maraq qəzetin məsul naşiri Orvil Dreyfusla calaşdı və xəbərin çapına veto qoymağı xahiş etdi. Prezident öz xahişini onunla əsaslandırdı ki, xəbərin dərc edilməsi əməliyyatın baş tut-mamasına səbəb ola bilər, qanlı döyüşlərdə çoxlu  əsgərin ölümü ilə nəticələnər və millətin mənafeyinə zərər vurar. Kennedi Dreyfusa belə bir sual verdi: "Qəzetin rəhbərliyi bu nəti-cələr üçün məsuliyyəti öz üzərinə götürə bilərmi?". Bu əhvalatda ən təəccüb doğuran məsələ heç də o deyildi ki, prezident qəzetin redaktoruna zəng vurmuşdu, o idi ki, "New York Times"ın rəhbərliyi prezidentin təzyiqinə boyun əymişdi. Ancaq yenə də qəzetin səhifələ-rindən birində hücum ehtimalı barədə şayiələr dolaşdığı haqda informasiya dərc edilmişdi. Burada hücumun yaxın günlərdə olacağı və onun hazırlanmasında Mərkəzi Kəşfiyyat İdarə-sinin iştirakı barədə kiçicik eyham belə yox idi. Bu informasiya heç kimin nəzərini cəlb et-məmişdi. Planlaşdırılan vaxt, yəni 1961-ci il aprelin 17-də "Donuzlar buxtasın"a desant çı-xarıldı. Əməliyyat tam uğursuzluğa düçar oldu. 1500 kubalı mühacirdən ibarət silahlı qrup darmadağın edildi, Fidel Kastronun Kubada mövqeyi daha da möhkəmləndi. Baş verənlər üçün "New York Times" hansı məsuliyyəti daşıyırdı? Əgər qəzet əlindəki məlumatı dərc et-səydi, hücum çətin ki, baş tutardı. Kennedi, özünün dediyi kimi, bu məsələdə olduqca böyük təmkinlilik və ehtiyatlılıq göstərən qəzetə tənə yağdırdı. Əgər "New York Times" hazırlanan əməliyyat barədə həqiqətləri dərc etsəydi, o zaman əməliyyat təxirə salınar, ölkə rüsvayçı-lıqdan qurtarar, yüzlərlə insan həyatı xilas edilərdi. Kennedi bu ittihamları

Dreyfusa qarşı açıq şəkildə söylədi. Bu əhvalat amerikalı juranlistlərə elə bir dərs oldu ki, onun əks-sədası gənc reportyorlar nəslinə qədər gəlib çatdı... Media qurumlarının vəzifəsi həqiqi olduğu sənədlərlə təsdiq edilən və oxucu auditoriyası üçün əhəmiyyət kəsb edən informasiyanı çap etməkdir. Dərc ediləcək xəbərin müharibəyə, yaxud sülh müqaviləsinə səbəb olacağı redaksiyanın boynuna heç bir məsuliyyət qoya bilməz. [7, s.152-153]

**Şərə qarşı mübarizə.** Bu keyfiyyət ətrafındakı mübahisəni son 50 ilin məhsulu hesab etmək olar. Şərə qarşı mübarizədə jurnalistikanın yeri barədə mübahisələrin son dövrün faktı olması informasiyanın tərəfsizlik, qərərsizlik kimi doktrinalarının nəzəri, praktiki inkişafından irəli gəlir. Xüsusilə, praktiklər ancaq göstərmək, ancaq axtarmaq vəzifəsini jurnalistin əsas işi hesab edərək hadisələrə mövqe bildirməkdən çəkinməyi üstün tuturlar. Bu təcrübənin populyarlaşması prosesi getdikcə artmaqda, möhkəmlənməkdə olsa da, bəzi mütəxəssislər cəmiyyətin şərə qarşı mübarizə ənənələrinin bütün çalarları ilə dirçəlməsini yenidən tələb edəcəyi fikrindədir. Çünki bu tendensiya ABŞ, Böyük Britaniya, Kanada, Rusiya və eləcə də Azərbaycan jurnlasitikasında öz yerini möhkəmlətməkdədir. Müasir dövrdə jurnalist müharibələrin, milli münaqişələrin, dini ayrı seçkiliyin qızışdırılması əleyhinə fəaliyyəti ilə təkcə bir regionun deyil, dünyanın gedişinə təsir göstərə bilər. Jurnalist kiməsə şər atmaq istədikcə şayiələrdən də yararlana bilər. Şayiələr özündə elə fantastik və ağlasığmaz informasiya daşıyır, yaxud o qədər qeyri-dəqiq olur ki, ağıllı adam onlara məhəl qoymur. Bu barədə hamıya məlum məsələlər üzərində dayanmağa ehtiyac yoxdur. Ancaq onu nəzərə almaq lazımdır ki, radio və televiziya öz yayılma sürətinə görə böyük gücə malikdir. Ona görə də buradakı xəbərlərdə gedən şayiələr daha təhlükəli nəticələr verə bilər, insanların daha tez şərə düşməsinə şərait yarada bilər. Yoxlanılmamış şayiələr üzərində qurulan veriliş ən yaxşı halda müxbiri gülünc vəziyyətə qoya bilər, pis halda isə ümumi panika yarada bilər. Bir çox hallarda şayiələri etibarlı mənbələrə müraciət etməklə aradan qaldırmaq olar. Digər hallarda isə yayılma miqyası genişlənmiş şayiələrin şayiə olduğu barədə məlumat vermək və onu təkzib etmək lazımdır.

Şərə qarşı nəinki jurnalistlər, həmçinin adi insanlar da mübarizə aparmalıdır. Jurnalist isə şərdən hər zaman qaçmalı, yalan, doğru olmayan informasiya verməkdən yayınmalıdır. Bir çox hallarda şərlə üzləşən insanlar sonradan istər şəxsi həyatlarında, istər iş fəaliyyətlərində, istərsə də cəmiyyət qarşısında böyük problemlər yaşayırlar. Bu cür insanlar sırasına əsasən gündəmdə yer alan, daim auditoriyanın maraq dairəsində olan tanınmış simalar – müğənnilər və digər şou-biznes nümayəndələri, mədəniyyət xadimləri, ictimai-siyasi xadimlər, nazirlər, məmurlar, idmançılar və digər sahələrin nümayəndələri daxildir. Əlbəttə, məşhurların şəxsi həyatı, gündəlik yaşayış tərzi bir çoxları üçün maraqlı gəlir. Müasir günümüzdə bu cür auditoriyanın həcmi də böyük olur. Oxucu, dinləyici, tamaşaçı sayını artırmaq, öz "məhsulunu daha çox satmaq" üçün bəzi jurnalistlər məhz bu metoddan istifadə edirlər.

Jurnalistin peşə etikası kodekslərində və normalarında şərə qarşı mübarizə ilə bağlı mühüm tədbirlər də vardır. Ümumiyyətlə, insanlara şər atılması, yalan informasiyalar şəxsi həyata müdaxilə kimi də qələmə verilə bilər, həmçinin şərəf və ləyaqətin də alçaldılmasına yol aça bilər. İnsanların şəxsi həyatına müdaxilə problemi etik normaların kobud pozulması kimi qəbul olunur. "Qərb kütləvi informasiya vasitələrində şəxsi həyat hüququ çox ciddi şə-kildə nəzərə alınır. Böyük Britaniyanın "Financial Times" qəzetinin foto müxbiri Kral ailəsindən nüfuzlu bir xanımın, habelə ictimai xadimin gecə vaxtı, öz bağında, məşuqəsi ilə gəzərkən onları gizli şəkildə lentə alaraq qəzetdə dərc etdirir. Bu fakta görə məhkəmə qəzeti 60 min funt sterlinq cərimələmişdi. Fotoda təsvir olunan məqam başqa zamanda, özgə yerdə, ictimai mühitdə baş versəydi bu fakt ciddi ictimai maraq obyekti olardı və hüquqi cəhətdən özünə bəraət qazanardı". [14, s.131]

Almaniyada da jurnalistikanın şərə qarşı mübarizə doktrinasına əməl etmək mühüm və-zifə hesab olunur. Bu ölkənin Mətbuat Şurası özü bununla bağlı kodekslər işləyib hazırlayib. Həmin kodekslərdə şərə qarşı mübarizə də geniş yer alıb. "Almaniyada yerli qəzetlərdən biri öz səhifəsində belə bir material vermişdir ki, guya burqomistr yer sahəsi paylamaq prose-sində öz xeyrinə qanunsuz torpaq payı ayırmışdır. Bu faktı bütöv bir təhqiqat komissiyası təsdiq edə bilməmişdir. Almaniya Mətbuat Şurası həmin yerli qəzet haqda qətnamə qəbul et-mişdir: kodeksin birinci maddəsi (həqiqətə hörmət) pozulmuşdur. Bu həmçinin burqomistrə qarşı şər kimi də dəyərləndirilə bilər. Bu vəziyyətdə aparılmış araşdırmalar həmin şərin daha böyük problemlər yaratmasının qaşısını almışdır". [14, s.138]

Jurnalist peşəsi ilə əlaqədar ünsiyyətdə olduğu adamların şəxsiyyətinə və ləyaqətinə hör-mət etməli, onları incidə biləcək heç bir hərəkətə yol verməməlidir. Adamların şəxsi həya-tına müdaxilə, bu haqda faktarın və ya bilərəkdən yalan informasiya yayılması, insanlara şər atılması yolverilməz sayılır. Jurnalistin şayiələrə əsaslanıb hər hansı şəxs barədə onun nüfu-zuna xələl gətirə biləcək yazı yazmağa, ifadələr işlətməyə hüququ yoxdur. Yazılarda yanlış-lığa yol verilərkən, və ya bilərəkdən yalan yazılarsa jurnalist mütləq mənəvi ziyan dəymiş şəxsdən üzr istəməlidir, yəni təkzibin vaxtında çap olunmasına nəzarət etməlidir. Düzəliş ve-rilərkən aydın olmalıdır ki, əvvəl verilən məlumat qismən, yoxsa təmamilə səhvdir. Jurnalist şəxsin cavab və ya təkzib vermək hüququna hörmət etməli, yeri gələrsə üzr istəməkdən belə çəkinməməlidir. Bilərəkdən yalan informasiya verilən təqdirdə və həmin şəxsə bilərəkdən şər atanda qarşı tərəf məhkəməyə də müraciət edə bilər.

Dünya təcrübəsində jurnalistlərin faktları saxtalaşdıraraq kimlərəsə şər atdıqları hadisələrə tez-tez rast gəlinir. Həmin faktlardan bir neşəsinə diqqət yetirək:

"New-York Daily news" qəzetinin şərhçisi Mayk Deylinin 1981-ci ilin mayında Brita-niya qoşunlarının İrlandiya qiyamçılarına qarşı törətdikləri vəhşiliklər haqqında uydurma-larla dolu

məqaləsi işıq üzü görmüşdü. Britaniyalı hərbçilərə qarşı şər, böhtan xarakterli bu yazı böyük səs-küyə səbəb olmuşdu. Bu yazı çap edildikdən bir qədər sonra M.Deyli istefaya getmək məcburiyyətində qalmışdı; WABS teleşirkəti redaksiyaya gələn tamaşaçıların məktublarını saxtalaşdırırdı. Bu üsulla şirkət əməkdaşları yalan, böhtan, şər xarakterli informasiyalar yayırdılar. İnzibatçı prodüsser, proqramın rejissoru, telemüxbir və daha iki əməkdaş buna görə işdən azad olunmuşdular; 1982-ci ildə "New-York Times Magazine" nəşrində Kristofer Consun "Qırmızı kxmerlərin torpağında" başlıqlı məqaləsi dərc olunmuşdu. Məqalədə jurnalist Kombodcaya, qiyamçıların Pol Potun diktator rejiminə qarşı mübarizə apardığı ucqar rayonlara səfərini təsvir edirdi. Döyüşlərin təsviri son dərəcə inamlı idi. Məqaləni oxuyanda adama elə gəlirdi ki, sanki müəllif hadisələrin cərəyan etdiyi qaynaq nöqtədə Pol Potu şəxsən müşahidə edib. Bundan iki ay sonra mətbuatda, o cümlədən "Washington Post" və "New-York Times" kimi qəzetlərdə, Kristofer Consu ifşa edən yazı-lar çıxdı. Məlum oldu ki, o, həmin məşhur məqaləni özünün İspaniyadakı evini tərk etmədən yazıb. Bu "söz oğrusu" özünün "Time" jurnalında dərc olunmuş yazılarından və Andre Malronun "Kral yolu" romanından (həmin romanda da bütün hadisələr Kombodcada cərəyan edir) iri parçaları bir-birinə yapışdırmaqla gözəl və inandırıcı bir məqalə yaratmağa müvəffəq olmuşdu. Əslində isə, bəzi mütəxəssislər bu yazını Pol Potun hərəkətlərinin şişirdil-məsi və müəyyən mənada ona böhtan, şər atılması kimi də dəyərləndirmişdilər.

Sovet dövründə qəzetlərdə tez-tez şər, böhtan xarakterli yazılarla rastlaşmaq mümkün idi. İttifaq qəzetlərindən birində baş vermiş bir hadisəylə bağlı misala diqqət yetirək: Leninqrad qəzetlərindən birində qəhrəmanları "bəzədilmiş" şəkildə təqdim olunmuş bir oçerk nəşr edil-mişdir. Material çap olunduqdan sonra haqqında danışılan qız və atası müəllifi özləri haq-qındakı faktları şişirdərək təqdim etməkdə günahlandırdılar. Qız bildirmişdi: "İstehsalatda hamı arxamca gülür. Belə ki, siz məni həddən artıq şişirdib təqdim etmisiniz. Mənim üçün özümə xas olmayan keyfiyyətləri vurğulamısınız. Yoldaşlarımın yanında mən çox utanır-dım". Qızın atası isə bildirmişdi: "Siz on minlərlə oxucuya çatdırmısınız ki, mən otaqda iri addımlarla gəzirəm. Bu həqiqətə uyğun deyil. Mənim addımlarım siz vurğuladığınız kimi iri deyil. Mən xidmətdə yoldaşlarım və yaxınlarım tərəfindən çoxsaylı ironiyalı təbriklərə məruz qaldım. Bunun əsas səbəbi isə, sizin təqdim etdiyinizə uyğun olaraq guya mənim nəyəsə görə öz yerişimi dəyişməyimdir. Bu cür səhvlər sizin yazını korlayıb. Və sizə onu da demək istəyirəm ki, sovet adamının reklama ehtiyacı yoxdur".[22, s.339]

**Prioritet mövzu.** Beynəlxalq jurnalistikanın doktrinaları sırasında ən mühümlərdən biri hesab olunan prioritet mövzu hər bir kütləvi informasiya vasitəsinin də fəaliyyətində mühüm rola malikdir. Prioritet mövzu dedikdə məlum olduğu kimi, əsas mühüm mövzular, infor-masiyalar, hadisələr nəzərdə tutulur. Yəni, dünyada baş verən ən mühüm hadisələr jurna-listikanın

prioritetidir. Hər bir jurnalist, hər bir kütləvi informasiya vasitəsi auditoriyanın böyük hissəsini maraqlandıran informasiyanı ən başda verir. Prioritet mövzular müxtəlif səpkili, müxtəlif sahələrə aid ola bilər. Lakin həmin hadisələr, informasiyalar yaşından, cin-sindən, milliyyətindən, irqindən asılı olmayaraq hər kəs üçün maraqlı gəlir.

Tarixin müxtəlif dövrlərində də prioritet mövzular fərqli olub. Məlum olduğu kimi, jurnalistikanın ilk nümunələri hələ eramızdan əvvəlki əsrlərə gedib çıxır. Lakin hələ o vaxtlar mövcud olmayan doktrinalar, həmçinin prioritet mövzu primitiv xarakter daşıyırdı. Belə ki, kral fərmanlarını, müxtəlif elanları o dövrün prioritet mövzularından hesab etsək yanılmarıq. Çünki,, həmin dövrdə insanların marağı əsasən bu cür hadisələrə, elanlar, informasiyalara olurdu və daha çox onlar geniş yayılırdı. Zəmanə dəyişdikcə, illər, əsrlər ötdükcə isə təbii olaraq prioritet mövzunun da formaları dəyişmişdir.

Yuxarıda da qeyd olunduğu kimi, uzun müddət prioritetə hansı mövzunun salınması ilə bağlı müzakirələr getmişdir. Bu müzakirələrdə iştirak edən mütəxəssislərin bir qismi əhə-miyyətindən asılı olmayaraq xarici xəbərlərin prioritet olmasının əleyhinə, digərləri isə ək-sinə, məhz həmin informasiyaların baş xəbərə kimi təqdim olunmasının lehinə idilər. Lakin son 50 illik təcrübə göstərir ki, ölkədən kənarda baş verən mühüm hadisələrə yerli əhalinin də marağı var. Məsələn: deyək ki, ABŞ hərbi hava qüvvələri Yuqoslaviyanı bombardmana başlayıb (1999-cu il). Bütün dünyada ən ciddi hesab olunan bu hadisəni neçəncisə plana keçirib, hansısa yerli partiyanın seçkilərə buraxılmaması informasiyasını anonsa, ilkin sıraya qaldırmaq gülünc olardı. Yaxud, Qəndəhardan terrorçuların Ondina qaçırdığı təyyarə ilə bağlı informasiyanı yerli prioritet naminə hansısa mətbuat konfransından sonraya salmaq heç də düzgün bir addım olmazdı. Dünya informasiya məkanı getdikcə sıxlaşmağa başlayır. Hətta CNN kanalının əməkdaşlarına “xarici”, “xaricdə” sözlərini işlətmək qadağan olunub. Dünya prioritetinin beynəlxalq jurnalistikada qəbul olunmuş kanonları Azərbaycan media-sında da özünü göstərir.[14, s.269-270]

Bütün dünya KİV-lərinin bir neçə mühüm ortaq cəhəti var ki, bunlardan biri də beynəl-xalq doktrinalara, həmçinin prioritet mövzuya əməl etməkdir. Yəni, hər bir kütləvi infor-masiya vasitəsi, istər tanınmış olsun, istərsə də tanınmamış, istər auditoriyası geniş olsun, is-tərsə də az, fərq etməz, hamısı dünyada baş verən ən mühüm, vacib hadisələri prioritet seçir. Çünki,, auditoriya həmin xəbəri daha səbirsizliklə gözləyir və izləyir, nəinki. Təəssüf doğu-ran məqamlardan biri də budur ki, son dövrlər KİV-nin prioritet mövzusunda müharibələr, dövlət çevrilişləri, siyasi, iqtisadi problemlər, böhranlar daha çox yer alır. Bu isə son iki əsr-də dünyada baş verən hadisələrlə bağlıdır. Məsələn: hələ I və II Dünya Müharibəsi illərində mətbuat və radionun prioritetində məhz müharibə ilə bağlı informasiyalar geniş yer alırdı. Onu da vurğulamaq lazımdır ki, bu illərdə insanlar məhz həmin KİV-lər sayəsində məlumat-lar əldə edirdilər. Lakin qeyd etmək yerinə düşər ki, bu informasiyaların heç də hamısı düz-gün olmurdu

və bir çox mühüm olaylar gizlədilirdi. Bu tipli informasiyalar 1950-ci illərdən bu günə kimi baş verən digər müharibələr, qırğınlar, vətəndaş qarşıdurmaları, dövlət çevrilişləri və s. bu kimi mənfi hadisələr də KİV-nin prioriteti olur, baş xəbərinə çevrilir.

Onu da vurğulayaq ki, heç də bütün KİV-lər həmin hadisələri olduğu kimi işıqlandırmır, həqiqəti olduğu kimi çatdırmır. Təbii ki, bütün bunlar siyasi aləmlə bağlıdır. Məsələ: 1991-ci ildə I ABŞ-İraq müharibəsi zamanı dünyanın ən obyektiv, qərərsiz kütləvi informasiya vasitələrindən biri hesab olunan CNN telekanalı bu prinsipləri pozmuşdu. Belə ki, müharibə zamanı açılan atəşlərin, atılan bombaların çoxsaylı qurbanları sırasında azyaşlı uşaqlar, kör-pələr də kifayət qədər idi. Lakin nədənsə bu fakt heç vaxt CNN-nin prioritetində olmayıb. Həmin faktları, görüntüləri isə "Əlcəzirə" telekanalı tez-tez nümayiş etdirir, özünün əsas, baş xəbərləri sırasına salırdı. Məhz, 1991-ci ildəki müharibə zamanı iraqlı uşaqların, körpə-lərin də öldürüldüyü faktı "Əlcəzirə" kanalı vasitəsilə bütün dünyaya yayılmışdı. Bu hal II ABŞ-İraq müharibəsində də qismən davam etmişdi.

Həmçinin soyqırımlar, təbii fəlakətlər, dəhşətli qətliamlar və qəzalar da kütləvi infor-masiya vasitələrinin prioritetinə daxildir. Dünya mediasında daha bir ədalətsizlik isə Azər-baycanın Xocalı şəhərində törədilmiş soyqırımla bağlıdır. 1992-ci ildə ermənilər tərəfindən törədilmiş həmin hadisələr nəinki prioritetə salınmamış, hətta gizlədilməyə cəhd olun-muşdur. 26 fevral faciəsindən həmin vaxt çox az insan xəbərdar olmuşdu. Demək olar ki, heç bir KİV Xocalı faciəsini olduğu kimi, bütün faktları düzgünlüyünü qoruyaraq prioritetə salmamışdır. Yalnız bir neçə yerli və əcnəbi jurnalistin sayəsində dəhşətli kadrlar lentə alın-mış və bu görüntülər sonrakı illərdə bütün dünyaya yayılmışdır. Bu gün dəhşətli görüntüləri istənilən ölkənin hər bir vətəndaşı istər KİV, istərsə də internet vasitəsilə izləyə bilir. Hətta 2012-ci il Xocalı Soyqırımının 20-ci il dönümü bir çox beynəlxalq media, müxtəlif ölkələrin KİV-də prioritet mövzuya çevrilmişdi. Həmçinin, 2012-ci il fevralın 20-dən müxtəlif ölkə-lərdə keçirilməyə başlayan bir çox tədbirlər də KİV-in baş xəbərlər sırasında verilmişdi. Bakıda təşkil olunmuş yürüş və Türkiyədəki mitinq daha böyük marağa səbəb olmuşdu.

2011-ci ilin əvvəllərindən başlayan və "Ərəb baharı" adlandırılan hadisələr isə demək olar ki, bu gün də əsas xəbərlər sırasında yer alır, gündəmin əsas müzakirə mövzularından-dır. Liviya lideri Qəddafinin öldürüldüyü və sonradan insanların onun cəsədi ilə şəkil çəkdir-diyi görüntülər uzun müddət dünyanın aparıcı medialarının prioriteti oldu. Eyni zamanda ha-zırda Suriyada davam edən siyasi gərginlik və bunun nəticəsində ölkədə hər gün onlarla in-sanın həlak olması haqqında demək olar ki, günün bütün vaxtlarında informasiyalar verilir.

Prioritet mövzular sırasında təbii fəlakətlər, qəzalar da geniş yer tutur. Son dövrlər təbii fəlakətlərin və dəhşətli qəzaların artdığı bir vaxtda həmin hadisələrin görüntüləri demək olar ki, qəzet səhifələrində, radio və televiziya efirində əsas baş xəbərlər sırasındadır. Məsələn:

Türkiyənin Van bölgəsində 2011-ci ilin sonlarında baş verən dağıdıcı zəlzələ uzun müddət yerli kütləvi informasiya vasitələri ilə yanaşı, dünya mediasının da gündəmində prioritet mövzulardan oldu. Yerli KİV isə bir neçə gün demək olar ki, yalnız zəlzələnin baş verdiyi anı və onun fəsadlarını, həmçinin axtarış, qurtarma işlərini də prioritetə çevirmişdi. 2011-ci ilin martında Yaponiyada tarixin ən böyük və dəhşətli fəlakəti, zəlzələ və onun nəticəsində sunami yaşandı. Bu fəlakət on minlərlə yaponiyalının həaytına son qoydu. Həmçinin, ölkə külli miqdarda maddi və mənəvi zərər dəydi. Yer üzündən silinən kəndlər də oldu. Demək olar ki, yaponlar hadisədən bir ildən çox vaxt keçməsinə baxmayaraq hələ də zəlzələ və sunaminin yaratdığı problemlərin həlli ilə məşğuldurlar. Ən təhlükəli bəlalardan biri suna-minin Fukisima atom stansiyasına zərər yetirməsi və stansiyanın bir blokunun təmamilə sıra-dan çıxması, bunun da nəticəsində ətrafa radiasiaynın yayılması oldu. Bütün bunlar və digər problemlər hadisədən bir neçə ay sonra da dünya mediasının əsas xəbərlərindən olmuşdu.

Yalnız hadisə baş verdiyi an yox, onun sonrakı gedişi və nəticəsi də medianın əsas xəbər-lərindəndir. Məsələn: ötən ilin iyul ayında Norveçdə dəhşətli qətliam törətmiş Anders Breivik hadisəni törətdikdən 1 il sonra yenidən medianın gündəmindədir. 79 nəfəri qətlə yetirən və 151 insanı yaralayan Breivikin bu dəfə məhkəmə prosesi dünya KİV-nin baş xəbərləri sırasındadır.

Mənfi xarakterli olaylarla yanaşı, müsbət, sevindirici hadisələr də prioritet mövzu olur. Hər bir ölkədə belə hadisələr demək olar ki, tez-tez baş verir və artıq insanlar da məhz bu cür xəbərləri eşitməyi çox istəyirlər. Xoş xarakterli hadisələr sırasında incəsənət, mədəniy-yət, idman və s. bu kimi sahələrə aid informasiyalar da gündəmdə geniş yer alır. Belə hallar-dan biri kimi “Eurovision” musiqi yarışmasını misal göstərə bilərik. Hər il may ayında keçi-rilən bu musiqi bayramında yalnız Avropa ölkələrinə iştirak hüququ verilsə də demək olar ki, dünyanın bütün mediası onu diqqət mərkəzində saxlayır. Yarışmanın qalibi olan dövlət isə düz bir il müddətində bütün ölkələrin kütləvi informasiya vasitələrinin nəzərində olur. 2011-ci ildə müsabiqənin qalibi məhz Azərbaycan təmsilçiləri oldu və bu hal bizim ölkəmi-zin son bir il müddətində mediada prioritetə daxil olması ilə nəticələndi. Və bu eyni zaman-da Azərbaycanın nüfuzunun da artmasına gətirib çıxardı. Dünyanın ən tanınmış KİV-ləri öl-kəmiz haqda yazılar, proqramlar hazırlayırlar. Bu hal əlbəttə ki, bütün qalib dövlətlər üçün yaşanır. Həmçinin müxtəlif idman turnirləri də prioritet seçilir. Qeyd etmək yerinə düşər ki, ən böyük idman bayramı hesab olunan Yay Olimpiya oyunları daha çox marağa səbəb olur. Və 2012-ci il London olimpiyadasına da eyni maraq saxlanılır. Belə ki, artıq London-2012-nin başlanmasına çox az bir müddət qalmış dünyanın tanınmış kütləvi informasiya vasitələri bu turnirlə bağlı bir çox prioritetlər müəyyənləşdiriblər.

**Qərəzsizlik.** Qərəzsizlik rəsmi doktrina kimi hələ 1934-cü ildə Amerika Birləşmiş Ştat-larında rabitə haqqında qanuna salınmış, 1949-cu ildən kütləvi informasiya vasitələrinə şa-mil

edilmişdir. Jurnalistin qərəzsizliklə bağlı öz mövqeyini bildirməsinin yaratdığı təsir-sizliyə görə ABŞ Jurnalistlər Assosiasiyası, hələ 1974-cü ildə qərəzsizlik doktrinasının KİV-dən çıxarması təklifi ilə senata müraciət etməyi ölkə prezidentindən xahiş etmişdir. Prezi-dent bu müraciətə müsbət cavab versə də, senat onun təklifini rədd etmiş, bu barədə məsələ-ni heç gündəliyə də salmamışdır.[14, s.272]

Jurnalistin yaradıcılığı praktik cəhətdən cəmiyyətə dəstək olmalıdır. Bu dəstək materialın mövzusundan asılıdır. Mövzu aktual və maraqlıdırsa, o artıq əsl mənada dəstəkdir. Jurnalist öz fəaliyyətində faktlara əsaslanmalıdır. Bunları açıqlamaq üçün jurnalistə normativlər də kömək edir. Jurnalist öz yaradıcılıq fəaliyyətini bir neçə növə bölməlidir: aktual və maraqlı mövzu axtarıb tapmaq, onu faktlarla əsaslandırmaq, auditoriyanın diqqətini cəlb edib qoru-maq, qərəzsiz və dəqiq informasiya vermək, etik normalara riayət etməkdir.[18, s.31] ABŞ TV kanallarında tamaşaçıların böyük hərflə GOD- Allah adlandırdıqları Heraldo River, Op-re Uinfri, Fil Donahyu, Sami Rafael, Con Karson, Arsenio Holl, Kronkayt kimi teleaparıcı-lar heç vaxt efirdən öz mövqelərini bildirmirlər. Rusiyanın “İzvestiya” qəzetinin köşə yazarı, teletənqidçi İ.Petrovskaya Kronkayt haqqında bir məqaləsini belə adlandırıb: “Hamının inandığı adam”.[29] Bu məqalədə göstərilir ki, tamaşaçıların Allah adlandırdığı Kronkayt 30 illik təcrübəsində yalnız bircə dəfə telekompaniyanın müdriyyətindən öz şəxsi mövqeyini bildirməsini xahiş edir. Və Vyetnam müharibəsinin qızğın çağında Kronkayt Amerika ta-maşaçılarına bu müharibə barədə öz mövqeyini ifadə edərək ABŞ administrasiyasının bu iş-ğalçılıq siyasəti ilə dünya ictimaiyyyətinin gözündən düşəcəyi proqnozunu verir. Həmin ax-şam ABŞ prezidenti müşavirə edir: “Əgər biz Kronkaytı itiririksə, deməli orta amerikalını itiririk” ... və bu sözlər Birləşmiş Ştatların Vyetnamdan çəkilməsinə işarə də hesab oluna bilərdi.[23, s.158]

Yenə da CNN-in digər bir məşhur jurnalisti Larri Kinqi yada salaq. L.Kinq heç vaxt res-pondentə “hücum” etmir, onu mütəntiq sorğu-sualına deyil, tamaşaçını maraqlandıran sual-lara cavab verməyə sövq edir. Rusiyada “Kurs” atom sualtı gəmisinin Barens dənizində bat-ması ilə bağlı prezident Vladimir Putinə verdiyi “Gəmiyə nə olmuşdur?” kimi bir sualda tən-qidçilər qərəz görmüşdülər. Çünki, batan bu gəmi əhvalatı haqqında dünya ictimaiyyəti xeyli informasiyaya malik idi və belə halda Rusiya prezidentinin dərdinə şərik olmaq- empatiya imici yaratmaq əvəzinə L.Kinqin “Gəmiyə nə olmuşdur?” sualında açıq ironiya çaları hiss olunurdu. Elə ona görə də hazırcavab V.Putin aparıcının ironiyasına ironoya ilə cavab verir: “Gəmi batmışdır! Vəssalam”. L.Kinq sualındakı qərəzi dərhal anlayır və özünün peşəkar taktikasına keçir.[14, s.271-272]

Jurnalistin qərəzsizliklə bağlı aşağıdakı öhdəlikləri mövcuddur: KİV zövq, fikir və təklif-lərə cavab və səs verməklə yalnız bütöv auditoriyaya xidmət edir. Amerikanın “Washington Post” nəşri digər doktrinalar kimi qərəzsizliyə də xüsusi önəm verir. Qəzetin öz fəaliyyə-tində

müəyyənləşdirdiyi əsas baxışlar sırasında bu doktrina da yer alır: “Bizim qərəzsizlik və ədalətlilik imici qazanmış qəzetimizin nüfuzuna xələl gətirə biləcək siyasi aksiyalarda, ictimai hərəkatlarda, nümayişlərdə və digər işlərdə fəal iştirak etməkdən çəkinirik. Bu qay-dalar əməkdaşların qohumlarına şamil edilmir, ancaq etiraf etmək lazımdır ki, onların xid-məti vəziyyəti ictimai işlərdə iştirakı ən azı bizim nüfuzumuza xələl gətirə bilər. Əməkdaşın qohumları və ailənin digər üzvləri ilə işgüzar və peşə əlaqələri şöbə müdirlərindən gizli olmamalıdır”. “Washington Post” qəzetinin jurnalistləri və redatorları qərəzsizlik prinsipini əsas götürürlər. Obyektivlik barədə müsahibələr sonsuza qədər davam edə bilər, lakin qərəzsizlik konsepsiyasını jurnalistlər və redaktorlar həmişə anlaya və qəzetin səhifələrində həyata keçirə bilərlər. [30, s.46-51]

Bəzən bu doktrinanın pozulması böyük problemlərə, hətta dövlət çevrilişi və s. bu kimi siyasi məsələlərə də gətirib çıxara bilər. Buna misal olaraq Rumıniyanı göstərə bilərik. Belə ki, 1989-cu ildə beynəlxalq xəbər qaynağı CNN televiziyası Rumıniya dövlət başçısı Niko-lay Cauşeskunun mitinq meydanında onun əleyhinə çıxan əhalini gülləbaran etdirərək on minlərlə insanın ölümünə səbəb olmasını bütün dünyaya bildirdi. Bütün dünyada bu xəbər qarşısında nifrət dalğası yaratdı və nəticədə Çauşeskular (özü və yoldaşı) edam edildi. Son-ralar mitinq meydanında ölənlərin sayının bir neçə yüz olduğu öyrənilsə də, informasiyanın və məzmunun gücü çoxdan Rumıniyada bir dönəmi sona çatdırmışdı.[6, s.131]

Özəl sektor ictimai sektorun bütün tərəflərini, bütün istəklərini nəzərə almağa məh-kumdur. İctimai maraq isə bizi düz, dəqiq, vicdanlı, tərəfsiz, qərəzsiz olmağa məcbur edir. KİV-in məhz bu parametrlərdən fəaliyyətini qanunlardan çox etik normalara xüsusi diqqət tənzimləyir. Jurnalistin peşə etikası onun fəaliyyət mexanizminin tərkib hissəsidir. Məsələn, qərəzsizlik, vicdanlılıq və dəqiqlik kimi etik normalar bəlkə də qanunlardan əvvəl müəy-yənləşmiş və formalaşmışdır. Bir misal üzərində dayanaq: ABŞ-da qərəzsizlik jurnalistika peşəsinin doktrinası səviyyəsinə yüksəldilmişdir. 1930-cu illərdən etik norma kimi qəbul edilən qərəzsizlik 1949-cu ildə doktrina səviyyəsində kütləvi informasiya vasitələrinin fəaliyyət mexanizmi kimi rəsmiləşdirilmişdir.

“Qeyd edək ki, peşə etikasının qərərsizlik kimi doktrinası müəyyən mənada jurnalistin ziyanına işləyir. Bir az dəqiq desək qərəzsizlik normasına görə jurnalistin informasiya materialında öz mövqeyi olmur, digər tərəfdən ünvanına irad deyilən tərəfin də cavab şansına şərait yaradılır. Bu keyfiyyətlər əslində materialı dişsiz edir, onun təsir qüvvəsini azaldır. Lakin biz uduzmağı da bacarmalıyıq. Mövqelərin balans prinsipi ilə əks etdirilməsi vicdanlılıq prinsipini təmin edən ciddi keyfiyyətdir”.[14, s.135]

“BJF hələ 1954-cü il aprelin 25-28-də qəbul etdiyi “Jurnalistlərin davranış prinsipləri haqqında bəyanat” adlı sənəddə jurnalistin həqiqətə söykənməsi, mənbəyi məlum olmayan

informasiyadan imtina etməsi, sənədləri saxtalaşdırmaması, informasiyanı vicdanlı üsulla əldə etməsi, düzgün olmayan informasiyaya görə təkzib vermək mədəniyyəti, konfidensial informasiya mənbəyini gizli saxlamağı bacarması, cinsinə, dininə, dilinə, milliyyətinə və s. görə insanlar arasında ayrıseçkilik qoyulmaması plagiatlıq, faktların qəsdən təhrif edilməsinə, təhqirə və böhtana yol verilməməsinə, materiala görə rüşət almamaq və s. məsələləri peşə etikasının xüsusi maddələri kimi qəbul edilmişdir. Dünya praktikası bu gün sərt qanunlarla bərabər bu əxlaq normalarını da ciddi şəkildə nəzərə alır".[14, s.135]

Ukraynada qərəzsizliyin pozulmasına aid hadisəyə diqqət yetirək. 1991-ci ildə Ukrayna müstəqillik qazandıqdan sonra Krım vilayəti özünü Muxtar Respublika elan etdi. Bu vilayət əvvəllər Rusiyanın tərkibinə daxil olub və 60-cı illərin ortalarında SSRİ rəhbərliyinin qərarı ilə Ukraynaya verilib. 1994-cü ildə Krımın əhalisi Muxtar Respublikanın Ali Sovetinə öz nümayəndələrini seçdi. O zamandan bəri Krım parlamenti Ukrayna parlamenti ilə kəskin münaqişədədir. Əsas problem budur – Muxtar Respublika ilə mərkəz, yəni Krım və Ukrayna parlamenti arasında hakimiyyət fərqindən, Ukrayna və Krım qanunlarından üstün tutulma-sından narazıdırlar. 1995-ci ilin may ayında Krımın "Cənub kuryeri" qəzeti "İnananlar mü-qəddəsdirlər" başlığı altında bir məqalə dərc etdi. Məqaləni həftə ərzində Ali Sovetdə baş vermiş hadisələri şərh etmək məqsədilə qəzetin parlament müxbiri yazmışdı. Həmin həftə ərzində baş vermiş ən əlamətdar hadisə isə 47 deputatın öz həmkarlarına Ukrayna qanun-larına uyğun şəkildə işləmək çağırışı olmuşdu. Müəllif soruşur: "Yuxarıda sadalanan vəzifə-lərin hansı Krım deputatları tərəfindən həyata keçirilir?". Sonra cavab verir: "Heç biri. De-putatlar qazanmadıqları pulları almaqla öz prinsiplərini pozurlar". Daha sonra müəllif nə-ticə çıxarır: nə qədər ki, Krımı belə siyasətçilər idarə edir, Ukrayna parlamenti bu "beşinci kolon"a heç bir əlavə səlahiyyət verməyə bilər. Məqalə çapdan çıxan kimi, deputatları "beşinci kolon" adlandırdığına görə, Krım parlamenti onun müəllifini akkreditədən məhrum etdi. Deputatlardan biri bu məqaləni öz şərəf və ləyaqətinə təhqir hesab edərək jurnalisti məhkəməyə verdi. Krım Azad Jurnalistlər İttifaqı bəyanat verdi və jurnalistin akkreditəsinin ləğv olunmasını söz azadlığı hüququnun pozulması kimi qiymətləndirdi.

Müasir dünya televiziyasının böyük bir hissəsi manipulyasiya rolundan imtina etmiş və etməkdədir. Məsələn, müasir Qərb televiziyasının əsas nəzəri konsepsiyalarından birini qə-rəzsizlik doktrinası təşkil edir. Uzun müddət ideoloji kanonlarla fəaliyyət göstərmiş kom-munist rejimli ölkələr üçün bu nəzəriyyə rejimin süqutundan sonra da anlaşılmaz görünür. Rusiyada televiziya nəzəriyyəçilərindən olan V.V.Yeqorov Qərbin qərəzsizlik doktrinasını qəbul etməkdə çətinlik çəkdiyini açıq şəkildə vurğulayır.[25, s.29]

"NBC news" televiziyası öz prinsiplərində əməkdaşlarından tələb edir ki, "ziddiyyətli vacib ictimai problemi işıqlandırarkən bir tərəfin fikrindən sonra digər tərəfin də əks fikrini deməsinə

imkan yaradılmalıdır. Yayım təşkilatı bu doktrinanın tarazlıq tələbini yerinə ye-tirmək üçün vasitələr axtarıb tapmağa borcludur”.[23, s.220]

Habelə, “NBC news”-un siyasəti əməkdaşlarından tələb edir ki, “ziddiyyətli əks rəyləri həmin proqrama daxil etsin., əgər bu mümkün deyilsə, onda həmin seriyadan olan proqram-larda təqdim etsin”.[23, s.220] Qərəzsizlik televiziya jurnalistinin çox prinsipial vəzifəsidir.

**Vicdanlılıq.** Vicdan insan davranışının ən qədim tənzimləyicilərindən biridir. Borc, şərəf, ləyaqət hissi ilə barabər öz qarşısında, cəmiyyət qarşısında öz əxlaqi məsuliyyətini dərk etməyə imkan verir. Vicdan insanın öz daxili aləmini tabe etdiyi əxlaqi məhkəmədir. Vicdan yüksək əxlaqi instansiyadır, onsuz əxlaqı şüurun tam dəyərli işi mümkün deyil. Gizli kamera, səs yazıcı vasitələrdən istifadə nə qədər qadağan olunsa da, hələ ki, jurnalistlər bunsuz keçinə bilmirlər. Lakin informasiya toplamaq naminə bu üsullara əl atan jurnalist normativ sənədlərə əməl etməkdən başqa, vicdanının səsini də dinləməyi bacarmalıdır.

Jurnalistikanın bütün doktrinalarında olduğu kimi vicdanlılığa da əməl edilməsi məsələsi bir çox beynəlxalq təşkilatların daim gündəmində olan problemlərdəndir. Belə bir təşkilat-lardan biri də Beynəlxalq Jurnalistlər Federasiyasıdır (BJF). Bu təşkilat 1926-cı ildə yaran-mışdır. Yarandığı ilk günlərdən etibarən jurnalistlərin peşə etikasına ciddi riayət etmələrini vacib şərt kimi qoymuşdur. Hələ 1939-cu ildə Bordo şəhərində keçirilən yeddinci konq-resində jurnalistlərin professional vicdanı kodeksinin mətni təsdiq edilmişdir. Mətndə jurna-listlərin vicdanlılığı, məsuliyyəti, faktlara və insanlara hörmətlə yanaşması ön plana çəkilir.

Vicdanlılıq da peşə etikası kodekslərində və normalarında geniş müzakirə olunanlardan-dır. “Hakimiyyət adamlarına da, hakimiyyətə can atanlara da eyni nəzakət, eyni vicdanlı mü-nasibət tələb edən peşə etikası habelə, gərgin iş adamının vəziyyətini, vaxtını da nəzərə al-mağa çağırır. Hətta məmurun bu vəziyyətinin xeyli dərəcədə nəzərə alınmağındandır ki, jur-nalistikada informasiya mənbəyi olan hakimiyyət adamına axırıncı şans kimi və axırıncı jur-nalist tədbiri kimi tətbiq olunan “yorma” üsulu- respondentlə əvvəlcədən razılaşdırılmamış “yoxlama” üsulu tətbiq edilməkdə və özünü doğrultmaqdadır. Deməli, qanunun verdiyi hü-quqi etik norma lap sonuncu tədbir kimi istifadə etməyi məsləhət görür”.[14, s.129-130]

Vicdanlılıq KİV-in müdafiəsiz adama daimi, müntəzəm hücumlarını bəyənmir. Vicdan-lılıq təkcə jurnalistin yazılı nitqində deyil, sifahi sorğularında, teleproqramlarda da özünü göstərir. Məsələn, oyun şoularına, müsabiqələrə, tok-şoulara dəvət olunmuş adamlar özlərini diskomfort vəziyyətdə, təhqir olunmuş hiss etməməlidirlər. Tok-şoularda emosiyaların coş-ması proqramın reytinqinin qalxmasına təsir edə bilər. Lakin bu emosiyanın jurnalistdən qalxması yolverilməzdir. Oyun şoularında zarafat, əyləncə elementləri xüsusi ehtiyat tələb edir. İştirakçılar efirdən sonra özlərini təhqir olunmuş hesab etməməlidirlər. Onlara əvvəl-cədən zarafatın, əylənənin xarakteri və mütləq olacağı barədə xəbər verilməlidir.

“Dünyanın nüfuzlu qəzetlərinin və telekanallarının avtoritetini, tirajını və reytinqini qal-dıran amillər sırasında onların hər birinin özünəməxsus, lakin dünya praktikasına söykənən etik normalarının mövcudluğu xüsusi yer tutur. Bu mənada “Washington Post” qəzetinin etik normaları, “New York times”in peşə etikası ilə bağlı konsepsiyası, “Business Week” jurnalının peşə etikası və xüsusi kodekslərin təcrübəsinə diqqətlə yanaşmaq olar. Məsələn, “Washington Post” qəzeti özünün etik normalarını ifadə edən sənədində göstərir ki, bu qəzet həqiqətən təsdiqində cox ciddi, fəal məsuliyyət hissi və qərəzsiz, vicdanlı yanaşmaq metodunu üstün tutur. “Washington Post” hər cür baxışları əks etdirməkdən çəkinmir, heç kimə, heç nəyə üstünlük vermir. Qəzetin işçiləri hər bir tapşırığa vicdanla və məqsəd güdmədən yanaşmalıdır. Əks nöqteyi-nəzər həmişə nəzərə alınır. Hər hansı bir şəkildə qəzetin səhifələrində mənafeyinə toxunulan, ünvanına irad deyilən hər kəsə cavab şansı verilir. Qəzetə öz nöqteyi-nəzərini təqdim etmək istəyən adamların bu arzusunun motivləri öyrənilməlidir. Onlar xeyirxah olduğu kimi, pis niyyət də güdə bilərlər”. [14, s.139]

Qeyd edək ki, “Washington Post” 1933-cü ildən Yucin Meyerin ailəsinə məxsusdur. Y.Meyer hələ o vaxt qəzeti əldə edən kimi onun səhifələrində bu prinsipləri dərc etdirmişdir: qəzetin başlıca missiyası Amerikada və dünyada baş verən düzgün informasiyanı oxucuya çatdırmaqdır; yeniliklər haqqında məlumat verərkən qəzet vicdanlı cəmiyyətdə qəbul edilən ədəb qaydalarını gözləməlidir; qəzetdə dərc olunan materiallar həm cavanları, ham də yaşlı-ları nəzərə alır; qəzet sahibinə deyil, oxuculara və cəmiyyətə xidmət etməlidir. Yucin Meye-rin “Washington Post” qəzetində yaratdığı prinsiplərin hamısı vicdanlı, ədalətlidir. Xüsusilə, onun “qəzet sahibinə deyil, oxuculara və cəmiyyətə xidmət etməlidir” prinsipi çox maraq-lıdır. Meyer təcrübədən hiss etmişdir ki, qəzet öz sahibinin diqtəsi ilə fəaliyyət göstərsə, icti-mai maraq faktı nəzərə alınmayacaq və beləliklə “Washington Post” oxucusunu itirəcəkdir. Y.Meyer kommersiya və cəmiyyət qarşısında məsuliyyət mexanizmindən çıxış edərək gözəl bir ənənənin başlanğıcını qoymuşdur. “Sahibinə deyil, oxucularına xidmət edən” bu qəzet hazırda təkcə reklamdan milyardlarla dollar pul qazanır. Minlərlə personalın çalışdığı qəzet öz reytinqini həqiqətə sədaqət, cəmiyyət, ictimai maraqlara xidmət, prinsipi ilə saxlayır və inkişaf etdirir. [14, s.140], [60]

Geniş yayılmış metodlardan biri də kiminsə istəyinə uyğun olaraq yazı yazılması və bu-nun müqabilində həmin KİV-ə və jurnalistə, müxbirə müxtəlif hədiyyələrin təqdim olunma-sıdır. Yaxud da, kimsə yazı yazılmadığı halda da bu hərəkətə yol verə bilər və bununla da dolayısı yolla jurnalisti onun istəyinə uyğun davranmağa sövq edə bilər. Lakin vicdanlılıq doktrinasına əməl edən media qurumları və jurnalistlər bahalı hədiyyələrə aldanmır, beynəl-xalq prinsip və doktrinalara sadiq qalırlar. Türkiyədə baş vermiş bir hadisəyə diqqət yetirək:

2008-ci ilin fevralında informasiya agentlikləri “Türkiyəli jurnalistlər Qətər əmirinin ba-halı hədiyyələrini geri qaytardılar” başlığı ilə, ilk baxışda, çox adi bir xəbəri medianın gün-dəminə daşıdılar. Bu xəbərdə deyilirdi ki, Türkiyə prezidenti Abdulla Gülün Qətərə səfəri zamanı nümayəndə heyətinin üzvlərinə və media mənsublarına qiyməti 5 min ABŞ dolları dəyərində qol saatları hədiyyə edilib. Hədiyyənin “Vacheron Constantin” və “Omega Seamaster” markalı bahalı saatlar olduğunu hava limanında öyrənən jurnalistlər belə hədiy-yələri qəbul etməyin iş prinsiplərinə uyğun olmadığını bildirərək saatları geri qaytarıblar. Sözügedən xəbərin diqqət çəkən bir neçə əsas özəllikləri var ki, bunlardan biri bahalı hədiy-yələrin geri qaytarılmasıdır. Həmçinin, bu məqam jurnalistlərin peşəkar və vicdanlı davra-nışlarını doğrulayır və “CNN Türk”, “NTV”, “SKY Türk” telekanallarının, “Milliyet”, “Sabah”, “Vatan”, “Bugün”, “Referens”, “Zaman” və “Yenişafak” qəzetlərinin üzünü ağar-dır. Başlıca özəlliklərdən biri də həmin xəbərə polemik dad qatan bir faktdır- radikal islamçı mövqedə dayanan “Vakıt” qəzetinin əməkdaşı hədiyyəni təhvil verməkdən boyun qaçırır və həmkarlarını öz dindaşları olan ərəblərə qarşı düşmənçilikdə suçlayır... [17, s.27]

**Ədalətlilik.** Beynəlxalq jurnalistikada doktrina kimi qəbul olunan prinsiplərdən biri də ədalətlilikdir. Bütün sahələrdə olduğu kimi, jurnalistikada da ədalətli davranmaq, hər bir jurnalistin ən mühüm vəzifələrindən biridir, borcudur. Əks qütblərdə dayanan adamların öz fikirlərini bildirmək, ünvanına irad deyilmiş şəxsin cavab hüququ həm də əvvəl danışmış adamın danışıq müddətini nəzərə alaraq balans sözü ilə ifadə olunan bir keyfiyyətlə həyata keçirilir. “Balans- ədalətlilik prinsipinə uyğun obyektiv jurnalizmin şərtlərindən biri olaraq KİV-in fəaliyyətində xüsusi məqsəd güdməməyin qarantıdır. Bülə güman olunur ki, konfliktli situasiyalar barədə informasiya verərkən bu prinsipin qorunması hadisəyə müxtəlif münasibətlərin bildirilməsini zəruri edir”. [27, s.23] Yalnız belə məqamda tərəflər KİV-in qərəzsiz olduğunu, ədalət prinsipi ilə fəaliyyət göstərdiyini təsdiqləyir.

Ədalətsizlik təkcə jurnalistlərin və redaksiyaların insanlara, aponentlerə qarşı davranışın-da deyil, həmçinin ölkələr, təşkilatlar arasında informasiya ötürülməsində və mübadiləsində də baş verir. Belə ki, güclü dövlətlər informasiya ötürülməsi zamanı ədalətsizliyə yol verir, zəiflərin informasiya almaq və ötürmək hüquqlarını pozmuş olurlar. Əslində ən çox infor-masiya idxal edən tərəf gücsüz, az inkişaf etmiş və ya inkişaf etməmiş ölkələr olsa da, bu in-formasiyaların ümumilikdə ədalətsizliyə gətirib çıxardığını söyləmək mümkündür. Günlük həyatımızı informasiyasız təsəvvür etmək qeyri-mümkündür. Beynəlxalq mediada ortaya çı-xan informasiya yayımının qeyri-tarazlığı, biryönlülüyü nəyi ifadə etməkdədir? “Dünya sə-viyyəsində informasiyanın ötürülməsi texniki baxımdan inkişaf etmiş ölkələrdən inkişaf et-məkdə olan ölkələrə doğru həyata keçirilməkdədir. Bundan başqa, eyni və bənzər dilləri da-nışan və mədəniyyətləri oxşar olan, tarixi köklərlə bir-birinə bağlı olan ölkələr arasında in-formasiya alış-

verişi çox ikən, fərqli keçmişi olan ölkələr arasındakı informasiya ötürülməsi azdır. Bir başqa sözlə, məlumat alış-verişi, informasiyanın yayılması baxımından gözəçar-pan xüsusiyyət, dünyanın müxtəlif bölgələrindən biryönlü olaraq bir axının hakimiyyəti-dir". [49, s.25] İnkişaf səviyyəsi aşağı olan ölkələrdən inkişaf etmiş olan ölkələrə doğru isə informasiya axını cüzi dərəcələrdə olmuşdur. Bunun da müxtəlif səbəbləri vardır. Məsələn, iqtisadi fərqlik, texnoloji üstünlük v.s. bu səbəblərdəndir. Bütün bunlar beynəlxalq aləmdə jurnalistika sahəsində də ədalətsizliyin geniş vüsət aldığının göstəricisidir.

Dünyada informasiyanın yayılması mövzusundakı ən önəmli bərabərsizlik və ədalətsizlik hansı xəbərin haralara çatdırılacağına inkişaf etmiş bir neçə ölkənin informasiya vasitələ-rinin rəhbərləri tərəfindən qərar verilməsidir. Başqa sözlə, "Üçüncü dünya" ölkələrinin dün-yada baş verənləri başqa ölkələrin gözü və seçiciliyi ilə izləməsidir. Qlobal iqtisadi sistemin bərabərsizliyi əsasına dayanan informasiya axınındakı qeyri-taraz və bir yönlü hal çoxyönlü asılılığın əmələ gəlməsinə səbəb olmaqdadır.

Beynəlxalq xəbər agentlikləri müxbirlərinin dünyaya yayılmasına baxdıqda inkişaf etmiş ölkələrin üstünlüyünü aşağıdakı rəqəmlər açıqca ortaya qoymaqdadır:

34% – Şimali Amerika; 28% – Avropa; 17% - Asiya və Avstraliya; 11% – Latın Amerikası; 6% – Qərbi Asiya; 4% –Afrika. [40, s.26-27]

"Beynəlxalq kütləvi informasiya vasitələrində yer alan xarici xəbərlərin məzmunu haqqında inkişaf etmiş ölkələrdə həyata keçirilən araşdırmalarda, ümumi olaraq xəbərlərin aşağıda sıralanan ölçülərə görə seçildikləri ortaya çıxmışdır.

Mənfilik (negativity); İdeoloji – məkani yaxınlıq (*ideological and local proximity*); Seç-gin qaynaqlar (*elite sources*); Seçgin ölkələr (*elite countries*); Seçgin şəxslər (*elite actors*).

Birinci ölçü daha çox az inkişaf etmiş ya da inkişaf etməkdə olan digər ölkələri yaxından maraqlandırmaqdadır. Çünki, bəhs edilən ölkələrlə bağlı xəbərlərin dəyərləndirilməsində mənfilik ilk ölçü sayılmaqdadır". [37, s.44] Bu, bir növ qeyri-taraz, ədalətsiz informasiya seyrində asılı tərəf olaraq onsuz da mənfi təsir altında qalan gücsüz ölkələrə vurulan digər bir zərbədir.

Türkiyəli alim İlkər Bıçaqçı bir yönlü informasiya məfhumu haqqında belə düşünür: "Xü-susilə KİV-lər ilə həyata keçən və qaynağının müəyyənləşdirici olduğu informasiya növü-dür. Texnoloji, insan qaynağı (əmək gücü) və sərmayə kimi fiziki təchizata sahib olan me-dia qrupları qarşısında hədəf mövqeyindəki şəxslərin bu prosesdə iştirakı məhdut və dolan-baclıdır. Mənşəyinin hegemonluğuna dayanan bir tərəfli informasiya seyri, iştirakçı və de-mokratik anlayışın bərqərar olmasına izin verməz". [34, s.30-31]

“İnkişaf etmiş ölkələr informasiya texnologiyası monopoliyasını əllərində tutmaqdadırlar. Bu səbəbdəndir ki, xəbərlərin biryönlü – qeyri-bərabər seyri Qərbin, sərmayənin, inkişaf et-miş ölkələrin tərəfindədir və informasiya seyri qeyri-taraz, ədalətsiz və Qərb yönümlüdür”. [43, s.66]

İnkişaf etməmiş ölkələr ancaq inkişaf etmiş ölkələrin hegemoniyası altında informasiya prosesində yeralma məcburiyyətində qalmışdırlar. Məsələn, 1-ci və 2-ci Dünya müharibələ-rindən sonra Reuters, Havas və Wolff xəbər agentlikləri ortaya çıxan informasiya boşluğunu doldurmaqla birlikdə, dünyanı öz xəbər bölgələri halında bölərək qeyri-taraz informasiyada rol oynamışdırlar. [35, s.49] Dünyada televiziya proqramlarının alqı-satqısına, ölkələr arasında yayılması nisbətinə baxdıqda yenə də biryönlü axının varlığını bariz şəkildə görürük. Bu mövzuda qeyri-bərabərliyi ilk dəfə UNESCO görmüş və 1973-cü ildə bünövrəsini qoyaraq 1974-cü ildə nəşr etdiyi bir araşdırmayla problemə aydınlıq gətirmişdir. UNESCO araşdırmasında televiziya proqramı seyrinin böyük sənaye ölkələrindən inkişaf etməkdə olan ölkələrə doğru biryönlü axın şəklində olduğunu sübuta yetirmişdir.[42, s.79-80] Analoji araşdırmalar fərqli zamanlarda də aparılmış, nəticə çox cüzi fərq xaricində eyni olmuşdur.

Məlumat axınındakı ədalətsizlik gələcək dünyaya mənfi yöndə təsir edəcəkdir. Elm ada-mı Schramm “İnkişaf etməkdə olan ölkələrdə məlumatın rolu” adlı məqaləsində bu vəziyyə-tə toxunur. Dünyanın müxtəlif bölgələri arasında fərqli bir informasiya axını vardır: “Qlobal dünyada məlumat bərabər yayılmamaqdadır. İnkişaf etmiş ölkələr, digər ölkələrə nisbətən daha yüksək səviyyədə məlumatlana bilməkdədir. Bu vəziyyət mövcud doğruların bilinmə-məsinə və ya dəyişdirilməsinə yol açmaqdadır.”- deyən Schramm 1961-ci ildə bir ayda beş qitə üzrə 13 fərqli ölkədə apardığı araşdırmada informasiyanın daha çox ABŞ, Sovet İttifaqı, İngiltərə və Fransa olmaqla dörd ölkədən qaynaqlandığını göstərmişdir.[38, s.76-77]

Bunlardan əlavə beynəlxalq jurnalistikada **dəqiqlik** və **simvolik katarsis doktrina** da xüsusi yer tutur. Dəqiqlik dedikdə, jurnalistin hazırladığı materialdakı faktların dəqiq olması, real olması nəzərdə tutulur. Yəni, baş verən hadisə olduğu kimi təqdim olunmalıdır. Yeri gəldikdə isə jurnalist dəqiqliyə əməl etmək üçün mütləq sənədlərdən, yazılı faktlardan da istifadə etməlidir. Yazıda yol verilən qeyri-dəqiqlik həmin materialın düzgün olmaması ilə nəticələnə bilər ki, bu da sonda auditoriya tərəfindən tez anlaşılacaq. Belə təqdirdə jurnalist özünə qarşı mənfi münasibət formalaşdırmış olacaq. Həmçinin jurnalistin və onun çalışdığı redaksiyanın, media orqanının da nüfuzu şübhə altına düşəcək. Dəqiqliyə əməl olunmaması eyni zamanda böyük problemlərə də yol aça bilər. Bunların baş verməməsi üçün jurnalist materialı hazırlayarkən bütün faktların dəqiqliyinə əmin olmalı, düzgün araşdırmalı və ən əsası etibarlı mənbələrdən informasiya toplamalıdır. Jurnalist baş verən hadisələrin təsvirini dəqiq və konkret faktlar əsasında verməyə borcludur. O, yalnız həqiqəti yazmalı, faktların təhrif olunmasına yol

verməməli, onları özəl maraqlar naminə seçib istifadə etməməlidir. Jurnalistin ali məqsədi həqiqətdir, obyektivlik isə onun əsas professionallıq meyarıdır.

Fakta təməllilik bizdən dəqiq olmağı tələb edir. Dəqiqlik deyəndə bir tərəfdən fakt materialının (şəxs adları, xüsusi adlar, rəqəmlər, informasiya mənbələri) dəqiq verilməsi anlaşılırsa, dirəg tərəfdən press-lerizlərə və mənbələrə düzgün istinad etmək, insanların baxış-larını dəqiq əks etdirmək nəzərdə tutulur. Qeyri-dəqiqlik oxucunun gözündə qəzetin çəkisini salır, onun səriştəsizliyinin göstəricisinə çevrilir. Başlıcası isə, oxucularla jurnalistlər arasın-da inamın qırılmasına gətirib çıxarır. Elə buna görə də dəqiqlik bizim öz əməyimizə və oxu-cuya verdiyimiz qiymətin ən vacib göstəricilərindən biri olaraq jurnalistin peşə etikasında mühüm yerlərdən birini, bəlkə də birincisini tutmalıdır.[4, s.48]

Beynəlxalq jurnalistikanın daha bir önəmli doktrinası elmi-nəzəri fikrin tədqiqat ob-yektinə yenicə çevrilməyə başlayan simvolik katarsis doktrinadır. Bu doktrina xüsusilə, tele-viziya tamaşaçısını stresə sala biləcək reportajların xarakterini nəzərdə tutur. Katharsis – yu-nan sözü olub təmizlənmə – intellektual təsir vasitəsilə ruhun təmizlənməsi anlamını ifadə edir. Antik fəlsəfədə işlədilən bu terminlə müəyyən bir stresə səbəb olacağı hadisənin tele-viziyada – xüsusilə, xəbərlər proqramında istifadəsilə tamaşaçı təsəvvüründə yaranan pro-seslər məcmusunu ifadə edir: təqdim olunan stress xarakterli reportaj, məsələn, qətl hadisə-sinin təsviri tamaşaçıda əvvəlcə özünütətbiqlə bağlı xof bir azdan hadisəyə təəssüf hissi ilə əvəz olunur. Təəssüf hissi belə hadisələrdən uzaq olmaq, pis əməllərə qatılmamaq fikrini formalaşdırır. Telerepotajlardan birində Londonun bir mərkəzi küçəsində gündüz vaxtı avto-mobilin bir atı vurub öldürməsi təsvir olunur. Özlüyündə maraqlı hadisədir: şəhərin mərkəzi, at, avtomobil, qəza. Əsl telesujet materialıdır. İlk baxışda hər şey yerindədir. Lakin reportaj-da həm də belə bir məqam saxlanıb: avtomobilin vurub yerə sərdiyi və can verməkdə olan atı yoğun bir məftilə bağlayıb yük avtomobilinin arxasına qoşaraq sürüyürlər. Asfalt qana boyanıb, at can verə-verə sürüdülür. Tamaşaçı üçün ağır səhnədir, reportyorun yaratdığı na-rahatlıq tamaşaçını uzun müddət stresə salır.

Bu tipli xəbərlərin televiziyada tənzimi də mübahisə obyektidir. Lakin nəzərə almaq la-zımdır ki, auditoriyanın, xüsusilə, də televiziya tamaşaçısının bəd xəbərlərə marağı böyük olur. Qəzalar, zəlzələlər, yanğın və sel daşqınları, müharibə, üsyan, kütləvi aksiyalar barədə informasiyalar tamaşaçıda təkcə dərdə şərik çıxmaq deyil, həm də “yaxşı ki, bu hadisənin içində mən deyiləm” kimi eqoist bir kifir oyadır. Və bir halda ki, tamaşaçının bu tipli ha-disələrə müxtəlif rakurslardan marağı var və bir halda ki telejurnalistlər bu marağı hiss edir-lər, deməli, bazarın diqtəsi öz rolunu oynayacaq. Əlac problemin öyrənilməsində və bu tipli hadisələrin təqdimində ehtiyatlılığın, vicdanlılığın tətbiqinə nail olmaqdır.

Göründüyü kimi, beynəlxalq jurnalistikada doktrinalarla bağlı uğurlarla yanaşı, həm də problemlərlər mövcuddur. Bu problemlər və çətinliklər yalnız jurnalistlərdən və KİV-dən ibarət deyil, belə ki, onların sərbəst və düzgün fəaliyyət göstərməsinə qarşı da baş verir. Üzə çıxan problemlərin həlli üçün bir çox işlər görülür. Bunların sırasında keçirilən müxtəlif beynəlxalq konfranslar, seminarlar, monitorinqlər və qəbul olunan sənədələr də var. Belə sənədlərdən biri də 1997-ci ildə Bolqarıstanın paytaxtı Sofiyada keçirilmiş informasiya vasitələrinin müstəqilliyini və plüralizmi dəstəkləmək üçün Avropa seminarında qəbul olunmuş və Vindhuk bəyannaməsi əsasında hazırlanmış Sofiya bəyannaməsidir. Bu sənəddə deyilir: “Biz bir daha qeyd edirik ki, mətbuatın ikili funksiyası onun ictimai maraq kəsb edən ideya və informasiyalar ötürməsində, habelə dövlət orqanlarına nəzarəti həyata keçir-məsindədir. Biz hesab edirik ki, hər cür bilavasitə və dolayısı senzura yolverilməzdir; qeyd edirik ki, kütləvi informasiya vasitələri əməkdaşları əvvəlkitək yenə də təqib, zor və işgən-cələrə məruz qalır, hədələnir, tutulub saxlanılır, həbs olunur, oğurlanır və öldürülür. Onlar həmçinin siyasi və iqtisadi təzyiqlərə məruz qalır, siyasi motivlərə görə işdən çıxarılır, on-lara qarşı qanunlar düzgün tətbiq olunmur, onların fəaliyyətini məhdudlaşdırmaq üçün əlavə qanunlar qəbul edilir. KİV-in informasiya və yenilikləri sərbəst yaymasına, dövri nəşrləri öl-kə daxilində və xaricdə yaymasına mane olmaqla bərabər, onların çap avadanlığından, radio-ötürücü sistemlərdən, internet və digər rabitə vasitələrindən istifadə etməsinə tez-tez əngəl törədirlər”.[20, s.69-70] Bəyannamədə həmçinin deyilir: “Biz mətbuat azadlığı, informasiya əldə etmək hüququ daxil olmaqla fikri sərbəst ifadə etmək hüququnu əsas insan hüquqlarından biri sayırıq ...”.[20, s.71] Sənəddə bəyan edilir ki, “sərbəst informasiya yay-maq imkanlarını genişləndirən kanallar açan yeni informasiya və kommunikasiya texno-logiyası, plüralizmə, sosial-iqtisadi inkişafa, demokratiyaya və sülhə xidmət edə bilər və et-məlidir. Daim ənənəvi KİV-nə aid edilən fikir azadlığının müdafiəsi prisipi yeni yaranan in-formasiya vasitələrinə də şamil edilməlidir; Ksenofobiya, müxtəlif etnik və dini qruplar arasında toqquşmalar Avropanın bir çox yerində sülh və demokratiya üçün təhlükə törədir...” [20, s.74-75]

UNESCO-nun jurnalistika sahəsində gördüyü işlər sırasında “Mətbuat azadlığı xartiya-sı”nı da xüsusi vurğulamaq yerinə düşər. “Mətbuat azadlğıxalqın azadlığını təmin edir. Məhz buna görə də ölkə daxilində və dövlət sərhədlərindən kənarda informasiyanın mane-əsiz hərəkəti azadlığına həsr olunmuş bu xartiyadakı prinsiplərin demokratik institutların in-kişafında və qorunmasında marağı olan bütün qüvvələrin dəstəklənməsi təqdirə layiqdir.[20, s.75-76] Xartiyada deyilir: “Müstəqil mətbuat orqanları, televiziya və radio yayımları bütün ölkələrdə azad surətdə aranıb fəaliyyət göstərməlidir; Ölkə hakimiyyəti informasiya orqan-larını heç bir iqtisadi, yaxud digər ayrıseçkiliyə məruz qoymamalıdır. Hökümət informasiya orqanları olan ölkələrdə müstəqil mətbuata çap məhsulu buraxmaq, həmçinin televiziya və radio proqramları

aparmaq üçün zəruri olan bütün materiallar və texniki vasitələr azad su-rətdə verilməlidir".[20, s.76]

**Beynəlxalq doktrinaların 4 konsepsiya dövründə tətbiqi.** Məlum olduğu kimi, jurnalistikanın 4 nəzəriyyəsi var və bu nəzəriyyələrin hakim olduğu dövrlərdə mətbuatın inkişafı da müxtəlif səpkili olmuşdur və beynəlxalq doktrinalara da eyni cür əməl oluna bilməzdi. Jurnalistika nəzəriyyələrinin formalaşma tarixini və bütövlükdə bu nəzəri konsepsiyaların öyrənilməsində ABŞ alimlərinin rolu daha çoxdur. Məşhur amerikalı sosioloq və mətbuat nəzəriyyəçiləri, habelə mətbuat tarixçiləri Fred Sibert, Teodor Piterson və Uilbur Şrammın "Mətbuatın dörd nəzəriyyəsi" kitabı bir sıra tədqiqatların nəticəsi kimi XX əsrin ortalarında meydana gəlmişdir.[28, s.40-41] Hələlik, bu kitabın ortaya qoyduğu, əsaslandırdığı 4 nə-zəriyyə özünün həm elmi, həm də praktik qiymətini indi də saxlayır. Bu kitabın mahiyyətini,  xidmət etdiyi məqsədləri, müxtəlif ölkələrdə özünü niyə müxtəlif cür göstərdiyi barədə ma-raqlı elmi mülahizələr irəli sürülür. "Mətbuatın dörd nəzəriyyəsi"nin müəllifləri sübut edirlər ki, mətbuat həmişə əhatəsində fəaliyyət göstərdiyi sosial və siyasi strukturun forma və rəng-lərini qəbul edir. Mahiyyətcə mətbuat sosial nəzarət sistemini əks etdirərək ayrı-ayrı adam-larla ictimai institutlar arasında əlaqələri tənzimləyir.

*Avtoritar mətbuat nəzəriyyəsi.* "Avtoritar modelin intişar tapmağa başladığı illəri cə-miyyətdə atanın mütləq avtoritet olaraq qəbul edildiyi patriarx ideologiyasına qədər en-dirmək mümkündür". [51] Bu, mətbuat nəzəriyyələri içərisində ən qədimidir. O, intibahın son çağındakı avtoritar üsul-idarəsi dövründə, xüsusilə, kitab çapının meydana gəlməsi ilə formalaşmışdır. Bu dövrün cəmiyyətində belə bir fikir vardı ki, həqiqət geniş kütlədən deyil, onu idarə edən və istiqamətləndirən imtiyazlı adamlardan gəlir. Hakimiyyət adamları mət-buatın hakimiyyətə məxsus olduğunu iddia edərək onu kral siyasətini həyata keçirməyə borclu sayırdılar. Mətbuatın xüsusi mülkiyyət sektoruna düşməyi çox çətin idi və xüsusi ica-zə tələb olunurdu. naşir onun fəaliyyətinə icazə verən hakimiyyətin siyasətini təbliğ etməyə məhkum idi. Hakimiyyət mətbuatın siyasətini müəyyən edir, yeri gəldikdə senzura tətbi-qindən, lisenziyanı ləğv etməkdən də çəkinmirdi. Aydındır ki, belə mətbuat özünün bugünkü anlamda olan hakimiyyətə nəzarət funksiyasını heç vaxt yerinə yetirə bilməzdi. Mətbuatı ha-kimiyyətə nökər funksiyasında qəbul edən bu nəzəriyyə XVI əsrdən başlayaraq uzun müddət öz qüvvəsini saxlamışdır. Bu konsepsiya müxtəlif ölkələrdə mətbuatın başlanğıc nöqtəsi ol-muş və bu gün də bəzi yerlərdə yaşamaqdadır. Bu nəzəriyyənin ən mürtəce mahiyyəti onun hakim dairələrin diqtəsi ilə fəaliyyət göstərməsidir; onun fəaliyyəti üçün dövlət lisen-ziyasının mütləq olmasıdır, hakimiyyət adamlarını tənqid etmək qadağasıdır; senzuranın mövcudluğudur.

Göründüyü kimi bu nəzəriyyənin hakim olduğu dövrdə mətbuatda (jurnalistikada) prinsiplərin, xüsusilə, də doktrinaların mövcudluğundan, tətbiqindən söhbət gedə bilməz. Çünki,, bu

dövrdə mətbuat dövlətin əlində idi. Digər sahələrdə olduğu kimi, burada da senzura geniş şəkildə tətbiq olunurdu, söz və mətbuat azadlığının heç bir əlaməti yox idi. Adi vətəndaşlarla yanaşı, mətbuat işçilərinə də müstəqil fəaliyyət göstərmək, öz fikrini sərbəst bildirmək hü-ququ verilmirdi. Hökümətin bu kimi tələblərinə qaşı çıxanlar isə cəzalandırılır, məsuliyyətə cəlb olunurdular. Həmin dövrdəki siyasi vəziyyətdən görünür ki, mətbuatda prinsiplərə, doktrinalara əməl edilmir, daha dəqiq əməl etməyə imkan verilmirdi.

Avtoritar nəzəriyyə dövründə informasiyanın mənbəyinin göstərilməsi hallarına demək olar ki, az rast gəlinirdi. Çünki,, qeyd olunduğu kimi söz və mətbuat azadlığı olmadığından heç bir qurum, idarə, hətta adi insanlar da sərbəst şəkildə istədikləri informasiyanı və ya şa-hidi, iştirakçısı olduqları hadisələr haqda məlumatlar verə bilməzdilər. Bu imkan əllərinə düşsəydi belə, onları mətbuat mənbə kimi istifadə edə və göstərə bilməzdi. İnformasiya işıq üzü görməzdən əvvəl mütləq hökümətin nəzarətindən, senzuradan keçməli idi. Bu dövrdə jurnalistlərin məsuliyyəti də fərqli idi. Mətbuat işçiləri məlum olduğu kimi, həqiqəti deyə bilmədiyindən və ya hadisələri, informasiyaları düzgün, bütün faktları ilə təqdim edə bilmədikləri üçün onların məsuliyyətindən danışmağa da dəyməz. Yalnız hüquqi baxımdan jurnalist məsuliyyəti mövcud idi. Bu da ki, hökümətin istəyinə uyğun olaraq həyata keçi-rilirdi. Yəni, mətbuat işçiləri və orqanları istər layiq olduqları, istərsə də layiq olmadıqları əksər hallarda məsuliyyətə cəlb olunurdular. Avtoritar nəzəriyyəsi dövründə prioritet möv-zunu mətbuat, jurnalist yox, məhz söz sahibi olan hökümət və ya sahibkar müəyyənləşdirirdi. Bəllidir ki, prioritet mövzu daha çox auditoriya toplayır. Lakin həmin vaxtlarda nəinki mətbuat işçilərinin, hətta oxucuların, auditoriyanın da seçim hüququ yox idi. Bir çox mühüm hadisələr çox vaxt təqdim olunmurdu. Müasir jurnalistikanın ən böyük problemlərindən hesab olunan şər o dövrdə də geniş yayılmışdı. Bir çox insanlar haqqında bilərəkdən yalan informasiyalar verilirdi. Əgər hökümət kimisə nüfuzdan salmaq istəyirdisə, o zaman mütləq şərə əl atırdı. Təbii ki, mətbuatın vasitəsilə. Bunun da nəticəsində insanlar arasında şayiələr yayılmağa başlayırdı. Bu isə həmin insanın nüfuzunun aşağı düşməsi ilə yanaşı, həm də onun şərəf və ləyaqətinin alçaldılmasına səbəb olurdu. Belə hal hökümətə sərf etdiyindən şərə qarşı mübarizə aparmaq doktrinası həmin illərdə işlək ola bilməzdi. Göründüyü kimi, söz və mətbuat zadlığının mövcud olmadığı bir dövrdə həmçinin qərəzsizliyin, vicdanlılığın və ədalətliliyin də yoxluğu başa düşüləndir. Jurnalist avtoritar mətbuat nəzəriyyəsi ilə idarə olunur, sərbəst fikir bildirmək, söz demək haqqından məhrum edilirdi. Jurnalist istəsə də, istəməsə də, qərəzli informasiya verməyə məcbur idi. Əksər mə-lumatlarda hökümətin qarşı çıxdığı adamlar qərəzə məruq qalırdı. Həmçinin mətbuat işçiləri vicdanla hərəkət edə bilmir, çox tez-tez ədalətsizliyə də yol vermək məcburiyyətində idilər. Həqiqəti, doğru faktı olduğu kimi auditoriyaya çatdırmaq imkanından da

məhrum idilər. Təbii ki, hadisələrin bu cür gedişi cəmiyyəti razı sala bilməzdi və avtoritar mətbuat nəzəriyyəsinə qarşı çıxanların sayı da günü-gündən artmağa başlayırdı.

*Libertarian mətbuat nəzəriyyəsi və azad iradə nəzəriyyəsi.* Avtoritar rejimin sarsılması mətbuata münasibətin dəyişməsinə və onun yeni konsepsiyasının meydana çıxmasına təkan verdi. XVII əsrin axırlarında özünü göstərən, XVIII əsrdə formalaşan, XIX əsrdə tam mənası ilə işlək modelə çevrilən yeni nəzəriyyəni tədqiqatçılar libertarian, yaxud azad iradə nəzəriyyəsi adlandırdılar. Bu nəzəriyyə mətbuatın insan və dövlət münasibətlərində avtoritar sistemin tam əksi kimi özünü göstərir.

Bu nəzəriyyə insanı yalnız idarə olunan varlıq kimi deyil, öz təbii fikri, öz düşüncəsi, özünüifadə qabiliyyəti olan, yalanı doğrudan ayıran varlıq kimi təqdim edir. Burada insana bir neçə variantdan seçmək, ayırd etmək, müstəqil qərar qəbul etmək imkanı verilir. Həqiqə-tin yalnız hakimiyyətə məxsusluğu fikri rədd edilir, onun insanın hər birinə xas olan keyfiy-yət kimi qəbulu məqbul sayılır. İnsana seçim hüququ verilir. Bu cəmiyyətdə mətbuatın yeri çox maraqlıdır: mətbuat həqiqət axtarışında insanın köməkçisinə çevrilir.

Libertarian mətbuat nəzəriyyəsinə görə KİV hakimiyyətin təzyiq, təbliğat, manipulyasiya aləti deyil, təqdim olunan faktlar vasitəsilə xalqın, cəmiyyətin hakimiyyətə nəzarət etmək və faktlara söykənərək öz fikrini, qərarını, nəticələrini müəyyənləşdirmək vasitəsidir. Ona görə də belə şəraitdə mətbuat dövlətin nəzarətindən və təsirindən çıxmalı olur. Bu nəzəriyyəyə əsasən, "Həqiqətin üzə çıxması üçün hamının səsi, ideyası eşidilməlidir. Bu səs isə ancaq kütləvi kommunikasiya vasitəsilə tirajlanır və ancaq onun köməyilə eşidilir. Deməli, liber-tarian mətbuat modeli azad ideyalar və informasiyalar bazarını yaradır. Burada istənilən çox-luq, istənilən azlıq, istənilən zəif, istənilən güclünün – hamının mətbuata əli çatmalı, ondan öz fikrini ifadə etmək vasitəsi kimi bəhrələnməlidir".[41]

Avtoritar nəzəriyyədən fərqli olaraq libertarian (azad iradə) konsepsiyasında bütün insan-lara, o cümlədən jurnalistlərə söz azadlığı, həmçinin mətbuat azadlığı verilirdi. Bununla da artıq jurnalist öz fikrini bildirmək, sərbəst araşdırma aparmaq, mülahizə və müzakirə etmək imkanı və hüququ qazanır. Təbii ki, jurnalistikanın prinsip və doktrinalarına da əməl olun-mağa başlanmışdı. Belə ki, artıq jurnalist verdiyi informasiyanın mənbəyini sərbəst şəkildə göstərə bilir, istədiyi insanları, qurumları mənbə kimi seçə bilirdi. Mənbənin göstərilməsi isə həmin məlumatın oxucular tərəfindən mütəmadi izlənməsinə, onlarda informasiyanın doğ-ruluğuna, həmçinin jurnalist və təmsil etdiyi mətbu orqana inamlarının artmasına səbəb olur-du. Əlbəttə ki, jurnalist belə vəziyyətdə öz məsuliyyətini yaxşı dərk edir, hazırladığı materia-lın doğruluğuna çalışırdı. Libertarian nəzəriyyənin hakim olduğu bu dövrdə jurnalist özünü hüquqi məsuliyyətini də yaxşı dərk edir, prinsipləri, doktrinaları pozmamağa çalışırdı. Heç bir jurnalist nahaq yerdən məsuliyyətə cəlb olunmur, məhkəmə qarşısına çıxarılmırdı. Jurna-listin öz məsuliyyətini dərk

etməsi ona şərdən qaçmasına da imkan verirdi. Yəni, mətbuat və jurnalist azad iradə nəzəriyyəsinin prinsiplərinə əsaslanırdı. Mətbuat və söz azadlığından ya-rarlanıb yalan, şayiə yazmır, insanlara şər atmır, şərəf və ləyaqətin alçaldılmasına yol ver-mirdi. Təbii ki, əks hallar da baş verirdi. Lakin başqasına şər atan mətbuat orqanları qanunla müəyyənləşdirilmiş şəkildə cəzalandırılırdı. Libertarian nəzəriyyə ilə fəaliyyət göstərən mət-bu orqan prioritet mövzu seçimində də sərbəst idi. İstədiyi hadisəni günü prioriteti etmək hü-ququ da vardı. Lakin bu gün olduğu kimi həmin dövrdə də insanların marağına daha çox marağına səbəb ola biləcək mövzular prioritetə salınırdı. Onu da vurğulamaq yerinə düşər ki, əlaqələrin geniş olmadığı, informasiya məkanının daha kiçik olduğu XVIII-XIX əsrlərdə prioritetə salınan informasiyalar əsasən yerli hadisələrdən seçilirdi. Digər ölkələrdə baş ve-rən daha mühüm hadisələrdən insanların xəbəri olmur, gec məlumat əldə edə bilirdilər. Baş-qa konsepsiyalardan fərqli olaraq mətbuatın dövlətə nəzarət vasitəsi olması, cəmiyyətin di-gər ehtiyaclarını təmin etməsi funksiyasına sahib olması ondan eyni zamanda qərəzsizliyə, vicdanlılığa, dəqiqliyə və ədalətliliyə daha çox diqqət yetirməsi tələb olunurdu. Artıq heç kəsə qarşı qərəz ola bilməzdi. Əgər kimsə özünə qarşı qərəzin olduğunu düşünərdisə və bu fakt təsdiqini tapardısa, o zaman həmin insanın da söz demək haqqı, lazım gələrdə şikayət etmək haqqı vardı. Təbii ki, jurnalist və mətbu orqan libertarian nəzəriyyəyə uyğun olaraq vicdanla fəaliyyət göstərməyə çalışırdı. Artıq bütün jurnalistlər hazırladıqları informasi-yanın, materialın dəqiqliyinə diqqət yetirə bilir, ədalətli olmağa səy göstərirdi. Əsasən özəl sektorun əlində cəmləşən o dövrün mətbuatı əvvəllər olduğu kimi istəmədiyi halda kimisə haqqında yalan, şayiə, dəqiq olmayan, qərəz dolu informasiya vermək məcburiyyətində qal-mırdı. Jurnalistlər də vicdanla fəaliyyət göstərirdilər. Bununla belə, bu konsepsiyanın da bə-zi çatışmayan cəhətləri olduğundan onu tam mükəmməl hesab etmək olmazdı.

*Mətbuatın sosial məsuliyyət nəzəriyyəsi.* İnsan taleyinə təsir etmək imkanı jurnalistdə sosial məsuliyyət hissi doğurur. Jurnalistikanı tədqiq edənlərin bir çoxu peşə etikası sistemi-nin əsaslarını “mətbuatın sosail məsuliyyəti” adlandırılan nəzəriyyədə axtarırlar. Bu nəzəriyyəyə görə mətbuat “doğru, mükəmməl, düşündürücü” olmalı, ikinci tələbə əsasən isə “kütləvi kommunikasiya vasitələri özünə ictimai müzakirə vasitəsi kimi baxmalıdır”. Sosial məsuliyyət nəzəriyyəsi XX əsrdə ABŞ-da yaranmışdır. Bu nəzəriyyənin qəbul edildiyi zaman çərçivəsində müxtəlif ölkələrdə kütləvi informasiya vasitələri haqqında qanunlar, ko-dekslər qəbul olunmuşdur. Nəzəriyyənin əsas məqsədi auditoriyanı informasiya ilə təmin et-mək və əyləndirməkdir. Faktların dügün olub-olmadığı dönə-dönə yaxlanmalıdır, informasi-yanın qaynağı dəqiqləşdirilməlidir. Nəzəriyyə sahibkarın qəzet üzərindəki hegemonluğunu sıfıra endirir. Mətbuatın libertarian – azad iradə nəzəriyyəsinin bəzi məhdud cəhətləri söz azadlığının yüksək təminatına mane olur. Belədə ABŞ-da meydana çıxan yeni bir kon-sepsiya irəli sürülür:

1942-ci ildə Birləşmiş Ştatlarda Mətbuat azadlığı haqqında Komissiya yaradılır. Bu Komissiya "ABŞ-da mətbuat azadlığına təhlükə varmı?" sualına müsbət cavab verir. Buradan da Komissiya mətbuatın cəmiyyət qarşısında məsuliyyəti və dövlətin onun işinə müdaxiləsi məsələsini irəli sürür.

Adından da göründüyü kimi bu nəzəriyyənin əsasını elə sosial məsuliyyət təşkil edir. Belə ki, jurnalistin, mətbuat orqanının digər mühüm vəzifələrlə yanaşı, məsuliyyətə də ciddi əməl etməsi vacibdir. Jurnalist informasiyanın mənbəyini göstərərkən bu işə məsuliyyətlə yanaşmalı, ictimai marağa xidmət etməlidir. Müasir jurnalistikanın əsas doktrinalarına daxil olan jurnalist məsuliyyəti doktrinası həmin dövrün əsas tələblərindən hesab edilirdi. Belə ki, jurnalist daha çox məsuliyyətli fəaliyyət göstərməyə, jurnalistikanın bütün prinsiplərinə əməl etməyə səy göstərir, öz məsuliyyətini dərk etmək, ictimai marağı şəxsi marağından üstün tutmağa çalışırdı. Mətbuatın sosial məsuliyyət nəzəriyyəsinin hakim olduğu illərdə şər atmq, şayiə yaymaq, yalan, doğru olmayan informasiya jurnalistin görə biləcəyi ən pis işlərdən hesab edilirdi. Hətta belə fəaliyyətinə görə mətbu orqanın, həmiçinin yazının müəllifi olan şəxslərin, jurnalistin və digər səlahiyyətli şəxslərin hüquqi məsuliyyətə cəlb olunduğu hallarına da rast gəlinirdi. Jurnalistə sərbəst fəaliyyət göstərmək imkanı verən söz və mətbuat azadlığının mövcud olduğu bu dövrdə prioritet mövzunu seçmək müxbir üçün rahat və asan idi. Əvvəlki illərdən fərli olaraq bu dövrdə, yəni XX əsrin əvvəllərində artıq qəzetlərin, jurnalların sayını artdığı, informasiyanın əhatə dairəsinin genişləndiyi şəraitdə qonşu ölkələrdə, hətta uzaq dövlətlərdə də baş verən hadisələri işıqlandırmaq mümkün idi. Bunun da sayəsində prioritetə salınmış həmin mühüm hadisələrdən insanların da xəbəri olurdu. Yəni, jurnalist, mətbu orqan prioritet üçün mövzu axtarışında əziyyət çəkmirdi. Təbii ki, buna sosial məsuliyyət nəzəriyyəsi də imkan verirdi. Jurnalistdən sosial məsuliyyət də tələb edən bu nəzəriyyəyə əsasən həmçinin, qərəzsizlyə də xüsusi əhəmiyyət verilməli idi. Müxbir vicdanla hərəkət etməli, hazırladığı materialda, yazdığı informasiyada ədalətsizliyə yol verməməli, dəqiqliyi təmin etməli idi. Hər hansı bir insan haqda xoş olmayan ifadələr, mənfi rəylər söyləməməliydi. Çünki, belə hallarda həmin şəxsə qarşı insanlarda pis fikir oyadar, ona qarşı qərəzli davranmış və ədalətsizlik etmiş olardı.

*Mətbuatın kommunist-sovet jurnalistikası tipi.* Marksizim özünü lap başlanğıc nöqtəsindən cəmiyyətin sinfi mahiyyəti üzərində dayanır. Xüsusilə, mülkiyyəti və mülkiyyət sahibini yalnız istismarçı rolunda görür. "Əzilən və istismar olunan" fəhlə sinfinin mənafeyi marksizmin istismarçı istismarçı siniflərə qarşı mübarizəsinin əsasını təşkil edirdi. Bu mübarizədə özünə tərəfdarlar toplamaq üçün Marksın davamçıları- xüsusilə, V.İ.Lenin partiya yaratmaq və onun proqramını, platformasını, elan etmək vəzifəsini mətbuatla reallaşdırırdı. Hələ K.Marks və F.Engels mətbuat işini əsl mənada partiya işi hesab edirdilər. Onlar hətta mətbuatın sinfi xarakterini qorumaq işini xüsusi diqqət yetirmişdilər. Bu nəzəri fikirləri inkişaf etdirən V.İ.Lenin

kommunist mətbuatın nəzəriyyəsini yaratmağa xüsusi əhəmiyyət vermişdir. Rusiyada inqlabi marksist fəhlə mətbuatının sonrakı mərhələsi onun adı ilə bağlıdır. Artıq elə o dövrdə bir sıra Qərb ölkələrində libertarian, sosial mətbuat nəzəriyyəsinin formalaşdığı bir vaxtda XX əsrin lap ilk illərində Lenin partiya mətbuatı, partiyalı ədəbiyyat ideyasını irəli sürüb, bunun özünəməxsus nəzəri əsaslarını hazırlayıb. Mətbuatın birtərəflilik, qərəzsizlik, təbliğatçılıq xarakterindən imtina etməkdə olan Qərb dünyasının əksinə V.İ.Lenin "Nədən başlamalı?" məqaləsində yazırdı: "... qəzetin rolu yalnız ideyalar yay-maqdan, yalnız siyasi tərbiyə verməkdən və siyasi müttəfiqlər cəlb etməkdən ibarət deyil. Qəzet nəinki kollektiv təbliğatçı və kollektov təşkilatçı, habelə təşviqatçıdır".[13, s.11] Bu kommunist mətbuatının doktrinasıdır. Mətbuatın bilgiləndirmək, maarifləndirmək, əyləndirmək funksiyaları bu doktrinada qrup ideyalarını, partiya mənafelərini təbliğ, təşviq etmək və qrup mənafelərinə xidmət edəcək qurumun təşkilinə xidmət göstərmək həddinə endirilir.

Leninin sonralar yaratdığı "İskra", "Pravda" tipli qəzetlər məhz kommunist partiyasının ideoloji təbliğat vasitəsi olmuşdur. Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra Leni-nin Xalq Komissarları sovetinin sədri kimi ilk dəfə imzaladığı dekret "Mətbuat haqqında" olmuşdur. Bu dekretlə bolşeviklərə dəstək olmayan, inqlaba qoşulmayan mətbuat orqanları "əksinqlabçı" damğası ilə qapadılır, "burjuaziya üçün mətbuat azadlığına" son qoyulurdu. Leninin daha bir məqaləsindəki sözləri kommunist mətbuatının birtərəflilik mövqeyini, bu mətbuat üzərində möhkəm dövlət monopoliyasının bərqərar olmasını rəsmiləşdirir: "Fəhlə və kəndli hökuməti mətbuat azadlığı dedikdə, kapital əsarətindən mətbuatın azad olmasını kağız fabriklərinin və mətbəələrin dövlət mülkiyyətinə keçməsini nəzərdə tutur".[13, s.257] Burada isə bir məntiqsizlik üzə çıxır. "mətbuat azadlığı" anlayışı və onun yalnız dövlət mül-kiyyətinə aid olması fikirlərinin üst-üstə düşmədiyi açıq şəkildə görünür. Beləliklə, bu dokt-rina özünəuyğun prinsiplərə mailk olur: partiyalılıq, marksist-leninçi ideyalılığı. Qərb nəzə-riyyəçiləri bu mətbuatın praktik fəaliyyətini izləyərək aşağıdakı nəticələrə gəlmişlər:

Kommunist rejimində mətbuat dövlətin və partiyanın əlində hakimiyyəti saxlamaq, öz ideologiyasını təbliğ etmək vasitəsidir; Bu mətbuat dövlət hakimiyyətinin və partiya təsiri-nin digər alətlərinin vahid sırasındadır; Bu mətbuat partiya və dövlət daxilində birgəliyin aləti kimi istifadə olunur; Mətbuat dövlət və partiya əleyhinə faktların "ifşasında" istifadə edilir; Mətbuat tam mənada təbliğat və taşviqat rolunu oynayir; Mətbuat tam mənada dövlətin, hakimiyyətin onun üzərinə qoyduğu öhdəlikləri yerinə yetirir.

Libertarian və mətbuatın sosial məsuliyyət nəzəriyyələrindən fərqli olaraq bu tipi avto-ritar konsepsiyanın davamı kimi də qələmə vermək olar. Çünki əvvəlki iki konsepsiyada söz və mətbuat azalığına şərait yaradıldığı, jurnalistin bütün doktrinalara əməl etməsinə, sərbəst fəaliyyət göstərməsinə şərait yaradıldığını qeyd etsək də, mətbuatın sovet-kommunist jurna-

listikasının mövcudluğu illərində bütün bunların əksi baş vermişdir. Belə ki, jurnalistika ilə yanaşı digər sahələrdə də eyni vəziyyət hökm sürürdü. Yəni, nə mətbu orqana, nə radioya, nə də ki sonrakı illərdə yaradılan televiziyaya sətbəst fəaliyyət göstərmək imkanı verilmirdi. Hazırlanan material çapa verilməzdən, efirdə yayımlanmazdan əvvəl mütləq nəzarətdən keçməli idi. Sovet dövrünün bu nəzarət tipi senzura idi. Bütün sahələrdə tətbiq olunan senzura təbii ki, jurnalistikadan da yan keçmirdi. Jurnalist nəinki istədiyi informasiyanı verə bilməz, hətta əksər vaxtlarda mənbəni də göstərə bilməzdi və ya ondan istifadə edə bilməzdi. Bir çox hallarda materiallar əvvəlcə Moskvaya göndərilir, orada senzuradan keçilərək yoxlanılır, sonra yenidən geri qaytarılırdı. Təbii ki, əgər həmin yazı sovet ittifaqının mənafeyinə zidd olmazdısa və hökümətin mövqeyini əks etdirərdisə çapa, yayımlanmağa icazə verilirdi. Burada jurnalistin məsuliyyəti doktrinasından danışmağa da dəyməz. Çünki, senzuranın hökm sürdüyü sovet ittifaqında və kommunist mətbuatı nəzəriyyəsi dövründə jurnalistlər sərbəst işləyə bilmirdilər. Bu isə kütləvi informasiya vasitələrinin nümayəndələrinə məsuliyyətdən kənar fəaliyyət göstərməyə, əksər vaxtlarda isə düzgün olmayan, yalan informasiyalar verməyə məcbur edilirdilər. İttifaqın bu tələbini rədd edən jurnalistlər dərhal işdən azad olunur, layiq olmadığı halda hüquqi məsuliyyətə cəlb edilirdi, bəziləri isə “dövlət xaini” adlandırılaraq ailəsi və yaxınlarıyla birlikdə sürgünə də göndərilirdi. Belə şəraitdə əksər jurnalistlər doktrinaları, prinsipləri pozmaq məcburiyyətində qalırdıar. Bu isə bir çox hallarda şayiələrin yaranması, insanlara çər atılması ilə nəticələnirdi. Xüsusilə, də, hökümətin bu fəaliyyətinə qarşı çıxan elm adamları, ədəbiyyatçılar daha çox belə şərə məruz qalırdılar ki, sonda həyatlarından ya da azadlıqlarından olurdular. Sovet dövründə jurnalistikanın hökümətin əsas təbliğat silahına çevrildiyini nəzərə alsaq, onda ittifaq siyasətinə qarşı çıxan insanları xalqın gözündən salmaq, onlara şər atmaq, hətta şərəfvə ləyaqətlərini də alçaltmaq da çox asan və rahat idi. Təbii ki, bu cür fəaliiyət hökümətə sərf etdiyindən şərə qarşı mübarizə aparılmır, əksinə onun daha geniş vüsət alması üçün çalışılırdı. Mətbuatın kommunist nəzəriyyəsi KİV üçün özü prioritet müəyyənləşdirirdi. Yəni avtoritar nəzəriyyədə olduğu kimi, bu dövrdə də jurnalist özü hansısa hadisəni prioritet seçə bilməzdi. Yuxarıda qeyd olunduğu kimi materiallar əvvəlcə Moskvada senzuradan keçdiyi üçün digər ölkələrdə baş verən mühüm ictimai-siyasi hadisələr ittifaqa daxil olan ölkələrin ərazisində yayımlanmırdı. Heç mətbu orqanlar özləri də buna cəhd edə bilməzdilər. Yalnız gizli fəaliyyət göstərən qəzetlər, jurnallar həmin hadisələri prioritetə salırdılar. Lakin belə şəraitdə gizli fəaliyyət də asan iş deyildi, əksəriyyəti isə qısa bir zamanda aşkarlanır və fəaliyyəti dayandırılırdı. Təsisçilər və müəlliflər isə təbii olaraq, ya cəzalandırılır, ya da vətən xaini adı altında edam edilirdi. Belə çətin vəziyyətdə kütləvi informasiya vasitələri yalnız ittifaqdakı xoş hadisələri, əsasən fəhlə sinfinin və əməkçi adamların, həmçinin fermerlərin, kolxozçuların fəaliyyət-lərini prioritet seçmək məcburiyyətində qalırdılar. Həmçinin

müxtəlif idman yarışları və əldə olunan uğurlu nəticələr, incəsənət və mədəniyyət xəbərləri də prioritetə salınırdı. Avtoritar nəzəriyyə illərində olduğu kimi, bu dövrdə də qərəzli informasiyalar çoxluq təşkil edirdi. Həmin qərəz hökümət tərəfindən bilərəkdən bəzi insanlara qarşı yönəldilirdi. Lakin ittifaqa qarşı kiçik bir qərəz hiss olunardısa, həmin yazının müəllifi dərhal yoxlanılmamış cəzalan-dırılırdı. Eyni zamanda jurnalistlər vicdanlılıq, dəqiqlik, ədalətlilik kimi doktrinaları da poz-maq məcburiyyətində qalırdılar. Vicdanlı fəaliyyət göstərən, ədalətsizliyə yol verməkdən çəkinənlər isə işdən azad olunur, cəzalandırılır, ya da sürgünə göndərilirdi. Sovet dövrünün sonrakı illərində siyasi vəziyyət bir qədər yaxşılaşsa da, əslində bu, üzdən belə görünürdü. Həqiqətlər, əsl faktlar, mühüm ictimai-siyasi hadisələr əvvəlki kimi gizlədilir, KİV-nin fəaliyyəti hökümətin istəyinə uyğun olaraq həyata keçirilirdi.

Jurnalistikanın beynəlxalq doktrinaları ilə bağlı görülən işlərə müxtəlif ölkələrin təcrübə-sində rast gəlmək mümkündür. Bunlardan biri də Belçikadır. GJPP-nin (Belçika Jurnalistlə-rinin Federal Assosiasiyası) bu sahədəki fəaliyyəti maraq doğurur. O, peşəkar jurnalist adı verən Komissiya vasitəsilə daha çox tanınır. Kollektiv iş danışıqları, polislə, məhkəmə or-qanları ilə, münasibətdə müstəqil jurnalist ölçülərinin təyin edilməsində, daha geniş desək, müstəqil jurnalist statusu və mətbuat azadlığına dair məsələlərlə bağlı bu komissiyanın rolu əvəzsizdir. GJPP müxtəlif rəsmi instansiyaların nəzdində də fəaliyyət göstərir. Buradan da ona peşəkar marağı artır. Fransız və alman birlikləri üçün televiziya və radio ilə bağlı Ali Şura hansıdır? Qanunla bağlı və öz üzvlərinin maraqlarını müdafiə etməkdən başqa, peşə etikasını müəyyən etmək GJPP-nin üçüncü missiyası və fəaliyyət sahəsidir. GJPP tərəfindən qəbul edilmiş jurnalist prinsipləri məcəlləsi hansıdır? Xatırlamaq lazımdır ki, söz azadlığı insanın əsas azadlıqlarından biridir. Onsuz ictimai fikir lazımi şəkildə məlumatlandırıla bil-məz. Ancaq, mətbuat azadlığının toxunulmazlığını qoruyub saxlamaq üçün GJPP aşağıdakı qaydaları qəbul etmişdir. [5, s.17]

"Hər bir jurnalist obyektivliyin bütün tələbləri qarşısında hakimiyyətin hakimiyyətin mü-əy-yən dairəsində hərəkət etməli olur. Bənzər hadisələrin işıqlandırılmasında jurnalistlərin işinin qiymətləndirilməsinin əsas meyarı doğruluq, etibarlılıq, gerçəklik və informasiyanın tamlığı, bütövlüyüdür. Münaqişələrin nizama salınmasında KİV-nin oynadığı rol jurnalistlərin öz professional fəaliyyətində nə dərəcədə müstəqil olub-olmamasından, həmçinin vacib ictimai informasiyanı əldə etmək imkanının olub-olmamasından asılıdır". [61]

## II FƏSİL: JURNALİSTİKANIN BEYNƏLXALQ DOKTRİNALARININ AZƏRBAYCAN MEDİASINDA TƏTBİQİ PROBLEMİ

**İnformasiyanın mənbəyini göstərmək.** Beynəlxalq jurnalistikanın doktrinalarından olan informasiyanın mənbəyini göstərmək Azərbaycan jurnalistikasında da geniş tətbiq olunur. Ölkədə fəaliyyət göstərən demək olar ki, bütün kütləvi informasiya vasitələri yayımladıqları xəbərdə mənbəni mütləq göstərirlər. Bir neçə il əvvəl geniş yayılmış "etibarlı mənbədən aldığımız xəbərə görə", "adının açıqlanmasını istəməyən" və s. bu kimi ifadələr demək olar ki, artıq işlənmir. Bəzi mütəxəssislər və jurnalistlər əksinə bu ifadələrdən geniş istifadə et-məyin tərəfdarıdırlar. Lakin bu, mənbənin açıqlanacağı təqdirdə hər hansı bir təhlükənin və ya problemin yaranacağına əminlik olduğu halda mümkündür. Təəssüf doğuran məqamlar da var ki, bunlardan biri göstərilən mənbənin əsasən yerli yox, xarici olmasıdır. Aydın məsə-lədir ki, Azərbaycan daxilində baş verən ölkə əhəmiyyətli hadisələr məhz yerli mənbələrə is-tinadən təqdim olunmalıdır və olunur. Lakin vurğulamaq lazımdır ki, əksər vaxtlarda xarici xəbərlərdə əcnəbi kütləvi informasiya vasitələrinə, beynəlxalq informasiya agentliklərinə is-tinad olunur.

Bəzi hallarda isə ikili mənbə qeyd edilir, məsələn, “Rusiyanın NTV kanalının Reuters agentliyinə istinadən yaydığı xəbərdə bildirilir ki...” və s. Əlbəttə ki, bunun səbəb-lərindən biri bizim yerli informasiya agentliklərimizin fəaliyyət sahəsinin çox geniş olma-masıdır. Həmçinin, digər kütləvi informasiya vasitələrində də vəziyyət bu cürdür. Qəzetlərin, radio və televiziyaların başqa ölkələrdə nümayəndəlikləri, müxbirləri, demək olar ki, yox səviyyəsindədir. Yalnız televiziya kanallarının bəzilərinin Türkiyədə, Rusiyada, Gürcüstanda, çox az hissəsinin isə Böyük Britaniya, ABŞ və Almaniyada müxbirləri çalışır. Bununla belə, onların fəaliyyətini daimi adlandırmaq da olmaz. Belə ki, həmin müxbir postlarının olmasına baxmayaraq, heç də həmişə adı çəkilən ölkələrə aid xəbərlərdə mənbə olaraq onlar göstərilmir. Yenə də əksər vaxtlar əcnəbi mənbələrə istinad edilir. Yalnız ölkə daxilində, digər şəhər və rayonlarda daimi çalışan müxbirlər var. Bu da ölkədə baş verən hadisələrdə mənbəyə istinad hallarını azaldır. Yəni, müxbir özü çəkir, lazımi informasiyaları özü toplayır, xəbəri özü hazırlayır və təqdim edir. Mənbə kimisə məmurları, hadisə şahidlərini, mütəxəssisləri və s. insanları göstərir. Bununla belə son illər əksər mühüm hadisələri, dövlət əhəmiyyətli tədbirləri və digərlərini “AzərTAc” dövlət agentliyinin yaydığı informasiyalardan yararlanaraq yayımlanması təcrübəsi geniş vüsət alıb. Eyni zamanda digər xəbər agentliklərimiz də belə informasiyalar ötürürlər. Bir çox idarə və təşkilatlar, dövlət qurumları isə özləri ilə bağlı məlumatları press-reliz olaraq təqdim edirlər və KİV-də mənbə olaraq məhz həmin qurumların mətbuat xidmətlərini göstərirlər. Onu da qeyd etmək lazımdır ki, xarici mənbələrdən istifadə yerli kütləvi informasiya vasitələrinin operativliyini də artırır. Bu isə həmin mətbu orqanın, əsasən də radio və televiziyanın daha keyfiyyətlə fəaliyyət gös-tərməsinə səbəb olur. Bu üsuldan bir çox ölkələrin KİV-i yararlanır.

Lakin mənbənin göstərilmədiyi hallarla da rastlaşmaq mümkündür. Belə ki, bəzi KİV-lər informasiyanın mənbəyini göstərmək doktrinasını pozaraq yayımladıqları xəbərdə istinad ob-yektini vurğulamırlar. Belə vəziyyətdə düşünmək olar ki, yazını, informasiyanı, həmin KİV-nin müxbiri, jurnalist özü hazırladığından mənbə göstərilmir. Lakin əksər vaxtlarda kütləvi informasiya vasitəsi bilərəkdən mənbə göstərmir, bu üsulla bir növ auditoriyanı aldatmağa cəhd edir. Bununla belə, son illərdə auditoriya informasiya qəbulu sahəsində daha da professionallaşıb və bu səbəbdən artıq jurnalistlər, KİV bu yoldan çəkinməyə çalışırlar.

İnformasiyanın mənbəyini göstərməklə yanaşı, bu mənbəyə hörmətlə yanaşmaq onun verdiyi informasiyadan yararlanmaq, bilərəkdən qərəzə, ədalətsizliyə yol verməmək lazım-dır. Həmçinin, mənbəni açıqlamaqla və ya yanlış mənbə göstərməklə kiməsə qarşı şər, böh-tan atma hallarına da rast gəlinir. Lakin professional kütləvi informasiya vasitəsi və jurnalist beynəlxalq doktrinaları pozmamağa çalışır. Mənbənin qeyd olunması, həm də düzgün gös-tərilməsi eyni zamanda auditoriyanı da həmin informasiyaya marağını artırır, eyni zamanda onlarda məlumatın dəqiqliyinə, düzgünlüyünə əminlik yaradıb insanların kütləvi informa-siya vasitəsinə və

müxbirə, jutnalistə olan inamlarının məhkəmlənməsinə səbəb olur. Bütün dünyada olduğu kimi, Azərbaycanda da əsas informasiya mənbələrindən biri kimi internet hesab olunur. yerli KİV-lər internet saytlarına, əsasən də beynəlxalq xəbər portallarına, həm-çinin böyük informasiya agentliklərinin internet versiyalarına daha çox müraciət edirlər.

Bütün ölkələrində olduğu kimi Azərbaycanda da əsas informasiya mənbələrindən biri xə-bər agentlikləri hesab olunur. KİV hazırladığı materialda, yaydığı informasiyada əcnəbi agentliklərlə yanaşı yerli xəbər qurumlarından da istinad obyekti kimi istifadə edir. Azər-baycanın ilk müstəqilliyi illərində (1918-1920 illər) yalnız bir informasiya agentliyi – Azər-baycan Teleqraf Agentliyi vardı. Sovet dövründə AZƏRİNFORM adlanan bu agentlik SSRİ-nin rəsmi informasiya agentliyi olan SİTA-nın yerli nümayəndəsi idi və müstəqil deyildi. Ölkəmiz 1991-ci ildə ikinci dəfə müstəqillik əldə etdikdən sonra həmin agentliyin adı dəyişdirilərək AzərTAc qoyuldu. Hazırda respublikamızda “Turan”, “Trend”, “Şərq”, “Olaylar”, “Eksklüziv”, “ASSA-İRADA”, “AZADİNFORM”, “APA” və digərləri fəaliyyət göstərir. Onlardan ən fəalları “Turan”, “Şərq”, “APA”, “Trend” informasiya agentlikləridir.

Azərbaycanda informasiyanın mənbəyinin göstərilməsinə xüsusi diqqət yetirilir. Demək olar ki, bütün KİV-lər bu doktrinaya tam əməl edirlər. Lakin bunun əksinin baş verdiyi hal-lar da olur. Belə ki, müstəqil fəaliyyət göstərən bəzi mətbu orqanlarda çalışan jurnalistlər informasiyanın mənbəyini qeyd etmirlər. Bəziləri, isə başqa dillərdən tərcümə edərək qəzet səhifəsində istinadsız, öz adları ilə yerləşdirirlər. Bu kimi halların qarşısının alınması üçün ilk olaraq həmin redaksiyanın rəhbərliyi, redaktor özü çalışmalıdır, belə yazılara və onları hazırlayan jurnalistlərə nəzarət etməlidir.

Ölkəmizdə də media qurumları tez-tez anonim informasiya vasitələrinə müraciət edirlər. “Bu günün Azərbaycan reallığında anonim qaynaqlardan istifadə qaçılmazdır. Medianın bəl-li funksiyasına- hökumətin fəaliyyətinin cəmiyyətə 3D prinsipi ilə (doğru+dolğun+dəqiq) xəbərlənməsinə sanki cəmiyyət hazır görünmür. Media hökumətin nə etdiyini, nə etmək is-tədiyini cəmiyyətə xəbərləyən və ictimaiyyətin ovqatını hakimiyyətə yetirən sosial qurum-dur. Onun missiyası məhz xəbərləmək, vətəndaşın qərara gəlməsinə yardımçı olmaqdır. Am-ma xəbərləmək, özəlliklə Azərbaycan şərtləri çərçivəsində xəbərləmək, yumşaq desək, asan deyil. İstər-istəməz, öyüngən-deyingən-çəkingən qaynaqlara söykənməli olursan. Məsələn, anonim qaynaqlara. Əks halda, yüksək rütbəli dövlət məmurunun səhhəti və ya yol fondunun nəyə xərcləndiyi haqda heç nə bilməyəcəksən və s. [17, s.16-17]

“KİV özləri isə anonim mənbə ola bilməz, çünki, məlumatın qaynağı başqa bir informasiya qurumudursa, həmin təşkilat öz adı ilə identifikasiya edilməli, yəni eyniləşdirilməlidir. Düzdür, “filan qəzetdə çalışan və həmin qəzetin sahibkarının çıxarları baxımından adının çəkilməsini

istəməyən bir həmkarıma təsadüfən məlum olub ki...” şəklində xəbər vermək olar, hərçənd, bu halda qaynağın tam qorunmasına təminat xeyli azalır”.[17, s.17]

Xəbər yalnız anonim qaynağa əsaslana bilməz. Bu, təkcə o halda mümkündür ki, xəbəri təsdiqlənmiş məlumat şəklinə salmaq imkansız olsun, ancaq bu halda da başqa xarakterli qaynaqların anonim məlumata münasibət bildirmələri vacibdir. Ümumiyyətlə bir incəliyi yadda saxlayaq: anonim qaynaqlar, adətən, ya adi vətəndaşlar, ya da çox da yüksək vəzifə tutmayan məmurlardır. Adlarını gizli saxlamaqla onlar özlərini məsuliyyət daşımaqdan, iş-dən çıxarılmaqdan, təqib olunmaqdan, bir sözlə, çətin durumla üzləşməkdən qoruyurlar. Məsələn, şəhər merindən ala bilmədiyiniz bəzi məlumatı keçmiş merdən almaq mümkündür və aydın məsələdir ki, bir çox halda eks mer həmin bilgiləri məhz ondan aldığınızın icti-maiyyətə açıqlanmasını istəməyəcək (bunun bir çox müxtəlif səbəbləri ola bilər).

“Anonim xəbər necə redaktə (montaj) edilməlidir? İstər çap, istərsə elektron medianın fəaliyyətində redaktə və montajın başlıca hədəfi olayın qısa və aydın açıqlanmasıdır. Heç söz yox ki, Azərbaycan reallığının öz məhdudiyyətləri var. Məsələn, dövlət əhəmiyyətli mü-bahisəli məsələyə əks baxışların bildirilməsi müxtəlif səbəblərdən ənənə halını almayıb və belə önəmli problem ictimaiyyəti çox qayğılandırmalıdır”.[17, s.17-18]

İnformasiyanın toplanması, işlənib hazırlanması və ondan istifadə edilməsi jurnalist işin-də mühüm rol oynayır. İnformasiyanın qeyd olunan mənbələrdən əldə olunması daha ciddi xüsusiyyətlərlə bağlıdır ki, bu zaman bir sıra qavrayış qanunlarının mürəkkəblikləri üzə çı-xır. Bu ilk növbədə, jurnalistlə vətəndaşlar arasında yaranan əlaqələrdən irəli gəlir. Jurnalist məlumat toplanışı zamanı öz çıxışının bütün güman ediləcək nəticələrini ölçüb-biçməlidir. Mənbənin dəqiq göstərilməsi jurnalist etikasının ən cavib normalarından biridir. Mənbə gös-tərilmirsə, bu jurnalistikanın etik normasına ziddir. Şakir Yaqubovun yazılarının birində belə deyilir: “İndi təzə bir xəstəlik peyda olub: qəzetlər bir-birindən oğurluq etməyə girişiblər. Bəlkə də ayrı-ayrı faktın oğurluğuna dözmək olar, amma bütöv şəkildə yalnız müəllifin adı-nı tullamaqla material oğurluğu heç bir əndazəyə sığmır. Şəxsən bizim üçün ağır olanı budur ki, bu mədəni səkhasəkə məruz qalan əsas qəzet “Səhər”dir. “Səhər”in ayrı-ayrı materialları Türkiyənin “Zaman”, Rusiyanın “Komsomolskya pravda” qəzetində dərc olunur. Bu isə hü-quqi məsələ olmaqdan savayı, həm də mənəvi məsələdir, adicə etikadır”.[21]

Tanınmış azərbaycanlı mütəxəssis Qulu Məhərrəmli anonim qaynaqlarla işləmək təcrü-bəsi haqda fikirlərində bunları deyib: “...Qərbdə mübahisəli fakt kimi çözülən anonim qaynaqlarla işləmək bizdə zərurətə çevrilib. Mən ilk dəfə bu problemlə 1992-ci ilin fev-ralında “Aydınlıq” qəzetinin sifarişi ilə “Paytaxt cəbhəyə necə kömək edir” mövzusunda ya-zı hazırlayarkən üzləşdim. Bakı məktəblərindən birinin iki 9-cu sinif şagirdi əsgərlərə qoşu-lub Qarabağa –cəbhə bölgəsinə vuruşmağa getmişdi. Bir həftədən sonra hərbi hissəyə gələn yoxlama komissiya həmin

"könüllüləri" geri qaytarmışdı. Mən bu yeniyetmələrin entuziazmı arxasında böyük bir xalq təşəbbüsünün dayandığını, bütün ölkənin həqiqi mənada arxa cəbhəyə çevrilməsini əks etdirməyə, müəyyən təhlillər aparmağa çalışırdım. Göz önündə bu məsələyə dair xeyli fakt vardı, lakin müraciət etdiyim hökümət təşkilatlarındakı mənbələrin heç biri bu məlum faktlar barədə danışmaq istəmədi. Mənə lazım olan informasiyaları verən-lərin isə heç biri rəsmən ona istinad edilməsini, adının çəkilməsini istəmədi. Yazım qətiyyən tənqidi planda deyildi, əksinə həmin dövr üçün xarakterik olan coşqun vətənpərvərlik ruhun-da idi, amma bununla yanaşı çoxları başını cəncələ salmaqdan, kiminsə qəzəbinə gəlməkdən ehtiyat edirdi. Bu çəkingən adamların sırasında yüksək vəzifə sahibləri- komitə rəhbərləri, idarə rəisləri, nazir müavinləri də va idi... Bu gün hansısa prinsipial məsələyə dair informa-siyanı mətbuata verən mənbə daha çox anonim qalmağı üstün tutur. Məncə, milli psixolo-giya və həyatı gerçəkliklərə görə bu məqamı başa düşmək mümkündür. Burada əsas odur ki, həmin mənbələrin verdiyi informasiyalar doğru, dürüst olsun...".[4, s.60-61]

**Jurnalistin məsuliyyəti.** Əvvəlki fəsildə qeyd olunduğu kimi məsuliyyət jurnalist fəaliy-yətinin və onun peşəkarlığının əsasını təşkil edən mühüm doktrinalardandır. Hər bir jurnalist və KİV öz işində məsuliyyətli olmalıdır. Müasir jurnalistikanın bir parçası olan Azərbaycan KİV-ləri və jurnalistləri də hər zaman məsuliyyətlə fəaliyyət göstərməyə çalışırlar. İstər yayımlanan xəbərlərdə, istər proqramlarında, istərsə də qəzet səhifələrindəki məqalələrdə, həm də müxbir öz məsuliyyətini yaxşı dərk edir, digər doktrinaları da pozmamağa çalışır.

Bəzən elə hallar da olur ki, KİV qurumu ilə müəllifin, jurnalistin fikri üst-üstə düşmür. Buna xüsusilə, mətbuatda tez-tez rast gəlinir. Belə hallarda qəzetdə mütləq qeyd olunur: "müəllifin mövqeyi qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər". Bu, əsasən mətbu orqanın ştat işçisi olmayan, yalnız əməkdaşlıq edən müəlliflərə aiddir. Çünki, qəzetin ştatında olan işçilər çalışdıqları orqanın mövqeyini əks etdirməlidirlər. Onu da vurğulamaq lazımdır ki, bəzən redaksiya bilərəkdən bu üsuldan istifadə edir. Kiməsə qarşı qərəzli, ədalətsiz davran-dıqda həmin bir cümlə ilə məsuliyyəti boynundan atmağa çalışır. Təbii ki, Azərbyacanda be-lə hallar tez-tez baş verir. Lakin bu o demək deyil ki, həmin usüldan istifadə edən qəzetlər hamısı bilərəkdən məsuliyyətdən qaçmaq üçün bu yola əl atırlar.

Bəzi hallar da olur ki, jurnalist sensasiya xətrinə elə informasiyalar yayır ki, ya kiməsə problem yaşadır, ya da kimlərinsə arasını vurur. Onun məsuliyyətsiz davranışı istədiyi sen-sasiyanı əldə edir və uzunmüddətli müzakirə mövzusu tapır. Bu cür hallar əsasən şou-biznes, incəsənət sahəsində baş verir. Lakin öz işinə məsuliyyətli yanaşan müxbir, jurnalist baş verəcəkləri əvvəlcədən bildiyi üçün insanlar arasında mübahisəyə səbəb olacaq informasiya yaymaqdan çəkinir. Çox vaxt jurnalistin bu cür hərəkəti bütün məsuliyyəti məhz redaksiya-nın üzərinə düşməsi ilə nəticələnir. Bunun "cəzasını" da redaksiya çəkməli olur. Həmin yazı işıq üzü

görməzdən qabaq redaktorlar tərəfindən yoxlanılsa belə hallar yaşanmaz. Bu bir da-ha onu göstərir ki, müxbirlə yanaşı, redaktorlar da məsuliyyətlə çalışmalıdır. Azərbaycanda da jurnalistlərin öz şəxsi məsuliyyətləri ilə yanaşı, hüquqi məsuliyyətləri də mövcuddur. Prinsiplərindən və doktrinalarından kənar fəaliyyət göstərən KİV və onun işçiləri qanunla müəyyən edilmiş şəkildə məsuliyyətə cəlb olunurlar. Digər ölkələrdəki kimi bizdə də həbsdə olan jurnalistlər var və onlar siyasi fəaliyyətlərinə görə hazırda məhbus həyatı yaşayırlar.

Azərbaycan bu gün diffamasiyanın dekriminallaşdırılmasına hazırlaşır. Bu məqsədlə öl-kədə "Diffamasiya haqqında" qanunun qəbulu və müzakirəsi məslələri gündəmdədir. ATƏT-in Bakı ofisinin rəhbəri Bilge Cankorel bildirib ki, Mətbuat Şurası ilə birgə hazırlan-mış "Diffamasiya haqqında" qanun demokratik cəmiyyətin - söz azadlığının təməl daşının davamlılığını təmin etməyə yardım göstərəcək.[62]

Prezident Administrasiyasının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənovun məsələ ilə bağlı fikirlərində Mətbuat Şurası haqında da düşüncələri yer alır: "Mətbuat Şurasının xid-mətləri önəmlidir. Kimlərsə həm daxildən, həm də xaricdən Mətbuat Şurasına basqılar edir. Amma onlar məqsədlərinə nail ola bilmədilər. Mətbuat Şurası media sahəsində yeganə seç-kili qurumdur". Şöbə müdiri diffamasiyanın dekriminallaşdırılması barədə danışarkən deyib ki, bu, heç də jurnalistləri məsuliyyətdən azad etmir. "Dekriminallaşma heç də jurnalistin sö-zü deyib, sonra sözün məsuliyyəti və fəsadları barədə düşünməməsi demək deyil. Senzura aradan qaldırılanda da deyirdilər ki, bütün problemlər həllini tapdı. Əksinə, ondan sonra me-dianın, jurnalistlərin məhkəmələrə verilməsi halları çoxaldı. Diffamasiyanın dekriminal-laşması heç də məsuliyyətdən azad edilmə deyil. Bu, yalnız cinayət məsuliyyətindən azad edilməkdir. Amma əslində "Diffamasiya haqqında" qanunun qəbulu daha ciddi məsuliyyət-dir. Əgər qanunun qəbulunadək jurnalistlər, redaksiyalar məhkəməyə verilirdisə, qanunun qəbulundan sonra həm jurnalist, həm də redaksiya inzibati məsuliyyətə məruz qalacaq". Əli Həsənovun digər fikirləri də maraqlıdır: "Bəlkə də, dünyanın başqa ölkələrində sözə görə məsuliyyət nəzərdə tutulmur, söz hərəkətə çevriləndə məsuliyyət var. Ancaq Azərbaycan mentalitetində belə deyil. Azərbaycanda söz yarası və böhtan əxlaq normalarına uyğun de-yil. Lakin tutduğumuz demokratik yolun xatirinə müəyyən normaların qəbuluna gedirik. O, ilk olaraq kimin jurnalist olduğunu müəyyənləşdirməyin vacibliyini hesab edir: "Qanunve-ricilər də bu məsələdə ciddi düşünməlidir. İstənilən şəxs bloq və internetdə səhifə açıb çıxış edə bilir. Onları jurnalist hesab etmək olarmı? Jurnalist ilk olaraq Mətbuat Şurasının Əxlaq Kodeksinə imza atmalıdır. Hesab edirəm ki, bütün hallarda qanunun qəbulundan sonra me-dia ilə münasibətlərdə çətinliklər artacaq. Azərbaycanda beysbol komandası yoxdur. Amma, düşünmək olar ki, qanunun qəbulundan sonra beysbol komandalarının işlətdiyi fiziki vasi-tələrdən də istifadə ediləcək". [62]

ATƏT-in media azadlığı üzrə xüsusi nümayəndəsi Dunya Miyatoviç hesab edir ki, Azərbaycan üçün diffamasiyanın dekriminallaşdırılmasın çox böyük önəm daşıyır: "Dövlətlər ilk olaraq hökumətlə vətəndaş cəmiyyətlərinin müzakirələr aparması üçün şərait yaratmalıdır". Nümayəndənin fikrincə, diffamasiya və onun dekriminallaşdırılması məsələləri həllini Azərbaycan reallığına uyğun tapmalıdır. "Dekriminallaşmadan danışılırsa, heç kim korrupsiya ilə bağlı faktları cəmiyyətə çatdıranda qorxu hissi keçirməməlidir". Xanım Miyatoviç məsuliy-yətin çox vacib məqam olduğunu vurğulayıb: "Hansı səbəbdən siyasi şəxslər hər zaman jur-nalistlərin məsuliyyətindən danışır. Əlbəttə, jurnalistlər məsuliyyətli olmalıdır. Amma, siya-sətçilər jurnalistlərdən məsuliyyət tələb edirsə, bu, artıq senzuraya yol açmaq deməkdir. Me-dia azadlığı demokratiyanı irəli aparan əsas addımdır. Bu, oturuşmuş demokratiyalara da, keçid dövrünü yaşayan ölkələrə də aiddir. Oturuşmuş demokratiyaların da bu sahədə prob-lemləri var". Xüsusi nümayəndənin fikrincə, siyasilər media azadlığı və jurnalistin məsuliyyəti məsələləri ilə bağlı tolerantlıq nümayiş etdirməlidir: "Siyasilər jurnalistin məsuliyyəti məsələsini ortaya atmaqla həm də jurnalisti özünüsenzuraya məruz qoyur. Hansı səbəbdən jurnalistlər fikrini azad ifadə edəndə qorxu keçirməlidir? Biz jurnalistlərə peşə dərsi keçməməliyik! Heç bir jurnalistə peşə dərsi demək lazım deyil, onlara azad fəaliyyət üçün yardım edilməli və şərait yaradılmalıdır. Bundan sonra, jurnalistlərin peşəkarlığı məsələsi gündəmə gəlməlidir. Qadağalar varsa, kimsə həqiqəti üzə çıxarıb cəmiyyətə çatdıra bilməz.[62]

Paris Vəkillər Kollegiyasının baş vəkili Frederik Qras, KİV üzrə ekspert Zeynal Məm-mədli, "Azərbaycan" və "Zerkalo" qəzetlərinin baş redaktorları Bəxtiyar Sadıxov, Elçin Şıxlı və digər ekspertlər ümumilikdə "Diffamasiya haqqında" qanunun qəbulu zərurəti ilə razılaşıblar. Frederik Qrasın fikrincə, KİV-lə dialoq axtarılması yükü hakimiyyət vasitə-lərinin cəmləşdiyi dövlət aparatının üzərindədir. Onun sözlərinə görə, hətta jurnalist Avropa İnsan Hüquqları Məhkəməsinin vətəndaş və dövlət sirlərinin bəzi növlərinin açılmasına görə məsuliyyət nəzərdə tutan 2-ci bəndini pozduğu hallarda belə, "kəşflərin" müəllifinə adekvat töhmət metodları tətbiq olunmalıdır, lakin həbsə yol verilməməlidir. [66] Media sahəsində hüquqşünas-eksperti Ələsgər Məmmədli bildirib ki, qanun layihəsi Avropa İnsan Hüquqları Konvensiyasına, Avropa məhkəməsi hüquq sahəsinə uyğun hazırlanıb, jurnalistləri cinayət təqiblərindən müdafiə etməyə qadirdir və jurnalistlərin Cinayət Məcəlləsinin 147 və 148-ci maddələri ilə həbsinin ləğvini nəzərdə tutur. Lakin o qeyd edib ki, dekriminallaşdırılma haq-qında qanunun qəbulu söz azadlığı sahəsində tam zəmanət vermir: "Digər konstitusion və qanunverici məhdudiyyətlər qalır ki, bunlardan da gələcəkdə jurnalistlərə qarşı cinayət təqibləri məqsədilə istifadə oluna bilər".[62]

Prezident Aparatının rəsmisi Əli Həsənov ölkə jurnalistikasında mövcud vəziyyət haq-qında öz fikirlərini bildirib: "Jurnalistikamıza baxın, məsələn, biz ötən ildən etibarən dövlət başçısının iradəsilə "Diffamasiya haqqında" qanunun qəbul edilməsinə hazırlaşırıq. Biz is-təyirik ki,

jurnalistlər məsuliyyəti üzərlərinə götürərək özlərini cəmiyyət qarşıdurmasından xilas etsinlər. Jurnalist cəmiyyəti məhkəmələrindən xilas olsun. Lakin bu müddətdə Azər-baycan jurnalistikası bir daşı daş üstə qoyub, öz peşəkarlığını, sözün məsuliyyətini dərk edib bu istiqamətdə fəaliyyət göstərmək bacarıqlarını inkişaf etdirmək üçün bir iş görmədi. Cə-miyyətin və jurnalist ictimaiyyətinin qəbul etdiyi əxlaq kodeksini heç bir qəzet nəzərə almır. İndi jurnalistikada belə təcrübə formalaşıb, əvvəl yazırlar, sonra isə onun məsuliyyəti haq-qında düşünürlər. Bu isə cəmiyyətdə gətirib elə bir proses formalaşdırır ki, qarşıdurma, in-sanların insanları təhqir etməsi, böhtan atması, onların nüfuzuna xələl gətirməsi və digər bu kimi hallarla nəticələnir. Eyni proses televiziya aləminə də sirayət edir. Televiziyalarda ən yaxşı Azərbaycan müsiqilərini efirlərdə görmək əvəzinə ən pis nümunələri görürük. Ən yax-şı efir nümunələrini, filmləri, müəllif, bədii və ictimai verilişləri reytinqli verilişlər sırasına qatmaq əvəzinə çox təəssüflər olsun ki, bayağı şoular reytinq qazanır. Görünür ki, burada te-leviziya ilə bazar mexanizmlərinin uyğunlaşması arasında müəyyən ziddiyətlər var. Gələ-cəkdə bunları daha da şəffaflaşdırmaq, bu sahədəki iştirakçıların sayını artırmaq və zəngin-ləşdirmək yolu ilə azad rəqabət yaradılmasını düşünürük. [63]

Demokratiya media üzərində dövlət nəzarəti ilə heç cür uyuşmur. Mediada özünütənzim-ləmə heç bir siyasi qüvvədən asılı olmayan və məhz demokratiyaya yaraşan siyasi mədəniy-yətin cəmiyyətə “yoluxdurulması”, cəmiyyətin mediaya inamını qoruyub saxlaması üçün-dür. Beləcə, hökumətin əli ilə dövlət nəzarətini gerçəkləşdirən KİV-dən vətəndaş cəmiyyə-tinə məxsus və bu cəmiyyətin göz qoyduğu KİV-ə keçid oluşur. Cəmiyyət azad medianın məsuliyyətsiz olmadığına inanır, hökumətsə medianın fəaliyyətini məhdudlaşdırmaqdan ötrü əsas tapa bilmir. Peşə fəaliyyəti üçün Rəhbər Qaydaların - davranış standartlarının müəyyən-ləşdirilməsi jurnalistlərin müstəqil çalışmalarına imkan yaradır və beləcə, onların işinə höku-mətin açıq müdaxiləsi əngəllənir. Hansı konkret media qurumu bu işi daha istəkli və daha peşəkar qurur və potensial auditoriyanın inamını qazanırsa, sərbəst bazarda daha möhkəm və danılmaz mövqe əldə edir.[17, s.6]

**Şərə qarşı mübarizə.** Məlum olduğu kimi, jurnalistikanın beynəlxalq doktrinalarından biri də şərə qaşı mübarizə aparmaqdır. Şər, yalan, böhtan dünyanın digər ölkələrində olduğu kimi, Azərbaycanda da geniş yayılıb. Təəssüf doğuran məqamlardan biri də budur ki, şərə qarşı nə qədər mübarizə aparılsa da onun qarşısnı almaq hələ mümkün deyil. Bir çox hal-larda kütləvi informasiya vasitəsi və jurnalist kiməsə şər atırsa, böhtan xarakterli yazılar yazırsa, onun arxasında pul, rüşvət, hədiyyələr dayanır. KİV cəmiyyət içərisinə daha tez yol tapmaqda ən asan və ideal variant sayılır. Məhz buna görə də, kiməsə şər, böhtan atmaq istayənlər qəzetlərə, radio və televiziyaya “müraciət” edirlər. Əlbəttə, bunu ölkəmizdə fəa-liyyət göstərən bütün KİV-lərə və jurnalistlərə aid etmək qətiyyən düzgün olmaz.

Bu gün Azərbaycanda 600-ə yaxın mətbu orqan, onlarla radio və televiziya kanalları fəaliyyət göstərir. Onların bir çoxu mətbuat və söz azadlığından yararlanaraq istədikləri hə-rəkətləri edirlər, şərə qarşı mübarizə aparmaq doktrinasını kobud şəkildə pozurlar. Nəinki, şərə qarşı mübarizə aparmır, əksinə, daha da geniş yayılmasında bilavasitə iştirak edirlər.

Ölkəmizdə də “reket jurnalistikası” anlayışı mövcuddur. Düzdür, bir neçə il əvvələ qədər reket qəzetlər və reket jurnalistlər daha çox idi. Onlar rüşvət xətrinə insanlara şər, böhtan atmaq-dan çəkinmirlər. Əvvəllər Azərbaycanda tez-tez rast gəlinən hallardan biri əgər kimsə, hansısa qurum, idarə belə “jurnalistlərə” və “qəzetlərə” pul vermirdisə, dərhal həmin insan-lar haqda düzgün olmayan, böhtan xarakterli yazıların yazılmasıdır. Bu isə, onlara şər atıl-ması ilə yanaşı, iş yerində, şəxsi həyatlarında da problemlər yaradırdı. Həmin dövrdə ölkə-mizdə bir çox sahələrlə yanaşı məhkəmə sistemində də boşluqlar, qanunsuzluqlar hökm sürüdü. Buna görə də, məhkəməyə müraciət edən zərərçəkənlər əksər vaxtlarda ordan əliboş qayıdırdılar. Belə hallarla üzləşməmək üçün insanlar tələb olunan miqdarı ödəyir, bu yolla da reket jurnalistlərin fəaliyyət sahəsinin genişlənməsinə imkan yaradırdılar. Lakin son illər reket jurnalistikasına qarşı ciddi tədbirlər görülür. Bu cür fəaliyyət göstərən qəzetlər müəy-yən olunaraq nəşri dayandırılır. Rəhbərlər, redaktorlar və redaksiyada çalışan jurnalistlər hü-quqi məsuliyyətə cəlb olunur, qanunla nəzərdə tuulmuş şəkildə cəzalandırılırlar. Görülən bu işlər Azərbaycan jurnalistikasında şərin, böhtanın qarşısının alınması yolunda, şərə qarşı mübarizədə mühüm addımdır. Bu işlər hazırda da davam etdirilir. Lakin bütün bunlar kifayət deyil. Hələ də ölkədə şər, böhtanla pul qazanan mətbuat nümunələri mövcuddur.

Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyevin də reket jurnalistikası ilə mü-barizə aparmağın zəruriliyini bildirib: “Mən hesab edirəm ki, media ilə bağlı qaldırdığınız məsələlər çox böyük əhəmiyyət kəsb edir. Reket jurnalistikasına qarşı biz hamımız birgə fəaliyyət göstərməliyik, mübarizə aparmalıyıq. Bu mübarizənin sivil qaydaları olmalıdır. Mən hesab edirəm ki, biz reket jurnalistikasına, necə deyərlər, onların üsulu ilə cavab ver-məməliyik. O neqativ hallara yol verən vətəndaşlar ictimai qınaq obyektinə çevrilməlidir. İctimaiyyətdə onlara qarşı ciddi reaksiya verilməlidir. Dövlətin üzərinə düşən vəzifəni də dövlət etməyə hazırdır. Ancaq bütün bu işlər qanun çərçivəsində olmalıdır. Mən ümid edirəm ki, yaxın zamanlarda bizim adət-ənənələrimizə zidd olan bu nöqsanlar aradan qaldı-rılacaqdır. Hesab edirəm ki, buna müəyyən qədər vaxt lazımdır. Çünki, biz müstəqil ölkə ki-mi cəmi 20 ilə yaxındır ki, yaşayırıq. Hələ ki, bütün sahələrdə olduğu kimi bu sahədə də mü-əyyən qədər vaxt lazımdır”. [65]

Bundan başqa ölkəmizdə elə qəzetlər, elə jurnalistlər də var ki, reketlik etməsələr də insanlara böhtan atmaqla məşğul olurlar. Nə vaxtsa baş vermiş kiçik və əhəmiyyətsiz bir ha-disəni şişirdib bu gün oxuculara elə səviyyədə təqdim edirlər ki, insanlar bunun doğru, həqi-qət olduğuna

inanırlar. Belə halda, haqqında söhbət gedən insana qarşı münasibət dəyişir. Lakin əslində məsələ heç jurnalistin son yazdığı kimi deyil. Şərə, böhtana məruz qalmış hə-min şəxs məhkəmə yolu ilə bunun yalan olduğunu sübuta yetirir. Hətta özünə dəymiş maddi və mənəvi zərərə görə təzminat ödənilməsini də tələb edə bilər.

**Prioritet mövzu.** Azərbaycan kütləvi informasiya vasitələri digər doktrinalar kimi prioritet mövzuya da xüsusi diqqət yetirirlər. Son illər ölkəmizdə prioritetə salınan hadisələr, xəbərlər dünya praktikası ilə üst-üstə düşür. Əvvəllər yalnız yerli xəbərləri prioritet kimi görən Azərbaycan oxucusu, dinləyicisi, tamaşaçısı müasir günümüzdə xaricdə baş verən mühüm hadisələri əsas xəbər kimi görməyə artıq alışıb. Belə ki, 70 il sovet ittifaqının tərkibində olmuş ölkəmizdə senzuranın diqtəsi ilə insanlara yalnız Azərbaycanda və digər ittifaq ölkələrində baş verən hadisələr prioritet kimi təqdim edilirdi. Həmin xəbərlər əsasən ictimai-sosial həyatla, yəni, sovet insanının gündəlik işi, fabrik və zavodların fəaliyyəti, kolxoz və fermer təsərrüfatı, həmçinin əməkçi vətəndaşların həyatları ilə bağlı olurdu. Lakin müstəqilliyimiz bərpa olunandan sonra vəziyyət dəyişməyə başladı. Düzdür, müstəqillin ilk illərində ölkəmizdə baş verən siyasi hadisələr xaricdəki olayları prioritet kimi qəbul etməyə imkan verə bilməzdi. Belə ki, 1990-cı ilin 20 Yanvar hadisəsi, 1992-ci ildən başlayan Qarabağ müharibəsi, Xocalı faciəsi 1994-cü ilə kimi 20 faiz torpaqlarımızın ermənilər tərəfindən işğalı yerli əhalini məhz bu tipli xəbərlərə yönəldirdi. Yəni, insanlar belə çətin, ağır müharibə şəraitində ABŞ-İraq müharibəsi, və ya digər ölkələrdə baş verən təbii fəlakətlər, münaqişələr, ağır qəzalar və s. bu tipli hadisələrlə maraqlanmırdı. Sözsüz ki belə bir şəraitdə Azərbaycan əhalisinin dərdi, fikri jurnalistlərdən eşitmək istədikləri də məhz Qarabağ müharibəsi ilə bağlı idi. Lakin heç də həmiş insanlar istədikləri informasiyaları dərhal əldə edə bilmirdilər. Ölkədə həmin illərdə kütləvi informasiya vasitələrinin azlığı buna mane olurdu. 1990-1994-cü illər ərzində Azərbaycan əhalisinə prioritet kimi məhz ölkədəki siyasi vəziyyət, Qarabağ müharibəsi, mövcud problemlər təqdim olunurdu. Əlbəttə ki, auditoriyanın istəyi və tələbi də məhz bu idi. 1994-cü ildə müharibənin dayandırılması və atəşkəsin elan olunması uzun müddət KİV-in prioritetə saldığı mövzu olmuşdu.

Azərbaycanda bu illər ərzində baş verən hadisələr yerli KİV-lərlə yanaşı, əcnəbi media qurumlarının da maraq dairəsində olmuş və xarici auditoriyaya prioritet kimi təqdim edil-mişdi. Əsasən qonşu dövlətlərin, Türkiyə, Rusiya, Gürcüstan, həmçinin digər dünya ölkələ-rinin kütləvi informasiya vasitələri Azərbaycanda baş verən hadisələri tez-tez əsas xəbər ki-mi insanlara göstərirdilər. Lakin onu da qeyd etmək lazımdır ki, bütün informasiyalar ob-yektiv olmur, həmişə həqiqəti, baş verən hadisələri, Azərbaycan əhalisinin qarşılaşdığı ədalətsizliyi və düşdüyü çətin vəziyyəti olduğu kimi təqdim etmirdilər. Yalnız yerli və bir neçə əcnəbi jurnalistlərin əməyi və səyləri nəticəsində həmin hadisələr, faktlar doğru şəkildə göstərilirdi. Xüsusilə, də

Çingiz Mustafayev və latviyalı xanım jurnalist Tatyana Çaladze hə-yatlarını təhlükəyə ataraq əldə etdikləri informasiyaları, foto şəkilləri, video görüntüləri dün-ya ictimaiyyətinə çatdırırdılar. Onu qeyd etmək lazımdır ki, Çingiz Mustafayev Qarabağ müharibəsini lentə alarkən düşmən tərəfindən qətlə yetirilib. Tatyana Çaladze isə azərbay-canlılara qarşı törədilən vəhşilikləri, ədalətsizliyi dünyaya çatdırdığına görə, öz ölkəsində ciddi təzyiqlərə məruz qalmış, həyatı təhlükəyə düşmüşdü. Təəssüflər olsun, çox az hallarda bu həqiqətlər əcnəbi kütləvi informasiya vasitələrində prioritetə salınırdı.

1994-2000-ci illər ərzində müharibənin dayandırılmasına baxmayaraq siyasi vəziyyət gərginliyini saxlayırdı. Həmin illərdə kütləvi informasiya vasitələrinin prioritetini ölkədə münaqişələr və digər gərgin hadisələr müəyyənləşdirirdi. Artıq 2000-ci ildən etibarən nəha-yət ki, Azərbaycan oxucusu, dinləyicisi və tamaşaçısı da çox hadisələri, şiddətdən kənar xə-bərləri prioritet kimi görməyə başladı. Düzdür, hələ 1994-cü ildə əhalimiz bu səpkili prioritetə şahidlik etmişdi. Belə ki, həmin ilin 20 sentyabrında bütün dövrlərin ən böyük neft la-yihəsi hesab olunan "Əsrin müqaviləsi"nin imzalanması müharibədən yeni çıxmış, yaşayışı pis vəziyyətdə olan həmvətənlərimiz üçün böyük müsbət irəliləyişin əsasını qoydu. Və hə-min vaxt "Əsrin müqaviləsi" Azərbaycan kütləvi informasiya vasitələri ilə yanaşı, eyni zamanda demək olar ki, dünyanın bütün ölkələrinin mediasında ən mühüm prioritet mövzuya çevrilmişdi. Bununla belə, qeyd olunduğu kimi, həm müharibənin fəsadları, həm də siyasi gərginlik "Əsrin müqaviləsi" kimi nəhəng bir layihəni prioritet olmaq baxımından geridə qoyurdu. Lakin 2000-ci ildən etibarən artıq vətəndaşlarımız xoş səpkili prioritetlə rastlaşmağa başladı. Həmin il Azərbaycan üçün çox mühüm bir hadisə yanvarın 25-də Azərbaycanın Avropa Şurasına daxil olması uzun müddət maraqla izlənən əsas xəbərlərdən olmuşdu. Eyni zamanda həmin il keçirilən yay olimpiya oyunlarında idmançılarımızın 2 qızıl və 1 bürünc medal qazanması ölkə idmanı tariximizdə o vaxtadək görünməmiş bir uğur kimi bü-tün kütləvi informasiya vasitələrinin priorieti olmuşdu. Əlbəttə ki, əcnəbi medianın da Azər-baycanı bu hadisələrlə prioritetə salması çox yaxşı hal idi. Lakin həmin ilin sonlarında daha dəqiq 25 noyabr və 6 dekabrda baş verən güclü zəlzələ ölkə gündəminin ən əsas prioritetinə mənfi tipli xəbərlər kimi salınmışdı.

Həmin ildən etibarən Azərbaycanda baş verən həm xoş, həm də xoş olmayan hadisə ölkə KİV-lərinin prioritetinə salınıb və hazırda da salınmaqdadır. Həmin hadisələrə misal kimi Azərbaycanın digər ölkələrlə bağladığı çoxsaylı müqavilələri, əməkdaşlıq sazişlərini, siyasi və iqtisadi sahədəki uğurları, ölkədə keçirilən seçkiləri, idman və mədəniyyət sahəsində əldə olunan uğurları eyni zamanda törədilən irimiqyaslı qanlı hadisələr terror aktları, dəhşətli qə-zalar, təbii fəlakətlər və s. göstərilə bilər. Təbii ki, bütün bunlar xarici media qurumlarının da diqqətində olmuş və prioritet mövzu kimi əcnəbi auditoriyaya təqdim olunmuşdu.

Lakin Azərbaycanın dünya mediasında tez-tez prioritetə salınmasının yaxşı təərəfi ilə ya-naşı pis tərəfi də var. Yəni, ölkəmizdə baş verən bəzi mitinqlər, münaqişələr, 2009-cu ilin 30 aprelində ADNA-da törədilən terror aktı və s. bu kimi mənfi səpkili xəbərlər əcnəbi kütləvi informasiya vasitələrində daha çox yer alır və və hatta, beynəlxalq medianın məhz bu cür informasiyalara üstünlük verdiyini, bütün inkişaf etməkdə olan ölkələr kimi Azərbaycanı da əsasən belə hallarda prioritetə salmağa çalışıldığını desək yanılmarıq. Prioritet mövzu za-manı bütün KİV-lər digər doktrinalara da əməl etməlidirlər. Yəni, informasiyanın mənbəyi mütləq göstərilməli, xəbərə məsuliyyətli, dəqiq, ədalətli, qərəzsiz və vicdanla yanaşılmalı, həmçinin informasiya şər, böhtan xarakterli olmamalıdır.

Artıq 2012-ci ildə yaşayırıq. Bu ili müstəqilliyimizin ilk günündən etibarən ən uğurlu il-lərdən hesab etmək olar. Bu il ölkəmizdə keçirilən və keçiriləcək əhəmiyyətli tədbirlər sayə-sində Azərbaycan dünyanın diqqət mərkəzindədir və demək olar ki, hər gün respublikamız prioritet kimi xarici kütləvi informasiya vasitələrində yer alır. Belə ki, mart ayının 24-25-də və 28 mart – 1 aprel tarixlərində Bakıda keçirilən qadın voleybolçular arasında beynəlxalq turnirlər, mayın 22, 24 və 26-da Azərbaycanın ev sahibliyi etdiyi “Eurovison” mahnı yarış-ması, sentyabrda keçiriləcək futbol üzrə 17 yaşlı qızların Dünya Çempionatının paytaxtımızda təşkil olunması, eyni zamanda, BMT Təhlükəsizlik Şurasına bu il ölkəmizin sədrlik etməsi kimi mühüm hadisələr Azərbaycanın tez-tez prioritetə salınması ilə nəticələnir. Bu isə, əlbəttə ki, vətənimizin xaricdə daha yaxından tanıdılması, təbliğatı, turizmin inkişafı üçün mühüm addımdır. Xüsusilə də, “Eurovision” mahnı yarışması və 17 yaşlı qızların Dün-ya Çempionatı demək olar ki, son bir il ərzində ölkəmiz haqda xəbərlərin dünya mediasının prioritetində olan əsas mövzular sırasına salınmasına şərait yaradır. Xüsusilə, adı çəkilən mahnı müsabiqəsi ərəfəsində bu sahədə fəallıq daha da artdı. Təəssüf ki, kimlərsə bundan is-tifadə edərək ölkəmizin nüfuzunu aşağı salmağa cahd etdilər və xarici informasiya vasi-tələrində mənfi xarakterli xəbərlərə də rast gəlindi. Bütün bunlarla bərabər, hamının diqqət mərkəzində olan Azərbaycan daha çox tanındı, populyarlıq və nüfuz qazandı. Heç şübhəsiz ki, iyul-avqust aylarında yay olimpiya oyunlarında idmançılarımızın əldə edəcəkləri uğurlar da ölkəmizin əsas xəbərlərdə təqdim olunmasını davam etdirəcək.

**Qərəzsizlik.** Jurnalistikada qərəzsizlik üçün neytrallıq prinsipinə əməl etmək də çox va-cibdir. Nəticələrə qarşı neytral olmaq prinsipi o deməkdir ki, ictimaiyyət üçün əhəmiyyət da-şıyan və həqiqət olan xəbər elan edildikdə bundan kiminsə xeyir tapacağından yaxud, zərərə uğrayacağından asılı olmayaraq jurnalist fakta qarşı neytral olmalıdır. Bu o deməkdir ki, redak-siyalar öz auditoriyaları üçün doğru və vacib hesab etdikləri informasiyanı vürməyə çalışmalıdırlar. İnformasiyanın dərcindən, yayımlanmasında sonra doğan nəticələr üçün məsuliy-yət redaksiyanın üzərinə qoyula bilməz. Əgər jurnalistin materialının dərc edilməsinin müm-

künlüyü barədə qərar qəbul edərkən redaksiya yaxud jurnalist onun iqtisadi və ya siyasi nəticələrini nəzərə alarsa, deməli, o zaman informasiyanın qərəzsiz şəkildə ötürülməsi funksiyası pozulmuşdur. İnformasiyanın seçimi zamanı jurnalist bu və ya digər tərəfin mənafeyini əsla nəzərə almamalıdır. Qəzet baş səhifəsində öz siyasi istiqamətinə uyğun gələn fikirlərini və ya mənafelərini ifadə edə bilər. Qəzet xüsusi olaraq ayrılmış yerdə cəmiyyətin bu və digər quruluşunu müdafiə edən müxtəlif problemlərin həlli haqqında öz təkliflərini verə bilər. Ancaq xəbər ilə rəy arasında xətt dəqiq çəkilməlidir. Dərc edilmiş yazıların, efirə verilmiş informasiyanın nəticələrinə qarşı neytral münasibət prinsipi olmalıdır. Bu prinsip formal şəkildə radio və televiziya verilişi ilə müqayisədə mətbuatı daha az dərəcədə əhatə et-sə də, informasiya yayan bütün qurumların fəaliyyətinə şamil edilməlidir. Kiminsə irəli sür-düyü nöqteyi-nəzər xəbər ola bilər, lakin o demək deyil ki, həmin xəbəri yayan KİV həmin xəbəri zorla qaəbul etdirmək hüququna sahibdir. Beləlik, xəbərin seçilməsində və qiymət-ləndirilməsində informasiyanın əhəmiyyətliliyi və həqiqət əsas meyar kimi götürülməlidir. Heç bir məhkəmə, filosof, alim həqiqət anlayışını birmənalı və mübahisəsiz tərifini verə bilməz. Jurnalist hər gün yalan və şübhəli informasiyanı doğru və düzgün informasiyadan ayırmaq məcburiyyətindədir. Bu üsulla o ədalətli, qərəzsiz çəkildə davranmış olur.

İnformasiyanın həqiqiliyi ilə əlaqədar irəli sürülən tələb praktikada ondan ibarətdir ki, jurnalist xəbəri seçərkən faktlara söykənməlidir. Əhəmiyyətlilik meyarında söhbət auditori-ya üçün vacib olan informasiyadan, xəbərin istehsalçı ilə istehlakşı arasında yazılma müqa-viləsindən gedir. Kənar təzyiq, özünün və ya başqasının mənafeyi onun qərarlarına heç bir təsir göstərməməlidir. Burada söhbət informasiya orqanlarının müstəqilliyindən gedir. Xüsu-si maraqların kiminsə şəxsi rəğbətinin və ya nifrətinin informasiya seçiminə təsir göstərməsi yol verilməzdir. Lakin bu müstəqillikdən öz şəxsi maraqları naminə də istifadə etmək qada-ğandır. Belə ki, jurnalist ya öz istəyinə uyğun ya da “sifarişçi”nin istəyinə uyğun olaraq əda-vətli olduqları insan haqqında qərəzli ynformasiya yaymaqdan çəkinməlidir.

Jurnalist vətəndaşlara mühüm informasiya verməlidir. Ancaq hər məsələ barədə öz nöq-teyi-nəzərini təklif etməyə və qəbul etdirməyə çalışmamalıdır. Hadisələrin inkişafına mane olmadan və müdaxilə etmədən xəbərlərin müxtəlif versiyada, ədəbi dildə təqdim etmək la-zımdır. Nəticələrə qarşı neytral münasibət prinsipini rəhbər tutaraq həmsöhbətlərin nə dedik-lərinə diqqətlə qulaq asaraq vacib təzahürlər və hadisələr haqqında sistemli və konkret şəkil-də məlumat vəzifəsi jurnalistdən zamanla ayaqlaşmağı tələb edir. Vicdanının səsini eşidib, fərqli baxışlara baxışlara göz yummamaq üçün o hər şeydən öncə qərəzsiz olmalıdır. Qərəz-sizlik jurnalistin şəxsi rəğbətini və nifrətini bir kənara qoyması onları nəzarətdə saxlaması-dır. Bunun üçün jurnalist peşəkar kimi deyil, bir insan kimi ona xas bütün subyektiv yaşan-tıları: öz

maraqlarını, meyllərini anlamalıdır. Yalnız bu meylləri anladıqda və nəzarətdə saxladıqda jurnalist həqiqətə sayğı göstərə, vicdanlı və açıqfikirli, yəni, qərəzsiz ola bilər.

Fakta təməllilik və dəqiqlik vicdanlı olmaqdırmı? Xəbər fakta əsaslanmış və dəqiq ola bi-lər, amma vicdanlı olmaya bilər. Dəqiqlik və vicdan bir-birinə çox yazın mənalar daşısalar da, eyni deyildirlər. Vicdanlı olmaq, yalan və uydurmaya yol verməmək Allahdan qorxmaq və yalnız olaya birbaşa dəxli olan faktlardan yararlanmaqdır. Vicdanlılığı hadisənin dəqiq xəbərlənməsi deyil, onun necə xəbərlənməsi, hansı baxış bucağından təqdim olması müəy-yənləşdirir. Kimsə qəsdən vacib faktı unudub, ikinci dərəcəli faktı qabarda bilər. Yaxud mü-naqişəyə cəlb olunmuş tərəflərdən birinin mövqeyini açıqlamaya bilər. Elə buna görə də, vicdanlılıq həm də hadisəni müxtəlif baxış bucaqlarından təqdim etmək cəhdi, balansı- tarazlığı gözləmək deməkdir. Balanslı olanda vicdanlı olmaq çətin deyil. Balanslılıq plüralizm, çoxsəslilik, baxış müxtəlifliyidir. Balanslılıq başlıca qaynaqdan götürülmüş hakim baxışla yanaşı, əks (alternativ), fərqli və tamamlayıcı baxışların xatırladılmasıdır. Ba-lanslı və vicdanlı olmaq siyasi hadisələrin, xüsusilə, seçki kampaniyalarının işıqlandırıl-masında çox vacibdir. Bu, o demək deyil ki, hamıya eyni dərəcədə yer verilməlidir. Bu, o deməkdir ki, hamıya eyni imkan verilməlidir ki, öz mövqeyini açıqlaya bilsin. [4, s.50-51]

Bu gün ölkəmizdə fəaliyyət göstərən informasiya vasitələri və jurnalistlər tez-tez vicdandan kənar hərəkətlərə yol verirlər. İstər mətbuatda, istərsə də radio və televiziyada beynəlxalq doktrinaları və prinsipləri pozmaqla yanaşı, öz vicdanlarının səsini duymayan və duymaq istəməyən media işçiləri hədsiz çoxdur. Xüsusilə, əyləncəli proqramlarda, realiti-şoularda bu hallara daha sıx rast gəlinir.

**Ədalətsizlik.** Müstəqilliyinə qovuşduqdan sonra hər sahədə olduğu kimi media və xəbər-çilik sahəsində də artıq sərbəst olaraq dünyayla inteqrasiyaya girən Azərbaycan, beynəlxalq informasiya axını prosesində təsirlənən tərəf olaraq iştirak etməkdədir. İnkişaf etməkdə olan digər ölkələr kimi Azərbaycan da beynəlxalq informasiya axınının biryönlülüyündən mənfi təsirlənməkdə və bunu ölkənin KİV sahəsində çıxan və ötürülən xəbər və informasiyaların təhlili və digər elmi çalışmalar təsdiqləməkdədir. Mütəxəssis Elçin Guliyev Azərbaycanda fəaliyyət göstərən özəl televiziyaların yayım siyasətlərini və proqram məzmunlarını (xüsu-silə şou məzmunlu) tənqid edərkən: “Çox təəssüf ki, televiziyalarımız bizə Avropa mədəniyyətinin keyfiyyətli və qabaqcıl nümunələrini deyil, ən aşağı səviyyəli kütləvi tərbiyə nümunələrini təlqin edirlər”[12, s.58] – deyərək xarici təsir ünsürlərinin ölkə televiziyalarından xalqa sirayət etdiyinə fərqli bir prizmadan yanaşmaqdadır.

2007-ci ilin Sentyabr ayı içərisində ölkə mətbuatının ən çox satılan xəbər ağırlıqlı başlıca qəzetlərindən yeddisinin (“Ayna”, “525”, “Qəzet”, “Şərq”, “Azadlıq”, “Gün”, “Bakı Xəbər” və “Ekspres”) 3 fərqli sayılarındakı xəbərlərin təhlilində ortaya çıxan nəticələr də fikirimizi

dəstəkləməkdədir. Bu qəzetlərin hamısında xarici ölkələrlə əlaqədar nəşr olunan müxtəlif məzmunlu cəmi 306 xəbərin xarici ölkələr arasındakı nisbəti təhlili aparılmışdı. (Xarici ölkələrdən Ermənistan, Qarabağla bağlı mövcud vəziyyəti və bu mövzuda baş verən gündəlik hadisələrin hər gün, hər saat başı yayımlanması baxımından nəzərə alınmayıb).[36, s.76-77]

Sayılan cəmi xarici xəbərlərin 22%-i ilə ABŞ birinci gəlməkdədir. Sıralamada 19% ilə Türkiyə ikinci, 17% ilə Rusiya üçüncü gəlməkdədir. Rusiyanı İngiltərə, İran, Fransa və İs-rail izləməkdədir. Bunların xaricində qalan xəbərlərin 20%-i isə Avropa Birliyi, BM, MDB, Almaniya, İspaniya, Ukrayna, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Dağıstan və s. kimi ölkə və təşkilatlar ilə əlaqəli xəbərlərdir. Buradan da aydın olduğu kimi tək istiqamətli (biryönlü) xəbər axınının mərkəzində duran ABŞ təsirini hələ də davam etdirməkdə, Rusiya isə ABŞ-ı geridən izləsə də təsirli ola bilməkdədir. Türkiyə isə Azərbaycana yaxınlığı və iki ölkə arasındakı qardaşlıq əlaqələrinə görə ölkə mediasının diq-qət mərkəzində durmaqda və bu vəziyyət xəbər sayında da özünü göstərməkdədir. Nəticə etibarilə sıralamada ilk 7-yə girən ölkələr içərisində dördünün dünya xəbər axınını istiqamət-ləndirən inkişaf etmiş qərb ölkələri olması Azərbaycanın tək tərəfli xəbər axınına məruz qaldığı fikrini bir daha doğrulamaqdadır. [36, s.76-77]

Mütəxəssis Cahangir Məmmədli mətbuatın azad olub, azad görünə bilməməsini belə izah edir: "Bu gün heç kim deyə bilməz ki, Azərbaycanda söz azadlığı, mətbuat azadlığı yoxdur. Gileylənənlər var, ola bilər ki, bu qanunlarda yenidən baxılası məqamlar olsun. Amma ha-zırda Azərbaycan mediasında hər kəsin söz demək üçün yeri var. Mən əgər iqtidar əleyhinə söz demək istəyirəmsə, əlimdə müxalifət qəzetləri var, yaxud əksinə. Lakin çox yaxşı olardı ki, bu qəzetlərin hər ikisində, həm də özlərinin istiqamətlərini tənqid eləyən jurnalistlər ol-sun. Biz o zaman mətbuat azadlığını tam azad şəkildə görə bilərdik ki, müxalifət qəzetləri öz liderlərini, iqtidar qəzetləri də öz liderlərini tənqid eləyə bilsinlər". "Yeni medianın ən önəmli problemi peşəkarlıq və jurnalist məsuliyyətinin aşağı olmasıdır. Klassik mətbuatımızda bir məqalə ən azı iki-üç nəfərin gözündən keçir, internet mediasında isə bəzən bir nəfər həm yazır, həm də məlumatı dəqiqləşdirməmiş yayır. Bu isə təbii ki, onun öz məsuliy-yətini dərk etməməsidir". [66]

Media eksperti, araşdırmaçı jurnalist Rizvan Qənbərli isə jurnalistlərin çətin şəraitdə çalışdıqlarını bildirir: "Bu çətinlikləri müxtəlif kateqoriyalarda dəyərləndirmək olar. Əvvəla, jurnalistlər məhdud zaman çərçivəsində işləyirlər. Bundan əlavə, gündəlik peşə praktikalarının yol açdığı çətinliklər də var. Bunlarla yanaşı, təbii olaraq jurnalistlər də bəzi səhvlərə yol verməkdədirlər. Bəzən xəbəri tam araşdırmadan vermək çox vaxt şəxslərə və ya ictimai qruplara qarşı müxtəlif haqsızlıqlara səbəb olur. Bunlar isə peşəkarlıqdan tamamilə uzaqdır. Jurnalist hər şeydən öncə oxucuları, izləyici və dinləyiciləri qarşısında böyük məsuliyyət daşıyır. Çünki onlar

ölkədə və dünyada baş verən hadisələr haqqında xalqı məlumatlandırmaq kimi bir missiyanı həyata keçirirlər. Buna görə də jurnalist peşə fəaliyyətinin hər mərhələsində bu məsuliyyətini yaddan çıxarmamalıdır”. R.Qənbərlinin fikrincə, jurnalistikada məsuliyyət hissinin hazırda dünyada iki yeni praktikası var: “Əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da media və jurnalistlər müxtəlif tənqidlərlə qarşılaşırlar. Vətəndaşlardan ictimai qruplara, dövlət orqanları rəhbərlərindən elm adamlarına qədər müxtəlif qruplar jurnalistləri düzgün fəaliyyət göstərməməkdə qınayırlar. Bunlar çox vaxt yerində olan tən-qidlərdir”. Jurnalistika üzrə ekspert və mütəxəssis Zeynal Məmmədlinin bütün dünyada qəbul olunmuş standartların varlığı haqqında fikirləri də maraqlıdır: “Qərəzsizlik, vicdanlılıq, tərəfsizlik, faktlara istinad, onların ardıcıl verilməsi və digər standartlar var. Azərbaycanda sərbəst bazar olmadığından və qeyri-peşəkarlıq baş alıb getdiyindən bu standartlara fikir vermək o qədər də asan olmur”. [64]

Ümumiyyətlə, ənənəvi media ilə yeni mediada imkanlar fərqlidir. Yəni yeni mediada xəbərin təqdimatı xeyli cazibədar olub. Ona görə ki, onun xəbəri səsli və görüntülü vermək və s. imkanları var. Eyni zamanda, virtual aləmdə ifadə imkanları genişləndikcə, həm də məsuliyyətlə bağlı məsələlər ortaya çıxır. Bu gün çox təəssüf ki, yeni mediada peşəkarlıq çox aşağı səviyyədədir, yəni o sərbəstliyin dadını bilməyən gənc jurnalistlər xəbər dəyərlərini, xəbəri cazibədar şəkildə təqdim etməyi bacarmırlar. Önəmli olan budur ki, yeni media yeni jurnalist tipi tələb eləyir. Bu tip birinci növbədə yüksək peşəkar xəbər dəyərlərini mənimsəmiş jurnalistdir, ikincisi isə yüksək texnoloji vərdişlərə yiyələnmiş bir tipdir. [66]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də ölkə jurnalistikası haqqındakı fikirləri maraq doğurur. 2010-cu il iyulun 22-də Azərbaycan mətbuatının 135 illik yubileyi günündə Mətbuat Şurasının yeni binasının açılışında İlham Əliyev söylədiyi nitqində bir çox məsələlərə toxunub.

İ.Əliyev nitqində diffamasiya haqqında bunları deyib: “Diffamasiya ilə bağlı məsələlərə gəl-dikdə, siz yaxşı bilirsiniz ki, hətta Avropanın inkişaf etmiş ölkələrində bu məsələ ilə bağlı bir-mənalı mövqe yoxdur. Biz Avropa Şurası ilə münasibətlərimizdə dəfələrlə bu məsələ ətrafında fikir mübadiləsi aparmışıq. Biz bu qanunun qəbul olunmasının əleyhinə deyilik. Nəzərə alsaq ki, Azərbaycanda söz azadlığına görə heç kim həbs olunmur, deyə bilərik ki, bu sahədə bir növ qeyri-rəsmi moratorium qeyd olunubdur. Ancaq biz istəyirik ki, bütün ölkələr öz fəaliyyətini bu kriteriyalara uyğun şəkildə göstərsinlər. Bəzi hallarda beynəlxalq təşkilatlar Azərbaycana xüsusi diqqət göstərirlər. Ola bilər ki, bəzi məsələlərlə bağlı bu xü-susi diqqət təqdirə layiqdir. Amma bəzi hallarda bu ayrıseçkilik başqa məna daşıyır və xüsusilə, Avropa Şurası ilə bağlı bizim münasibətlərimizin inkişafı bunu göstərir. Mən bu məsələ ilə bilavasitə məşğul olan bir insan kimi və Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin ilk rəhbəri kimi bütün bu işləri yaxından bilirəm. Deyə bilərəm ki, 2001-ci ildən başlayaraq bu günə qədər Azərbaycana qarşı

bəzi hallarda aparılan ədalətsiz mübarizə bizdə çox böyük hiddət doğurur. Çünki, hər şey ədalətli olmalıdır. Ədalət ən böyük meyardır. Əlbəttə ki, Azərbaycan cəmiyyətində problemlər var. Biz bu problemləri bilirik. Ancaq hər bir ölkəyə vahid meyarlarla yanaşılmalıdır. Azərbaycanın yerləşdiyi bölgədə, qonşuluqda yerləşən ölkələrdə problemlər bizim problemlərdən az deyil. Bəzi hallarda o məsələlərə göz yumulur, yaxud yanlış məlumat təqdim olunur. Azərbaycanda isə xırda məsələ ilə bağlı böyük hay-küy salınır. Sanki kimsə istəyir ki, Azərbaycanın reputasiyasına zərbə vursun. Biz çox yaxşı bilirik ki, 2008-ci ildə Ermənistanda prezident seçkiləri nəticəsində ordunun iştirakı ilə 10-dan yuxarı insan öldürülmüş, prezidentliyə namizəd ev dustağı olmuşdur, yüzlərlə insan – millət vəkilləri, media nümayəndələri həbs edilmişlər. Ancaq sadəcə bir neçə gün ondan sonra müəyyən mətbuat orqanlarında bu barədə məlumat getdi, ondan sonra elə bil ki, bu, heç olmayıbdır, nə beynəlxalq mediada, nə də ki, Avropa Şurasında, nə də başqa yerdə məlumat verilmədi. İndi də bu məsələ ilə bağlı vaxt-aşırı kimsə məsələ qaldırır, amma bu mövzu geniş mənada bağlanıbdır. Azərbaycanda isə müqayisə olunmaz dərəcədə bir xırda məsələ baş verən kimi, dərhal beynəlxalq media orqanlarına çıxarılır. Azərbaycanı elə bil ki, antidemokratik ölkə kimi təqdim etməyə çalışırlar. Bu, bizə qarşı aparılan məqsədyönlü və ədalətsiz mübarizədir. Biz bu mübarizəyə hazırıq və bu mübarizəyə qarşı ancaq öz siyasətimizi, sözün yaxşı mənasında inadkarlığımızı qoymalıyıq və qoyuruq ki, Azərbaycanın maraqlarını müdafiə edək. Ona görə diffamasiya ilə bağlı məsələlərə gəldikdə, mən hesab edirəm ki, bu məsələ öz həllini tapmalıdır və qanunvericilikdə müvafiq düzəlişlər edilməlidir. Amma çox istərdik ki, özlərini demokratiyanın beşiyi sayan inkişaf etmiş ölkələrdə də bu məsələ ilə bağlı addımlar atılsın”. [65]

Jurnalist məsuliyyətinə toxunan İ.Əliyev bunları deyib: “Mən istərdim ki, jurnalistlərin məsuliyyəti ilə bağlı mövqeyimi bildirim. Dediyim məsələlər bu məsələ ilə də bağlıdır. Jurnalistlər çox məsuliyyətli olmalıdırlar. Burada qərəzsiz mövqe çox vacibdir. Mən media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında müstəqil medianın gücləndiril-məsində görürəm. Çünki, hələ ki, bizdə bu sahədə, xüsusilə, yazılı mediada siyasiləşmə meylləri çox güclüdür. Ola bilər ki, bu, müəyyən mərhələdə –Azərbaycanda siyasi sistem, siyasi münasibətlər formalaşdığı bir dövrdə qaçılmaz idi. Ancaq mən hesab edirəm ki, bu gün medianın inkişafı üçün siyasiləşmə prosesi gərək azalsın. Çünki, birinci növbədə, Azər-baycan cəmiyyəti siyasiləşmiş cəmiyyət deyildir. Azərbaycan cəmiyyəti vətənpərvər cəmiy-yətdir. Dövlətə, dövlətçiliyə sadiq olan cəmiyyətdir, ancaq siyasiləşmiş cəmiyyət deyildir. Hesab edirəm ki, cəmiyyəti süni şəkildə siyasiləşdirmək bizə uğur gətirə bilməz. Hər şey təbii olmalıdır, o cümlədən mediada da. Siyasi sifarişlərlə çıxan orqanlar nə qədər az olarsa, bizim mediamız da o qədər həm güclü, həm də ki, daha da müsbət reputasiyaya malik ola-caqdır. Bu məsələ ilə bağlı mən heç kimə heç bir göstəriş verə bilmərəm. Ancaq sadəcə ola-raq öz fikirlərimi bildirmək istəyirəm və hesab edirəm ki,

Mətbuat Şurası da bu istiqamətdə öz lazımi tədbirlərini görəcək ki, jurnalistlərin məsuliyyəti və müstəqil jurnalistikanın müs-təqil orqanlarının gücləndirilməsi işində biz daha da böyük uğurlara nail olaq”. [65]

“Hər bir medianın idarə olunmasında rəhbər qaydaların əsas götürülmsi mühümdür. Fik-rimizcə, həm özəl, həm ictimai yayım əməkdaşları üçün Rəhbər Qaydaların hazırlanması vacibdir, çünki, bu zaman həm etik, həm də peşə incəlikləri daha aydın təsəvvür edilir və ən başlıcası, mübahisəli hallarda suçun kimdə olması daha tez və ədalətli şəkildə üzə çıxarılır. ATƏT-in sifarişi ilə İTV-nin təlim tələbatının təhlilinə həsr edilən və Riçard Lukas, Maykl Rendall və Azər Xəlilovdan ibarət tədqiqat qrupunun gerçəkləşdirdiyi araşdırmada (2006-cı ilin noyabrında həyata keçirilib) redaksiya siyasətinə dair önəmli məqamlar vurğulanıb. Sözügedən araşdırmada İTV-nin redaksiya siyasətini müəyyənləşdirən və jurnalistlərin öz praktik fəaliyyətlərində əsas götürəcəyi rəhbər prinsiplərin hazırlanması da tövsiyə olunur. Həmin Rəhbər Qaydaların əhatə dairəsi də göstərilib: dəqiqlik, qərəzsizlik və fikir müxtə-lifliyi; ədalət, iştirakçılar və razılıq; özəl yaşamın qorunması; cinayət və antisosial davranış; uşaqlar; siyasət və dövlət siyasəti; müşahidə, terrorçuluq və fövqəladə hallar; din; redaksiya vəhdəti və müstəqillik; auditoriya ehtiyacları; media hüququ; cavabdehlik”. [17, s.18-19]

KİV-in əsas məqsədi informasiya vermək, həqiqəti axtarmaqda, tapmaqda oxucuya, ta-maşa-çıya və dinləyiciyə yardımçı olmaq, habelə hakimiyyətin fəaliyyətini nəzarətdə saxlamaqdır. Jurnalist bir fərd kimi cəmiyyətin etik-mədəni dünyagörüşünə nəinki hörmət etməli, özünü də həmin parametrlərə uyğun kökləməlidir. Bu mənada jurnalist ən ciddi peşə normalarına, prinsiplərinə söykənərək ictimai marağı öz marağından üstün tutmalıdır. Hər bir peşənin etik normaları həmin sahənin inkişaf sürəti ilə çox bağlıdır. Jurnalist peşəsinin mürəkkəbliyi və məsuliyyəti ondadır ki, bu peşənin sahibi öz fəaliyyətində müxtəlif insanların, sosial qrupların, kollektivlərin maddi vəmənəvi mənafeləri ilə bağlı problemlərə toxunmalı olur. Jurnalist topladığı məlumatları son dərəcə dəqiq yoxlamalı, faktlara əsaslanmalı, sübutsuz, dəlilsiz fikir yürütməməlidir. O, dövrün, zamanın qarşısına qoyduğu mürəkkəb problemlərin həllinə çalışmalıdır.

# NƏTİCƏ

Aparılan araşdırmalar və istifadə olunan ədəbiyyatlar nəticəsində belə qənaətə gəlmək olar ki, jurnalistikanın doktrinalarına beynəlxalq səviyyədə əməl olunur. Bu, dünyanın inkişaf etmiş ölkələri ilə yanaşı, İEOÖ-lərdə də belədir. Materiallardan da görünür ki, ABŞ başda olmaqla bütün dünya dövlətlərində beynəlxalq səviyyədə qəbul olunan və hər bir jurnalistin fəaliyyətinin, etik prinsiplərinin əsasını təşkil edən doktrinalara ciddi əməl olunur. Bunun üçün müxtəlif normalar, aktlar, sənədlər, hazırlanaraq, ümumilikdə kütləvi informasiya vasitələrinin və media işçilərinin bu sahədəki fəaliyyətinin tənzimlənməsində və ona nəzarət edilməsində mühüm rol oynayır.

Dissertasiyanın birinci və ikinci fəslində beynəlxalq doktrinalara ayrı-ayrılıqda nəzər saldıq və yuxarıda qeyd olunanların doğruluğuna bir daha əmin olduq. İlk olaraq I fəsildə ABŞ başda olmaqla Qərbdə, o cümlədən qonşu Türkiyədə beynəlxalq doktrinaların mövcudluğu, onlardan istifadə təcrübəsi haqda geniş məlumat əldə etdik. Bir çox beynəlxalq təşkilatların, eləcə də yerli qurumların dünya ölkələrində bu sahənin aktuallığı, mövcud problemlərin həlli üçün gördüyü işlərlə də tanış olduq. Bununla belə elmi işdəki məlumatlardan o da bəlli oldu ki, vəziyyət heç də tam mənada ürəkaçan deyil. Yəni, doktrinalara yüz faizli əməl olunduğunu və bu sahədə heç bir problemin olmadığını söyləmək mümkün deyil. Belə ki, yazıdan aydın görünür ki, hansısa doktrinaya ciddi əməl olunduğu halda, paralel olaraq digərlərinin pozulduğu hallarla da rastlaşdıq.

Biz gördük ki, informasiyanın mənbəyinin göstərilməsi doktrinasında əksər vaxtlarda po-zuntu olmur. Lakin demək olar ki, bütün ölkələrdə jurnalistlərin və kütləvi informasiya vasitələrinin bu prinsipi pozduğu və ya pozmağa cəhd etdiyi hallara rast gəldik. Hansısa xəbərdə mənbə ya göstərilmir, ya bilərəkdən yalandan, səhv göstərilir, yaxud da mənbənin adından sui-istifadə olunur. Bunun qarşısının alınması üçün isə ayrı-ayrı dövlətlər, o cümlədən, yerli və beynəlxalq təşkilatlar müəyyən işlər görür, bu cür hallara yol verən cəzalandırılır, jurnalistlər işdən azad edilir, lazım gəldikdə isə hüquqi məsuliyyətə cəlb olunurlar. Həmçinin istinad obyektinin təhlükəsizliyini, nüfuzunu qorumaq məqsədilə onun kimliyinin və adının gizli saxlanıldığı, əvəzində o, “etibarlı mənbə”, “qeyri-rəsmi mənbə” və s. kimi göstərilir. Yazıdan belə görünür ki, əslində müəyyən vaxtlarda belə davranış məqsədə uyğundur. Lakin jurnalistin bilərəkdən hansısa mənbəni belə göstərməsini həmin informasiyanın yalan olmasını ört-bastır etməyə cəhdi kimi də qiymətləndirmək olar. Çox təəssüf ki, doktrinalara ciddi əməl olunduğu müasir jurnalistikada bu cür hallarla tez-tez rastlaşırıq. Bunula belə, beynəlxalq və yerli təşkilatlar həmin pozuntuların qarşısının alınması üçün ciddi səylə çalışırlar. Eyni vəziyyət Azərbyacanda da mövcuddur. Biz gördük ki, ölkəmizdə bu problemlər bir qədər daha geniş yayılıb. 1998-ci ildə rəsmi olaraq senzuranın ləğvi haqqında qanunun qəbul olunmasından sonra informasiyanın mənbəyinin göstərilməsi doktrinasının pozulması hallarına daha tez-tez rast gəlinir. Əlbəttə, son bir neçə il

ərzində bu problem qismən azalmağa başlayıb. Bunun da əsas səbəbi kimi dövlət səviyyəsində görülən işlərlə yanaşı, auditoriyanın daha peşəkarlaşması, bu kimi məsələlərə daha ciddi yanaşmasını vurğulamaq olar. İnsanlar artıq düzgün informasiya eşitmək və hər xəbərdə mənbənin olmasını istəyirlər. Əks halda onun doğruluğuna əksəriyyətdə şübhə yaranır.

Dissertasiyada jurnalist məsuliyyəti ilə bağlı yer alan materiallardan və araşdırmalardan belə məlum oldu ki, kütləvi informasiya vasitələri və onun işçiləri bu sahəyə daha çox diqqət yetirməyə çalışırlar. Lakin burada da müəyyən pozuntulara rast gəlirik. Bu hal Azərbaycan üçün də keçərlidir. Belə ki, digər dövlətlərdə olduğu kimi, ölkəmizdə də öz işinə məsuliyyət-siz yanaşan, bunun da nəticəsində böyük problemlər yaradan jurnalistlər və KİV də var. Təəssüf ki, beynəlxalq və yerli səviyyədə bunun qarşısını almaq üçün bir çox işlər görülsə də, hələ müasir jurnalistikada məsuliyyətin pozulduğu hallar davam edir. Yazıdan gördük ki, burada jurnalistin fəaliyyətində onun sosial məsuliyyəti də çox vacibdir. Həmçinin hüquqi məsuliyyət anlayışı ilə də tanış olduq ki, bu da media orqanı və onun işçilərinin qanundan və qaydalardan kənar hərəkəti zamanı daha çox aktual olur.

Eyni zamanda şərin müasir jurnalistikada çox geniş yayıldığının və onun da qarşısının alın-masında müəyyən problemlərin olduğunu gördük. Bunun üçün şərə qarşı mübarizə doktrinasının bütün ölkələrdə, o cümlədən Azərbaycanda tətbiqi üçün həm yerli, həm də beynəlxalq təşkilatlar müəyyən işlər görürlər. Yenə də deməliyik ki, bütün bunlar kifayət etmir. Belə ki, kütləvi informasiya vasitələri nümayəndələrinin şəxsi ədavətləri olan və ya  kimlərinsə şifarişi ilə insanlara şər atması halları geniş yayılıb. Burada onlar eyni zamanda informasiya mənbəyini yanlış göstərmək yolundan da istifadə edirlər. Bununla da onların bu hərəkətinin guya şərdən kənar olduğunun sübutu kimi cəhdlərinin də şahidi olduq. Lakin yenə də müxtəlif qurumlar, təşkilatlar jurnalistlərin şərə qarşı mübarizədə aktiv olmaları üçün əllərindən gələni etdiklərini və hətta belə jurnalistlərin müvafiq vəziyyətdə hüquqi məsuliyyətə də cəlb olunduqlarını gördük.

Doktrinalar içərisində ən az problemlə üzləşəni prioritet mövzudur desək yanılmarıq. Çünki müasir günümüzdə demək olar ki, dünyanın hər yerində insanlar yalnız mühüm olan və hamı tərəfindən maraqla qarşılanan xəbərləri eşitmək və görmək istəyir. Hadisənin baş verdiyi məkandan və vəziyyətindən asılı olmayaraq maraq doğura biləcəyinin şahidi olduq. Belə informasiyalar müasir jurnalistikada hər zaman prioritetə salınır. Lakin prioritet möv-zuda da müəyyən narazılıqların olduğunu söyləyə bilərik. Belə ki, baş xəbərə çıxarılan möv-zular əksər vaxtlarda mənfi xarakterli olur. Bütün dünyada auditoriyanın ən çox eşitməyə alışdığı bu cür xəbərlərdən  bəzi kütləvi informasiya vasitələri öz məqsədləri naminə də isti-fadə edirlər. Həm digər dövlətlərdə, həm də ölkəmizdə belə halların olması yazıda göstərilib. Lakin inkişaf etməkdə olan ölkə kimi Azərbyacanın da daha çox beynəlxalq mediada mənfi prioritet kimi göstərilməyə çalışıldığını da təəssüflə qeyd etməliyik.

Jurnalistikanın qərəzsizlik, vicdanlılıq, ədalətliklik kimi beynəlxalq doktrinaları da var ki, bunlar əsasən bütün digər doktrinalara əməl olunmadığı halda daha çox pozulur. Ümumiy-yətlə, başda qərəzsizlik, vicdanlılıq və ədalətliklik olmaqla hər bir jurnalistin və kütləvi informasiya vasitəsinin bütün doktrianalara ciddi əməl etməsi vacibdir. Bu, beynəlxalq təşkilatların, məşhur media qurumlarının, eləcə də ayrı-ayrı dövlətlərin qəbul etdiyi sənədlərdə də xüsusi vurğulanır. Təəssüf doğuran məqamlardan biri də budur ki, son illər demək olar ki, bütün dünya KİV-lərində belə pozuntu hallarına tez-tez rast gəlirik. İstər demokratiyanın beşiyi hesab olunan ABŞ-da, istər digər Qərbdə dövlətlərində, istərsə də inkişaf etməkdə olan, o cümlədən Azərbaycanda və "üçüncü dünya ölkələri" adlandırılan dövlətlərdə jurnalistlərin qərəzli, vicdandan kənar və ədalətsiz fəaliyyətinin sahidi olduq.

Əlbəttə, bütün bu problemlərlə yanaşı, onların həlli və qarşısının alınması üçün həm yerli, həm də beynəlxalq təşkilatlar, müvafiq qurumlar tərəfindən müəyyən işlər görüldüyünün də şahidi olduq. Bu cür hallar hazırda da davam edir. Doktrinalara əməl etməyən kütləvi informasiya vasitələri və jurnalistlərlə mübarizə də davam edir. Azərbaycanla yanaşı, bütün dünyada belə fəaliyyət dövlət səviyyəsində pislənilir və hakimiyyətin bu cür insanlara qarşı hər zaman mübarizə apardığının da şahidi olduq. Bu dissertasiyadan belə qənaətə gəlmək mümkündür ki, hələ, ötən əsrin əvvəllərindən başlayan doktrinaların, eləcə də prinsiplərin pozulmasına qarşı mübarizə tədbirləri təəssüf ki, kifayət etmir. Bunun üçün hələ yerli və beynəlxalq təşkilatlar çox çalışmalıdırlar. Əlbəttə ki, kütləvi informasiya vasitələri və jurnalistlər özləri də bu işdə yaxından iştirak etməlidirlər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

**Azərbaycan dillində:**


1) Azərbaycan Respublikası KİV haqqında qanun. Bakı, 1999
2) Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 2007
3) Azərbaycan Respublikası Mülki Məcəllə. Bakı, 2011
4) Bəşirli Aynur, Kərimova Aynur, Vəkilova Dilarə. Xəbərçilik. Bakı, 2007

5) Demokratik cəmiyyətdə media: beynəlxalq və milli təcrübə. Beynəlxalq konfransın materialları. Bakı, 2010

6) Ənsərov Vəfalı. Beynəlxalq informasiya yayımında biryönlülük. AMEA. Elmi əsərlər, Elmi-nəzəri jurnal. Bakı. 2009, N-1-2(13)

7) Fichtelius Erik. Jurnalistikanın on qızıl qaydası. AJB-nin NƏŞRİ. Bakı, Press Klub, 2001

8) İsveçin Mətbuat haqqında qanunu. Fichtelius Erik. Jurnalistikanın on qızıl qaydası. AJB-nin NƏŞRİ. Bakı, Press Klub, 2001. səh. 38-39

9) İsveçin Söz azadlığı haqqında qanunu. Fichtelius Erik. Jurnalistikanın on qızıl qaydası. AJB-nin NƏŞRİ. Bakı, Press Klub, 2001. səh. 41

10) Jurnalist məsuliyyəti. Dünya Mətbuat Şuralarının Təcrübəsi. Bakı Mətbuat klubunun nəşri, Press-Klub, Bakı, 2002

11) Qənbərli Rizvan. Jurnalistin əl kitabı. Bakı, 2005.

12) Quliyev Elçin. Televiziya- nəzəri inkişaf meylləri. Bakı, Şərq-Qərb, 2004

13) Lenin V.İ. Əsərləri. V, XXVII cild

14) Media və hakimiyyət. RUH Jurnalistləri Müdafiə Komitəsinin nəşri. Bakı, 2002

15) Məmmədli Cahangir. Jurnalistikaya giriş. Bakı, 2001

16) Məmmədli Cahangir. Müasir jurnalistika. Bakı, 2003

17) Məmmədli Zeynal. Media etikası. Demokratik media necə davranmalıdır. Konfrans materialları.

18) Rəhimova Sima. Jurnalist etikası. Bakı, 2008

19) Ümumdövlət davranış etikası sistemləri. Bakı, 2000

20) Vəliyev Həmid. Beynəlxalq jurnalist təşkilatları. Bakı, 2005

21) Yaqubov Şakir. "Özgə atına minən...", "Səhər" qəzeti 16 sentyabr 1994

**Rus dillində:**

22) Богданов Н, Вяземский Б. Справочник журналиста. Лениздат, 1965

23) Голядкин Н.А. ТВ информация в США. Москва, 1996

24) Денис Э., Меррил Д. Беседы о масс-медиа. Москва, 1997

25) Егоров В.В. Телевидение: теория и практика. Москва, 1993

26) Засорина.Т, Федесова Н. Профессия журналист. Москва, 1999

27) Землянова Л.М. Зарубежная коммуникавистика в предверии информационного общество Москва, 1999

28) Коркопосенко С.Г. Основы журналистики. Москва, 2001

29) Петровская И. "Человек которуму верили все" Газета "Известия" 21 август 1999

30) Профессионалная этика журналистов. Москва, 1999

31) Рихтер А.Г. Правовые основы журналистики. Московский университет, 2002
32) Современная журналистика. Киев, 1999
33) Токвил А. Демократия в Америки. Москва, 1997

**Türk dillində:**

34) Bıçakcı İlker. Gazeteçilik ve halkla ilişkiler. MediaCat yayınları, Ankara, 1998
35) Bülbül Rıdvan. Uluslararası gazeteçilik. Coşan-Ofset matbaa, Konya, 1997
36) Ensərov Vəfalı. Uluslararası Enformasyon Akışında Etkilenen Taraf Olarak Azerbaycan'ın Durumu. Erciyes Üniversitesi İletişim Fakültesi Akademik Dergisi,Ocak, 2010.c.1-s.3
37) Girgin Atilla. Uluslararası gazeteçilik, Haber Ajansları ve A.A. Der Yayımları. İstanbul, 2002.
38) Groombridge Brian. Televizyon ve insanlar. Haz: İbrahim Derbeder. Der Yayımları, İstanbul
39) Hürriyet gazetesi. 4 ağustos 2011
40) İdris Adil. Haberde haricden asılılıq. Gazeteciler Cemiyeti Yayımları, İstanbul, 1991
41) İşık Metin. Dünya ve Türkiye bağlamında kitle iletişim sistemləri. Konya, Eğitim Kitabevi Yayınları, 2007
42) Oktay Zeyneb. Uluslararası bilişimin sosyal-kültürel etkileri. Der Yayınları, İstanbul, 1995
43) Önür Nimet. Sosyal değişim sürecinde az gelişmiş ülkelerde enformasyon sistemleri. "Düşünceler" dergisi. Şubat, 1990
44) Posta gazetesi. 25 ağustos 2011
45) Refik İ. İletişim çağında kültürde dirilmek. İzmir, TÖV yayınları, 1997
46) Sabah gazetesi. 15 ağustos 2011
47) Star gazetesi. 21 ağustos 2011
48) Sözcü gazetesi. 14 ağustos 2011
49) Tokgöz Oya. Temel gazeteçilik. Ankara Universitesi Yayımları. Ankara 1987
50) TÜGİAD raportu. İstanbul, 1995
51) Vural Sacide. Kitle İletişiminde Denetim Sistemleri. Ankara, Özışık Matbaaçılık, 1994

**İngilis dillində:**

52) Brooks S.B., Kennedy G., Moen R.Daryl, Ranly D. News Reporting
and Writing. NY, Bedford/St.Martin's, 2002
53) Schudson M. Discovering the News. A Social History of American

Newspapers. US, Basic Books, 1978.

**İnternet resusrsları:**

54) www.guardian.co.uk

55) www.dailymail.co.uk

56) http://www.mirror.co.uk

57) http://www.thelocal.de

58) http://www.hurriyet.com.tr

59) http://www.posta.com.tr

60) http://en.wikipedia.org/wiki/Eugene-Meyer-Yucin-Meyer –"Washington post" qəzetinin sahibi.

61) http://www.medialow.ru – Рихтер А.Г. журналистика и война: освещение российскими журналистами воейнных действий в Чечне.

62)http://www.voanews.com/azerbaijani/news/Azrbaycan-diffamasiyann-dekriminalladrlmasna-hazrlar–121640259.html- Azərbaycanda diffamasiya

63) http://www.sia.az/index.php?action=static_detail&static_id=218362

64) http://www.mediaforum.az/az/2010/04/15/NİYƏ-XƏBƏRƏ-MÜKAFAT-VERƏN-YOXDUR-110058118c04.html

65) http://www.president.az/articles/495/print

66) http://www.kaspi.az/news/a-12205.html

67) http://www.mediarights.az

68) http://ajb.az/site /?sec=mdata&mid=47&lang=1 - Azərbaycan Respublikası Jurnalistlərinin Peşə etikası Kodeksi. Bakı.2009.